AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Jurnal 1970-ci ildən nəşr olunur.
2007, № 3 (180)

# İBTİDAİ MƏKTƏB VƏ MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ

**(Elmi-metodik jurnal)**

3
2007

*Baş redaktor:* **prof. Y.Ş.Kərimov**

*Redaksiya heyəti:*

**Arif Muradov** - *Təhsil Nazirliyi şəhərlər üzrə ümumtəhsil və məktəbəqədər tərbiyə şöbəsinin müdiri*

**Nurlana Əliyeva** - *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru*

**Ağahüseyn Həsənov** - *Bakı Məktəbəqədər Pedaqoji Texnikumunun direktoru, pedaqoji elmlər doktoru*

**Vidadi Xəlilov** - *Təhsil Problemləri İnstitutunun şöbə müdiri, pedaqoji elmlər doktoru*

**Əlövsət Osmanlı** - *"Pedaqogika" nəşriyyatının direktoru, fizika-riyaziyyat elmləri namizədi*

**Seyidağa Həmidov** - *ADPU-nun kafedra müdiri, pedaqoji elmlər doktoru, professor*

**Ataş Abdullayev** - *AMİ-nin müəllimi pedaqoji elmlər namizədi*

**Oqtay Rəcəbov** - *Təhsil Problemləri İnstitutunun əməkdaşı, pedaqoji elmlər doktoru*

**Ramiz Əliyev** - *Təhsil Problemləri İnstitutunun şöbə müdiri, psixologiya elmləri doktoru*

**Akif Əliyev** - *Təhsil Nazirliyi təhsilin idarə olunmasının məlumat sistemləri şöbəsinin məsləhətçisi*

**Nərminə Alnağıyeva** - *Təhsil Nazirliyi şəhərlər üzrə ümumtəhsil və məktəbəqədər tərbiyə şöbəsinin böyük məsləhətçisi*

**Həqiqət Hacıyeva** - *ADPU-nun dosenti*

**Zemfira Əsədova** - *Bakının Nizami rayonundakı 175 nömrəli körpələr evi uşaq bağçasının müdiri*

**Esmira Ağayeva** - *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın direktor müavini*

**Sevda Abbasova** - *Pedaqoji elmlər namizədi, dosent*
*(məsul katib)*

---

Yığılmağa verilmiş: 06.08.2007. Çapa imzalanmış 24.08.2007.

Kağız formatı: 70x100 $^{1}/_{16}$. Şərti çap vərəqi 6,0.

Sifariş № 36. Tirajı 800. Qiyməti 2 manat.

Redaksiyanın ünvanı: AZ1010, Bakı, Azərbaycan prospekti 40.
Tel. 493-84-41, 050-370-60-11

---

"RS Poliqraf" MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Ünvan: Bakı ş. A.Məmmədov 113. Tel.: 437-98-20.

# BU NÖMRƏDƏ


Yeni dərs ilində kurrikulum sınaqdan keçiriləcək ........................4

*Məktəbəqədər tərbiyə*

**Məmmədova A., Abdullayeva S.** Monitorinq və qiymətləndirmə keyfiyyətə təsir edən amil kimi........................6

**Sadıqova T., Məmmədova A.** Uşaqların məktəbə hazırlanmasında sosial-psixoloji amillərin rolu........................12

**Babayeva Z.** Böyük qruplarda musiqi tədrisinin metodikası........................17

**Hacıyeva S.** Metodik işlərin planlaşdırılması ........................20

***Fənlərin tədrisi və qabaqcıl təcrübə***

**Abbasov C.** İkidillilik şəraitində üzündənköçürmənin təşkili üzrə işin yolları........................26

**Sadıqova M.** Şagirdlərin nitqinin inkişafında sinifdənxaric işlərin əhəmiyyəti........................30

**Paşayev P.** Məsələ həllinin öyrədilməsinin didaktik sistemi........................33

**Ələkbərova T., Məmmədov V.** Praktik məzmunlu məsələlərin tərtibi üzrə işin təşkili təcrübəsindən........................39

**Rəcəbov O. Quliyeva R.** İbtidai siniflərdə musiqi təliminin məqsəd və vəzifələrinə yeni baxış........................43

**Mustafayeva L.** Dialoq- diskussiya haqqında........................47

***Tərbiyə məsələləri***

**Kərimova G.** Dərsdənkənar tədbirlərdə əməksevərlik tərbiyəsi........................52

**Nadirova İ.** Sinifdənxarc işlərin kiçikyaşlı məktəblilərin estetik tərbiyəsinə təsiri........................55

**Kazımova Y.** Təsviri incəsənət dərslərində şagirdlərin vətənpərvərlik tərbiyəsinin imkanları........................59

***Psixologiya və defektologiya***

**Əliyev R.** Təhsilə psixoloji xidmətin sosial-psixoloji problemləri........................67

***Təhsilin tarixi***

**Mirzəliyev M.** Müstəqillik tariximizin bəzi məsələləri........................72

***Pedaqogika nəzəriyyəsi***

**Cahangirova T.** Şagirdlərin yaradıcı fəallığının pedaqoji əsasları........................76

***Bizim iş yoldaşlarımız***

**Mürsəlova F.** Təməl qoyulur........................80

***Pedaqoji eksperiment***

Yeni «Əlifba» dərsliyi üzrə eksperimentin nəticələri........................84

***Tənqid və biblioqrafiya***

**Süleymanoğlu F.** Yenə də dərsi - üsuli-qədim?........................88

## YENİ DƏRS İLİNDƏ KURRİKULUM SINAQDAN KEÇİRİLƏCƏK

Qloballaşma, modernləşmə, Avropa təhsil sisteminə inteqrasiya şəraitində təhsilin qarşısında hər an yeni vəzifələr qoyulur. Tarixən orta ümumtəhsil məktəblərində hər hansı dəyişiklik ibtidai siniflərdən başlanır. İbtidai təlimdə baş verən hər hansı dəyişiklik yuxarı siniflərdə çox ciddi dəyişikliklərin edilməsi ilə nəticələnir.

Müasir dövrdə təhsil sistemi pedaqoq və psixoloq alimlərdən təhsil konsepsiyası, təhsil qanunu, təhsil standartları, kurrikulum, mükəmməl fənn proqramları, dərsliklər, dərs vəsaitləri tələb edir. Bu gün məktəb yeni təlim texnologiyaları (yeni forma, vasitə, metod və priyomlar, yeni yanaşma) sorağındadır.

Son illərdə müəllimlərin böyük bir qismi interaktiv metodlar və onların tətbiqi ilə təşkil edilən yaradıcı fəaliyyət axtarışındadır. Belə fəaliyyət isə təkidlə yeni məzmun tələb edir.

Bir neçə ildir ki, ibtidai təlimin yeni məzmununun, kurikulumunun hazırlanması üzrə gərgin iş gedir. Artıq kurrikulum tamamlanmış, təsdiq edilmiş və müəllimlərin müzakirəsinə təqdim olunmuşdur. Kurrikulumun ümumi məzmunu ilə yanaşı, fənn kurikulumları da işlənib müzakirəyə verilmişdir. Ayrı-ayrı fənlər üzrə kurrikulumlar yeni məzmunla yanaşı, təlimə yeni yanaşma tərzi, şagirdlərin təlim əməyinin yeni qiymətləndirmə qaydalarını da təklif edir. İndi əsas məsələ kurrikulumun müəllimlər, təhsil işçiləri tərəfindən şüurlu şəkildə dərk olunmasıdır.

Yeni dərs ilində Bakının 20, Sumqayıtın 3 məktəbində ibtidai təlim kurrikulumu eksperimentə qoyulur. Pedaqoji eksperimentin qaydasına görə ayrı-ayrı fənlər üzrə proqramlar hazırlanmalı, yeni dərsliklər yazılmalı, şagirdlər üçün həmin dərsliklərə uyğun dərs vəsaitləri, əyani vəsait və didaktik materaillar tərtib edilməli, kurrikulumun tələblərinə müvafiq hazırlanmış yeni dərsliklər və dərs vəsaitləri ilə müəllimlərin işləmələri üçün metodik göstərişlər yazılıb çap edilməli idi. Bunlar olmadan, hətta onların bircə dənəsi çatışmadan eksperiment obyektiv nəticə verə bilməz. Şübhəsiz, 2008-2009-cu dərs ilində I sinif üçün belə tədris kompleksi hazırlanacaq və müəllimlərə çatdırılacaqdır.

Qarşıdakı dərs ilində eksperimental obyekt kimi fəaliyyət göstərəcək siniflərin müəllimləri üçün mövcud dərslik və dərs vəsaitləri ilə işləməyin metodikası hazırlanmalı, xüsusilə kurrikulumun tələblərinə uyğun olaraq şagirdlərin müstəqil, yaradıcı işlərinin yeni məzmunu və yolları onlara çatdırılmalıdır. Bu məqsədlə ola bilər ki, keçən dərs ilində eksperitmentə qo-

yulmuş «Əlifba» və «Riyaziyyat» dərslikləri ilə işləmək üçün hazırlanmış geniş metodik rəhbərliklərdən istifadə edilsin. Həmin metodik göstərişlər uşaqların müstəqil fəaliyyəti üçün əlverişli şərait yarada bilər.

Eksperimental siniflərin müəllimləri üçün seminar-müşavirə təşkil olunmalı, işin mexanizmi haqqında onlara əsaslı istiqamət verilməlidir. Eksperimentə başlamazdan əvvəl bütün siniflərdə şagirdlərin ayrı-ayrı fənlər üzrə təlim müvəffəqiyyətləri öyrənilməlidir. Heç olmasa uşaqların ana dili və riyaziyyat üzrə məktəbə hazırlıq səviyyəsi aşkarlanmalıdır.

Eksperimental siniflərin müəllimlərinə təlimat verilməlidir ki, hər gün, hər bir dərsdə ənənəvi təlim texnologiyalarından fərqli olaraq sinfə, dərsə hansı yeniliyi gətirdiklərini, hansı metod və priyomlardan, hansı əyani vəsait və didaktik materiallardan istifadə etmələrini, şagirdlərin məntiqi suallarını, dərsdə baş verən qeyri- adi halları, təlimin təkmilləşməsi üçün arzu və istəklərini qələmə alsınlar.

Eksperimentin gedişində əlifba təliminin birinci mərhələsindən sonra eksperimentator məktəbin rəhbəri, sinif müəllimi, paralel sinfin müəlliminin iştirakı ilə həmin dövrdə keçilmişlər səviyyəsində yoxlama aparmalı, ümumiləşdirərək nəticəsini müəllimlərə çatdırmalıdır.

Dərs ilinin axırında kompotent və cavabdeh şəxslərin iştirakı ilə eksperimental siniflərdə yoxlama işi aparılmalı, nəticələr yekunlaşdırılmalı, həmin nəticələr eksperimentin qoyulmadığı paralel siniflərin nəticələri ilə tutuşdurulmalı, kurrikulumun üstünlükləri müəyyənləşdirilməli və geniş müzakirə keçirilməlidir.

Eksperimentin belə təşkili kurrikulumun təkmilləşdirilməsinə və kütləvi şəkildə tətbiqinə imkan verər. ❑

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ KEYFİYYƏTƏ TƏSİR EDƏN AMİL KİMİ

**Adilə MƏMMƏDOVA,**
ARTPİ-nin elmi işçisi

**Südabə ABDULLAYEVA,**
Bakı Şəhər Təhsil İdarəsinin Suraxanı – Xətai bölmələrinin məktəbəqədər sahə üzrə metodisti,



Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramında təhsil müəssisələrinin fəaliyyətinin Monitorinq və qiymətləndirilməsi mühüm vasitə kimi qarşıya qoyulmuşdur. Vaxtaşırı, obyektiv həyata keçirilən monitorinq qiymətləndirmə təhsilin keyfiyyətini yüksəltmək üçün mühüm şərtlərdən biridir.



Son illər təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi üçün işlək mexanizmin hazırlanması və tətbiqi sahəsində bir sıra uğurlu addımlar atılmış, daxili və xarici monitorinqlərin aparılması üzrə faydalı təkliflər irəli sürülmüş, modellər işlənmişdir.

Təhsilin keyfiyyəti onun qarşısına qoyulan məqsədə hansı səviyyədə nail olunmasının göstəricisidir. Yəni təlim-tərbiyə prosesində keyfiyyət, təhsil alanlara verilən bilik, bacarıq və vərdişlərin müvafiq dövlət standartlarına və cəmiyyətin tələbatına hansı səviyyədə uyğunluğunu müəyyənləşdirən və inkişafa xidmət edən başlıca vasitədir. Təlim-tərbiyə prosesində və təhsildə monitorinq və qiymətləndirmə inkişafın gedişinə nəzarət etmə və əks əlaqə yaratma funksiyası daşıyır. Monitorinq və qiymətləndirmə vasitəsilə hər bir mərhələdə, prosesdə gedən müsbət işlər izlənilir, qeydə alınır, nəticələr müqayisəli təhlil olunur və prosesin növbəti mərhələsinin planlaşdırılmasında istifadə olunur.

Təhsilin digər pillələrində olduğu kimi, məktəbəqədər təhsil müəssisələrində də bu sahədə xüsusi axtarışlar, araşdırmalar aparılır. Özünüqiymətləndirmə mexanizminin yaradılması və tətbiqi yönümündə uğurlu nəticələr əldə edən və

təcrübə toplayan 257, 237, 315 nömrəli körpələr evi-uşaq bağçalarının bu sahədə təcrübələrindən rayonun digər uşaq tərbiyə müəssisələri də səmərəli istifadə edir. Rayonun 315 nömrəli körpələr evi-uşaq bağçaında keçirilən dəyirmi masada «Təhsilin keyfiyyətinin yüksəldilməsində qiyətləndirmənin rolu» mövzusunda müzakirə təşkil olunmuş, qiymətləndirmənin təhsilin keyfiyyətinə təsir göstərən mühüm amillərdən olduğu bir daha vurğulanmışdır.

Məktəbəqədər tərbiyə müəssisələrində daxili monitorinq və qiymətləndirmə aparılarkən təlim prosesinin iştirakçılarının fəaliyyətinin qiymətləndirilməsi aşağıdakı kimi aparıla bilər: 1) tərbiyəçinin təşkilati fəaliyyəti; 2) təlim fəaliyyəti; 3) tərbiyəvi fəaliyyəti; 4) bacarığı; 5) peşəkarlıq səviyyəsi; 6) vəzifəsi; 7) uşaqların fəaliyyətinin qiymətləndirilməsi.

**1.Məşğələlərin planlaşdırılma səviyyəsi:** uşaqlarla səmərəli əks əlaqənin təmin olunması, əməkdaşlıq şəraitinin yaradılması: əsas psixoloji tələblərin həyata keçirilməsi; tərbiyəçinin nitqinin aydınlığı, sürəti, tələffüzü, obrazlılığı, emosionallığı və s. Məşğələdə vaxtdan səmərəli istifadə: tərbiyəçinin pedaqoji mədəniyyəti, taktı, zahiri görünüşü: məşğələdə əməyin mühafizəsi, təhlükəsizlik texnikasının, gigiyenik tələblərin gözlənilməsi;

**2.Tərbiyəçinin təlim fəaliyyəti:** məşğələnin elmi səviyyəsi, elmilik prinsipinin gözlənilməsi; təlim metodlarının düzgün seçilməsi uşaqların yaşına və inkişaf səviyyəsinə uyğunluq; təlim yükünün uşaqların potensial imkanlarına uyğunluğu (diferensiallaşdırma, fərdiləşdirmə); təlimin inkişafetdirici funksiyasının tətbiqi, bilik, bacarıq və vərdişlərin uşaqlara aşılanması səviyyəsi; təlim vərdişlərinin aşılanması (öyrənməyi öyrətmək); əyani vəsaitlərdən, təlimin texniki vasitələrindən və s. istifadənin səmərəliliyi və məqsədəmüvafiqliyi; uşaqların biliyinin qiymətləndirilməsi və s.

**3. Tərbiyəçinin tərbiyəvi fəaliyyəti:** uşaqların dünyagörüşünün formalaşdırılması səviyyəsi; uşaqların mənəvi tərbiyəsində məşğələnin imkanlarından istifadə; uşaqların milli zəmində vətənpərvərlik ruhunda tərbiyəsində məşğələnin imkanlarından istifadə; məşğələnin uşaqlara estetik emosional təsiri; uşaq hüquqlarının mühafizəsi səviyyəsi, uşaqların hüquq tərbiyəsində məşğələnin imkanlarından istifadə; tərbiyəçinin uşaqlarla davranışı, onları pedaqoji prosesin bərabərhüquqlu subyekti kimi qəbul etməsi; tərbiyəçinin məşğələdəki fəaliyyətinin şəxsi nümunəsinin tərbiyəvi əhəmiyyəti.

**4. Uşaqların fəaliyyətinin qiymətləndirilməsində aşağıdakılara üstünlük verilməlidir:** uşaqların məşğələdə idrak fəallığının səviyyəsi; uşaqların müstəqillik səviyyəsi; uşaqların tədris materialında aparıcı ideyaları seçmək bacarığı; uşaqların təhliletmə, ümumiləşdirmə bacarıq və vərdişlərinin səviyyəsi; məşğələ prosesində uşaqların şifahi nitqinin inkişafı; uşaqların kollektiv və qrup tərkibində işləmək vərdişlərinin səviyyəsi; təlim vasitələri, cihazlar və digər xüsusi avadanlıqlarla işləmək bacarıqları.

Tərbiyəçinin peşəkarlıq səviyyəsini qiymətləndirmək üçün aşağıdakı bacarıqlara diqqət yetirmək lazımdır:

**1) Öyrənmə həvəsinin yaradılması:** uşaqların göstərilmiş təbii məşğələləri ilə məşğul olmaları üçün tərbiyəçi tərəfindən onlarda idraki və emosional qavrama yaratmaq bacarığı.

**2) Məntiqi quruluş:** uşaqların məşğələdə öyrədilən müxtəlif mövzular, ideyalar, məsələlər və s. arasında əlaqəni başa düşmələri üçün tərbiyəçinin məşğələ mövzusunu və təlim fəaliyyətini sistemləşdirmək və təqdim etmək bacarığı.

**3) Sürəti tənzimləmə:** tərbiyəçinin yeni mövzu və ya fəaliyyət tədbirlərini müvafiq nisbətdə təqdim etmək, lakin bu mövzu və fəaliyyətləri hazırlamaq üçün həddindən artıq deyil, yalnız tələb olunan qədər vaxt sərf etmək bacarığı.

**4) Dəqiqləşdirmə:** tərbiyəçinin mövzunu aydınlaşdırmaq, yaxud hazırlamaq bacarığı.

**5) İfadə qüvvəti**: tərbiyəçinin ünsiyyətin təsir qüvvəsini və mənasını artırmaq üçün nitq (səs tonu, informasiya, vurğu) və hərəkət (üzün ifadəsi, jestlər, bədən hərəkətləri) priyomlarından istifadə etmək bacarığı.

**6) Sualların verilməsi:** tərbiyəçinin müvafiq vaxtlarda və müxtəlif təlim məqsədləri üçün müəyyən sorğu-sual metodlarından istifadə etmək bacarığı.

**7) Sualların cavablandırılması:** tərbiyəçinin suallara aydın, lakonik və emosional intonasiya ilə cavab vermək bacarığı.

**8) Uşaqların iştirakı:** tərbiyəçinin məşğələ prosesində muzakirələrə uşaqları cəlb etmək və bu müzakirələri məhsuldar istiqamətə yönəltmək bacarığı.

**9) Bitirmə:** tərbiyəçinin məşğələdə əsas mövzuya aid əvvəllər əldə olunan biliklərin məqsədlərini birləşdirmək, tanış və yeni mövzular arasında idraki əlaqə yaratmaq, uşaqlara irəliləyiş etmələri fikrini aşılamaq bacarığı.

**10) Qiymətləndirmə:** həqiqi və etibarlı qiymətləndirmə tədbiri hazırlamaqla qiymətləndirməni yerinə yetirmək üçün meyarlar müəyyənləşdirmək və uşaqların əldə etdikləri nailiyyətlərə uyğun rəy bildirmək bacarığı.

**11) Tələbkarlıq səviyyəsi:** tərbiyəçinin uşağın düşünmə qabiliyyətini inkişaf etdirən, lakin dərk edilməsi həddindən artıq çətin olmayan məşğələlərin məqsədlərini və mövzusunu seçmək bacarığı.

**12) Metodlar və materiallar:** tərbiyəçinin müxtəlif tədris metodlarından səmərəli istifadə etmək, idrak qabiliyyətlərini inkişaf etdirməkdə, məşğələlərdə və tədris materiallarında müxtəliflik yaratmaq bacarığı.

**13) Yaradıcılıq:** Tərbiyəçinin yaradıcı və bədii tədris strategiyalarından istifadə etmək bacarığı.

**14) İcra etmək:** tərbiyəçinin təlim metodlarını təşkil etməklə təşkilati və inzibati tapşırıqları yerinə yetirmək bacarığı.

**15) Uyğunlaşma, fərdiləşmə**: tərbiyəçinin qruplarda olan müxtəlif maraqlara və qabiliyyətlərə malik uşaqlarla işləmək, onları izləmək uşaqların təkliflərinə, tənqidlərinə, qeydlərinə yaradıcı cavab vermək bacarığı.

**16) Şəxsiyyətlərarası əlaqə:** tərbiyəçinin insanlarla qarşılıqlı hörmət və anlaşma yaratma bacarığı.

**17) Təlim mühiti:** tərbiyəçinin uşağın məşğələyə cəlb edilməsinə (açıq və yaxud qapalı) və təliminə yardım edən mühiti yaratmaq və saxlamaq bacarığı.

Tərbiyəçi bacarıqları belə qiymətləndirilir: *A- çox az; B- az; C- orta; Ç- çox; E- lap çox.*

Belə qiymətləndirmə müəssisə rəhbərləri və digər rəhbər orqanlar tərəfindən aparıla bilər.

Tərbiyəçinin özünü qiymətləndirməsi

1. Uşaqların biliklərinin əsasını birinci olaraq tərbiyəçi qoymalıdır.

2. Biliklərinin əsasını birinci olaraq uşaqların özləri qoymalıdır.
3. Tərbiyəçi müxtəlif metodlardan istifadə etməlidir.
4. Qrupda interaktiv öyrədidci mühitin yaradılması təlim prosesinin səmərələşdirilməsi üçün mühümdür.
5. Bütün uşaqlar yüksək nailiyyətlər əldə etməyə qadirdirlər.
6. Tədris etdikləri sahə barədə məlumatlı olmaq üçün tərbiyəçilər təhsilə dair cari nəşrləri oxumalıdırlar.
7. Tərbiyəçilər müxtəlif mütəxəssis birliklərində fəal iştirak etməlidirlər.
8. Tərbiyəçi qrupun hazırlıq səviyyəsini təhlil etməyi bacarmalıdır.
9. Tərbiyəçi uşaqların xüsusiyyətlərini öyrənməyi bacarmalıdır:

a) tədris fəaliyyətini qrupun hazırlıq səviyyəsi ilə uyğunlaşdırmaq;

b) məşğələ zamanı uşaqların təlim ehtiyaclarını müəyyənləşdirmək; təlim prosesində uşaqların ehtiyaclarını uyğunlaşdırmaq.

c) tənqidi düşünmə qabiliyyətini inkişaf etdirən öyrədici mühit yaratmaq;

10. Tərbiyəçi kurrikulum və materiallar hazırlamağı bacarmalıdır.

- müvafiq material seçmək, yaxud yeni materallar hazırlamaq;
- müvafiq tədris məqsədlərini müəyyənləşdirmək;
- yeni təlim və tədris materialları hazırlamaq;
- mövcud təlim və tədris materialları hazırlamaq.

11. Tədrisi icra etmə metodları:

- uşaqları tənqidi düşünməyə vadar edən tapşırıqlardan istifadə etmək;
- məşğələlərarası tədrisi həyata keçirmək;
- səmərəli sorğulardan istifadə etmək;
- uşaqlara məlumatı təhlil etməyə yönəldən suallar vermək;
- uşaqlara məlumatı sintez etməyə yönəldən suallar vermək.
- uşaqları qiymətləndirməyə və əsaslandırılmış mühakimələr yürütməyə vadar edən suallar vermək;
- uşaqlarda maraq və həvəsləndirici amilləri (motivasiyanı) aşkar etmək;
- tədrisi yeni dövlət standartları ilə uyğunlaşdırmaq bacarığına malik olmaq;
- tədris etdiyi sahə üzrə peşəkar səviyyəsinə çatmaq;
- uşaqlara fəal dinləyicilər olmağı öyrətmək;
- uşaqlara öyrəndiklərini tətbiq etmək üçün imkan yaratmaq;
- uşaqları problemləri həll etmə prosesinə yönəldən tapşırıqlardan istifadə etmək;
- tədris prosesində qrup şəklində əməkdaşlıqdan istifadə etmək;
- bütün uşaqlara aralarındakı fərqlərə hörmətlə yanaşmağı öyrətmək.

**Tərbiyəçinin vəzifəsi**

- tədris fəaliyyətini təqdim edərkən tərbiyəçinin uşaqda maraq oyatmaq bacarığı;
- tərbiyəçinin hər bir məşğələ müddətində təlim tədbirləri üçün məqsədləri izah etməsi;
- tərbiyəçinin məşğələnin məqsədlərini izah etməsi;
- uşağın yerinə yetirməli olduğu işlərinin tərbiyəçi tərəfindən izah edilməsi;
- uşağın məşğələnin məqsədlərini anlaması və başa düşməsi üçün tərbiyəçinin yeni ideyaların hansı səviyyədə çatdırılmasının daha uyğun olduğunu müəyyənləşdirmək bacarığı;

- tərbiyəçinin dəqiqləşdirilməli olduğu məqsədləri aydınlaşdırmaq bacarığı;
- danışıq bacarığı və nitq mədəniyyəti;
- asan başa düşülən suallar vermək bacarığı;
- uşağı düşünməyə vadar edən suallar vermək bacarığı;
- suallara aydın cavab vermək bacarığı;
- müzakirələri aparan başçı kimi əldə etdiyi nəticələri ümumiləşdirmək bacarığı;
- uşaqları müzakirələrə cəlb etmək bacarığı;
- yalnız tərbiyəçi - uşaq arasında deyil, uşaqların öz aralarında müzakirələr təşkil etmək bacarığı;
- yeni mövzuya keçməzdən əvvəl görülən işləri yekunlaşdırmaq bacarığı;
- məşğələnin sonunda işləri əlaqələndirmək bacarığı;
- uşaqlara müvəffəqiyyətləri haqqında vaxtaşırı məlumat verə bilməsi;
- uşaqda düşünmə qabiliyyətini inkişaf etdirən mövzuları və tədbirləri seçmək bacarığı.

Yuxarıda göstərilənlərdən istifadə edərək hər bir müəssisə rəhbəri təlim prosesini, onun iştirakçılarının fəaliyyətini hər bir tərbiyəçi öz fəaliyyətini uşaqların fəaliyyətini qiymətləndirə bilər. Təlim prosesinə rəhbərlik edən hər bir müəssisə rəhbəri aşağıdakı cədvəldən istifadə edərək uşaqlara verilən təlim-tərbiyə işlərini qiymətləndirə bilər.

| № | Tərbiyəçinin təşkilati fəaliyyəti | bal | Tərbiyəçinin təlim fəaliyyəti | bal | Tərbiyəçinin tərbiyəvi fəaliyyəti | bal | Uşaqların fəaliyyəti |
|---|---|---|---|---|---|---|---|
| 1 | Məşğələnin planlaşdırılma səviyyəsi | | Məşğələnin təşkilində elmilik prinsipinin gözlənilməsi | | Məşğələdə uşaqların dünyagörüşünün formalaşması | | Uşaqların fəallığının səviyyəsi |
| 2. | Məşğələdə uşaqlarla səmərəli əks əlaqənin təmin olunması, əməkdaşlıq şəraitinin yaradılması | | Təlim metodlarının düzgün seçilməsi, uşaqların yaşına və inkişaf səviyyəsinə uyğunluq | | Uşaqların mənəvi tərbiyəsində məşğələnin imkanlarından istifadə | | Uşaqların müstəqillik səviyyəsi |
| 3. | Məşğələdə əsas psixoloji tələblərin həyata keçirilməsi | | Təlim yükünün uşaqların potensial imkanlarına uyğunluğu (diferensiallaşdırma fərdiləşdir- | | Uşaqların milli zəmində vətənpərvərlik ruhunda tərbiyəsində məşğələnin imkanlarından | | Uşaqların tədris materialında aparıcı ideyaları seçmək bacarığı |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | mə | | istifadə | | |
| 4. | Tərbiyəçi nitqinin aydınlığı, surəti, tələffüzü, obrazlığı, emosionallığı və s. | | Təlimin inkişafetdirici funksiyasının tətbiqi, bilik, bacarıq və vərdişlərin uşaqlara aşılanması səviyyəsi | | Uşaqlara məşğələnin estetik-emosional təsiri | | Uşaqların təhliletmə, ümumiləşdirmə, bacarıq və vərdişlərinin səviyyəsi |
| 5. | Məşğədə vaxtdan səmərəli istifadə | | Məşğələdə təlim vərdişlərinin aşılanması (öyrənməyi öyrətmək) | | Uşaqların hüquqlarının mühafizəsi səviyyəsi, uşaqların hüquq tərbiyəsində məşğələnin imkanlarından istifadə | | Məşğələ prosesində uşaqların şifahi nitqinin inkişafı |
| 6. | Tərbiyəçinin pedaqoji mədəniyyəti, taktı zahiri görünüşü | | Məşğələdə əyani vəsaitlərdən, təlimin texniki vasitələrindən istifadənin səmərəliliyi və məqsədəmüvafiqliyi | | Tərbiyəçinin uşaqlarla davranışı, onların pedaqoji prosesin bərabərhüquqlu subyekti kimi qəbul etməsi | | Uşaqların kollektiv və qrup şəklində işləmək vərdişlərinin səviyyəsi |
| 7. | Məşğələdə əməyin mühafizəsi. Təhlükəsizlik texnikasının gigiyenik tələblərin gözlənilməsi | | Uşaqların biliyinin qiymətləndirilməsi | | Tərbiyəçinin məşğələdəki fəaliyyətinin, şəxsi nümunəsinin tərbiyəvi əhəmiyyəti | | Təlim vasitələri, cihazlar və digər xüsusi avadanlıqlarla işləmək bacarıqları |

Cədvəldə dörd fəaliyyət üzrə yeddi parametrdə verilən istiqamətlər 0,1,2 balla qiymətləndirilir. Balların cəmi toplanıb, dördə bölünür və yüzə vurulur. Beləliklə, təhsilin keyfiyyət faizi çıxarılır.

(Ardı var)

Ədəbiyyat


1. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə Bakı, «Çaşıoğlu», 2003.
2. YUNİSEF və fəal təlim metodlarına giriş üçün. Metodik tövsiyə, ARTN, Bakı, 2000.
3. Təhsilin inkişaf mərkəzi. Müəllimlərin peşəkarlıq səviyyəsini inkişaf proqramı. ARTN.

# UŞAQLARIN MƏKTƏBƏ HAZIRLANMASINDA SOSİAL-PSİXOLOJİ AMİLLƏRİN ROLU

**Təranə SADIQOVA,**
pedaqoji elmlər namizədi

**Ayşə MƏMMƏDOVA,**
ADPU-nun baş müəllimi

Müstəqillik qazanmış respublikamızın təhsil sistemində köklü islahatlar aparıldığı, təhsilin məzmununa, böyüməkdə olan nəslin təlim-tərbiyəsinə yeni tələblərin irəli sürüldüyü indiki dövrdə respublikamızın ən kiçik vətəndaşlarının təlim-tərbiyəsi, onların məktəbə hazırlanması problemi xüsusi aktuallıq kəsb edir.

Uşağın məktəb təliminə başlaması ilə onun həyat tərzi, fəaliyyət növü, münasibətlər sistemi dəyişir. Məktəb yaşına keçid nəticəsində sosial münasibətlər öz mahiyyətini dəyişir. Sistemli təlimə keçid fəaliyyət üslubunun, qaydaların, böyüklərə, onların tələblərinə münasibətin dəyişməsi deməkdir. Professor Y.Ş. Kərimov haqlı olaraq qeyd edir: «Məktəb təliminə psixoloji hazırlığı olmayan uşaq uzun müddət yeni həyat şəraitinə, yeni fəaliyyətə alışa bilmir. Bir neçə gündən sonra təlim onun üçün cansıxıcı bir işə çevrilir. O, dərsdə özünü idarə etməyi, müəllimi dinləməyi, müəllimə sual verməyi, verilən tapşırığı düzgün, səliqəli, vaxtında yerinə yetirməyi... kollektivin ictimai əməyinə qoşulmağı bacarmır. Müəllimdə belə uşağın normal təhsil alacağına, müvəffəqiyyətinə ümid azalır. Ona görə də bütün bü xüsusiyyətlər məktəbəqədərki dövrdə tərbiyə olunmalıdır» (1, s. 61-62).

Prof. M.Ə.Həmzəyev göstərir ki, uşağın «məktəbdə təhsil almasına keçilməsi sahəsində qazanılacaq müvəffəqiyyət, hər şeydən əvvəl, onların məktəb təliminə necə hazırlanmalarından, xüsusilə psixoloji hazırlıq səviyyələrindən çox asılıdır. Uşağın məktəbə psixoloji hazırlığı onun üçün bu vaxta qədər əsas fəaliyyət növü olan və tələbatlarını ödəyən oyundan yeni fəaliyyət növünə keçməsini və həmin fəaliyyət növünün onun tələbatlarını ödəyəcək əsas fəaliyyət kimi dərk olunmasını təmin edən ən mühüm amildir» (2, s. 26).

Göründüyü kimi, M.Ə.Həmzəyev məktəbə psixoloji hazırlığı psixi inkişafı, tələbatların ödənilməsi, fəaliyyət növünün dəyişməsi və təlim motivlərini daxil edir. O yazır: «Altıyaşlıların məktəb təliminə psixoloji cəhətdən hazır olmalarının ən mühüm göstəricilərindən biri onları məktəbə, təlim fəaliyyətinə yönəldən motivlərin formalaşması, oxumağa həvəsin formalaşmasından ibarətdir» (2, s. 27).

Məktəb təliminə psixoloji hazırlıq bir sıra əqli, iradi və əxlaqi keyfiyyətləri, həmçinin yeni fəaliyyət növünün müvafiq motivasiyasının təşəkkülünü də əhatə deir. Uşağın məktəbə hazır olması üçün onun sosial mövqeyini məktəblinin vəzifə və hüquqlarını qəbul etməyə hazır olması da vacibdir. Uşağın məktəbə, tədris fəaliyyətinə, özünə münasibəti bununla bağlıdır.

Uşağın məktəb təliminə psixoloji hazırlanmasını məktəbəqədər yaş dövrünün sonunda fiziki və mənəvi inkişafın yüksək zirvəsi hesab edən Ə.Ə. Qədirov həmin anlayışa aşağıdakı keyfiyyətləri daxil edir. «Buraya ilk növbədə təlim vəzifələrinin mənasını başa düşmək, özünənəzarət və özünüqiymətləndirmə vərdişlərini şüurlu surətdə dərk etmək daxildir. Burada uşaqların iradi keyfiyyətlərinin, xüsusilə təkidlilik, fəallıq, təşəbbüskarlıq və s. inkişafı daha çox mühüm əhəmiyyət kəsb edir (3, s. 96). O, uşağın əqli fəaliyyətinin, hafizəsinin, təfəkkürünün, nitqinin inkişafını müşahidə etmək, dinləmək bacarığının inkişafını, kollektivə alışmasını, ictimai fəaliyyətə qoşulmasını, davranış mədəniyyətinə yiyələnməsini də bu anlayışa daxil edir.

Uşağın məktəbə psixoloji hazırlığı ilk növbədə onun özünü dərk etməsi, ətraf aləmə, həyata, özünün gələcəyinə yeni nəzərlə baxa bilməsindən asılıdır. Bu dövrdə uşaqda özünüdərk prosesi gedir. Onun «mən»inin ətraf aləmlə müxtəlif və mürəkkəb qarşılıqlı münasibətləri daha şüurlu və fəal olur. Onun özünü dərk etməsi intellektual tələbat və marağın inkişafını təmin edir. Bu maraq onda hər şeyi öyrənməyə həvəs yaradır. «Nə üçün?» sualının saysız-hesabsız işlənməsi bunu sübut edir. Bu prosesin uşağın artıq düşünməyə, cisimlər arasında oxşarlıq və fərqləri tapmağa, səbəb və nəticə əlaqələrini öyrənməyə, təfəkkürü fəallaşdırmağa, mühakimə yürütməyə təhrik edir. Bu proses uşağı ciddi əməyə, təlim əməyinə, məktəbə yönəldir.

«Uşaqları əqli əməyə alışdırmaq üçün onu maraqlı, əyləncəli etmək vacibdir. Bu məqsədlə tərbiyəçinin didaktik oyunlardan istifadə etməsi faydalıdır. Çoxplanlı, mürəkkəb pedaqoji hadisə olan didaktik oyun, əsas psixoloji aspekt daşımaqla diqqətin, qavrayışın, hafizənin, təfəkkürün, nitqin inkişafına xidmət edir. O, həm də şəxsiyyətin hərtərəfli tərbiyəsinin mühüm vasitəsidir» (4, s. 7)

Sosial –psixoloji cəhətdən çox mühüm problemlərdən biri belə bir sualın cavabının müəyyənləşdirilməsidir: «Uşaq oxumaq istəyirmi?»

Ümumiyyətlə, uşaqların təlimə marağı haqqında müxtəlif fikir var. Apardığımız sorğuda valideyn və tərbiyəçilərin bir qismi uşaqların oxumaq, məktəbə getmək istəmədiklərini, bəziləri hamının oxumaq istədiyini, bəziləri isə oxumaq istəyənlərlə yanaşı istəməyənlər də olduğunu bildirir.

Müşahidələr göstərir ki, tərbiyəçilər uşağın psixologiyasını kifayət qədər nəzərə almırlar. Bununla belə, uşağın inkişafını mənimsənilmiş biliklərin həcmi deyil, təlim prosesində formalaşmış müsbət motivlər, tələbatın, maraqların məcmusu müəyyən edir. Ona görə də tərbiyəçi uşaqların idrak maraqlarını üzə çıxarmalı, idrak marağını təsirli motivə çevirməli, onu formalaşdırmağa çalışmalıdır.

Təcrübə göstərir ki, beşyaşlılarda təlimə müsbət motivlərin inkişafı, altıyaşlılara nisbətən daha müvəffəqiyyətlə gedir. İş düzgün aparıldıqda şəxsi keyfiyyətlərdən asılı olaraq motivasiya dairəsi dəyişikliyə məruz qalır. Təlim üçün motiv, tələbat və marağın əhəmiyyətini nəzərə alaraq tərbiyəçi uşağın daxili, psixoloji aləmini öyrənməli, valideynlərə məsləhət verməlidir.

Beləliklə, uşağın məktəb təliminə psixoloji hazırlığı məktəbəqədərki uşaqlıq dövründə psixi inkişafın mühüm yekunlarından biridir. Uşağın

məktəb təliminə psixoloji hazırlığı heç də uşağın məktəbə daxil olanadək onda məktəblini fərqləndirən psixoloji əlamətlərin yaranmasından ibarət deyil. Bu əlamətlər sonralar məktəb təliminin gedişi prosesində yeni həyat şəraiti və fəaliyyətinin təsiri ilə tədricən yarana bilər. Məktəbəqədər tərbiyə prosesində başlıca vəzifə uşaqlarda bu əlamətlərə yiyələnmək üçün əlverişli şərait yaratmaqdır. Məktəbəqədərki dövrdə aparılan psixoloji hazırlıq işi uşaqlara məktəbə gedərkən yeni şəraitə uyğunlaşmaq, təlimə başlamaq bacarığı verməlidir. Uşaqda, hər şeydən əvvəl, məktəbli olmaq, oxumaq kimi ciddi fəaliyyəti yerinə yetirmək arzusu olmalıdır. Bu cür arzu uşaqların əksəriyyətində məktəbəqədər dövrün axırında yaranır. Bu, inkişaf böhranı ilə bağlı olur. Uşaq özünün məktəbəqədər dövrdəki mövqeyini artmaqda olan imkanlarına uyğun gəlmədiyini dərk etməyə başladığından daha maraqlı, daha məzmunlu həyata can atır.

Deməli, uşağın məktəbə hazırlanmasında başlıca məsələ onda oxumağa, təhsil almağa şüurlu münasibətin yaranmasıdır. Bu həm də uşağın yeni düşəcəyi kollektivə alışmağa hazır olmasını, yeni münasibətlər şəraitinə alışmasını tələb edir.

Uşağın məktəbə daxil olması böhran dövrü hesab olunan keçid yaşına təsadüf edir. Altı yaşına çatanda uşaq diş dəyişir, onun boyu, dözümlüyüyü, əzələlərinin gücü artır, hərəkətlərini tənzim edə bilir, sifətinin cizgilərində, baxışında ciddilik özünü göstərir. Bu dövrdə mərkəzi sinir fəaliyyəti də xeyli təkmilləşir. Bununla belə, həmin dövrdə uşaq davranışında uşaqlığın təbiiliyi sanki itməyə başlayır. Belə ki, bəzən özünü naza qoyur, əzilib-büzülür, heç bir səbəb olmadan davranışında qəribəlik, qəlizlik, qəsdən bir işi eləmək və s. hallar özünü göstərir. Məktəbəqədər dövrə xas olan təbiiliyin dəyişməsi bəzən neqativ hallarla , özbaşınalıqla nəticələnir.

Bu yaşda psixi proseslərin yenidən qurulması uşağın bütün davranışını dəyişir. Onlar səbirsiz, hövsələsiz olurlar. Bu, onunla izah olunur ki, onların fəallığı davranışın xarici ifadələrində özünü göstərir.

Uşaq məktəbdə yeni kollektivə daxil olur, yeni aləmə düşür. Onun həmin kollektivə tezliklə alışması üçün məktəbəqədər dövrdə bağçanın kollektivinə uyuşması üzrə iş aparılmalıdır. Bəzən uşaqlar bağçanın böyük və məktəbəhazırlıq qrupuna gəlirlər. Bu vaxtadək onlarda formalaşmış xarakter xüsusiyyətləri onların yeni kollektivə uyğunlaşmalarını çətinləşdirir. Onlar uzun müddət kollektivə alışa bilmirlər. Bura bir müddət kollektiv uşağa təsir edir, uşaq isə kollektivə öz tələblərini verir, öz hökmünü yetirməyə, oradakı sosial-psixoloji vəziyyəti dəyişib, öz mikromühitini yaratmağa çalışır.

Məktəbə hazırlığın mexanizmi uşağın qayğısız, oyun və əyləncələrlə dolu fəaliyyətindən ciddi təlim fəaliyyətinə keçidin düzgün təşkil edilməsindən asılıdır. Uşaq məktəbə gələnədək onda məktəbə həm intellektual, həm də emosional münasibət yaradılmalıdır.

Sosial-psixoloji münasibətdən bəhs edərkən məktəbəqədər dövrdə uşaqlarda özünüqiymətləndirmə və özünənəzarət bacarığının yaradılması üzə-

...ində dayanmaq da lazım gəlir. Özünüqiymətləndirmə çox mühüm və mürəkkəb prosesdir. Məktəbəhazırlıq mərhələsində uşaqların özlərini qiymətləndirmə bacarığına yiyələnmələri ilk baxışda faydalıdır. Uşaq bir tərəfdən davranışının, hərəkətinin, tərbiyəçinin sualına cavabının nə dərəcədə düzgün olduğunu müəyyənləşdirir, digər tərəfdən bu prosesdə özünə, öz qüvvəsinə daxili inam yaranır, daha böyük, çətin işlər görməyə qadir olduğuna inanır, özünüqiymətləndirmədə sərhədi aşma hallarına yol verilməməlidir. Uşaq özünü real mövqeyindən, imkanlarından artıq qiymətləndirirsə, gələcəkdə lovğa, təkəbbürlü, dikbaş, tənqidə qarşı dözülməz olar. Bu nə qədər zərərlidirsə, özünü imkanlarından lazım olduğundan aşağı qiymətləndirmək uşaqda özünə qarşı inamsızlığın kök salması ilə nəticələnir. Özünüqiymətləndirmə uşaqda hələ məktəbə getməzdən xeyli əvvəl başlayır. Ona görə də L.S.Vıqotskinin dediyi kimi, uşağın təkcə hazırkı inkişaf səviyyəsi deyil, ondan əvvəlki «Yaxın inkişaf zonası» da nəzərə alınmalıdır. «Yaxın inkişaf zonası» uşağın sabahkı gününü müəyyənləşdirməyə imkan verir. İnkişaf zonası təkcə qazanılmış keyfiyyətləri deyil, yaranma prosesində olan yeni keyfiyyətləri də nəzərdə tutur. Ona görə də özünüqiymətləndirmənin mexanizmini açmaq üçün məktəbəqədər dövrə müraciət edilməlidir.

Uşağın özünü qiymətləndirməsinə onu əhatə edən ətraf mühit və özünün praktik fəaliyyəti güclü təsir göstərir. Ətraf mühitlə tanış olarkən, müşahidə apararkən uşaq özünü başqaları ilə müqayisə edir, bu prosesdə onların keyfiyyətlərini qiymətləndirir, özününkü ilə tutuşdurur. Beləliklə, kollektivdə öz yerini müəyyənləşdirməyə çalışır. Uşaqlara özünüqiymətləndirərkən bu əməldən razı qalıb-qalmamaları ilə hesablaşmağı öyrətmək lazımdır. Görkəmli mütəfəkkir Paskal yazmışdır: «Yer üzündə adam bir çox şeylər əldə etsə də, istər möhkəm cansağlığı olsun, istərsə də həyatda müxtəlif nemətlərə malik olsun, insanlar arasında şərəfə layiq görülmədikdə o, həmişə narazı olur». Bu, insana xas olan çox mühüm bir xüsusiyyətdir. İnsanın əməyi başqaları tərəfindən qiymətləndirildikdə insan ruhlanır, onda özünə inam yaranır.

Məktəbəqədər dövrdə uşaqlar məhz öz şəxsi keyfiyyətlərini yaşlıların tələbi ilə müqayisə edərək qiymətləndirirlər. Məktəbəhazırlıq qrupunun uşaqlarında öz keyfiyyətini, fəaliyyətin gedişi və nəticələrini real, obyektiv qiymətləndirmək bacarığı tərbiyə olunur. Belə bacarıq təlim prosesində mühüm rol oynayır.

Uşağın məktəbə sosial-psixoloji hazırlığı istiqamətində aparılan araşdırmalar göstərdi ki, məktəbəqədər yaş dövrünün axırında məşğələdə hər şeyi bilmək, çətinlikləri aradan qaldırmaq üzrə ciddi fəaliyyətdən razı qalırlar. Onlar aldaqları biliyin məktəbdə lazım olacağını bildikdə hər şeyə şüurlu və məqsədyönlü yanaşır, iradi səy göstərir, hər bir hərəkətini ölçüb-biçir, özlərini yeni məzmunlu ünsiyyətə hazırlayırlar.

Uşağın məktəb təlminə hazırlanmasını diaqramla əks etdirək:




Beləliklə, məktəbəqədər yaş dövründə uşağın məktəbə psixoloji hazırlığı təlimdə müvəffəqiyyət qazanılmasına təkan verir, kollektiv fəaliyyət, qarşılıqlı ünsiyyət uşaq şəxsiyyətinin inkişafı üçün zəmin yaradır. Bu baxımdan valideyn və tərbiyəçilər, ibtidai sinif müəllimləri hələ məktəbə gələnədək uşağın təlimə psixoloji hazırlığına əlverişli şərait yaratmalıdırlar.

Ədəbiyyat

1. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı, 2002.
2. Həmzəyev M.Ə. Altıyaşlıların təlimə psixoloji hazırlığı haqqında . İbtidai məktəb və məktəbəqədər tərbiyə» 1985, №4.
3. Qədirov Ə.Ə. , Məmmədov İ.N. Yaş psixologiyası.
4. Sadıqova T.B. Uşaqların məktəb təliminə hazırlanmalarına xidmət edən didaktik oyunlar. Bakı 2006.
5. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı, 2000.

Резюме

В статье раскрывается рол социально- психологических факторов в подготовке детей к школе. Под психологической готовностью понимается прежде всего уровень интеллектуального развития. Большое значение имеет развитие у них познавательных интересов, любознательности. Это основа для формирования у детей в школе разнообразных учебных интересов. Ребенок должен быть готов не только к новой деятельности в школе, но и к новому социальному положению ученика, который имеет свои права и обязанности.

# BÖYÜK QRUPLARDA MUSİQİ TƏDRİSİNİN METODİKASI

**Zümrüd BABAYEVA,**
ARTPİ-nin məktəbəqədər təlim və tərbiyə şöbəsinin
elmi müxbiri

Məktəbəqədər tərbiyə müəssələrində keçirilən musiqi məşğələrinin iş sistemi nəticəsində uşaqların musiqiyə həvəs və bacarıqları günü-gündən möhkəmlənir, dünyagörüşləri artır. Bunu uşaqların yaş xüsusiyyətlərinə uyğun olaraq musiqi ifa tərzlərinrin genişlənməsi ilə aydınlaşdırmaq olar. Böyük qruplarda keçirilən musiqi məşğələləri uşaqlarda musiqi sədaları altında yeriş və yürüşlərin, musiqi dinlənilməsinin, musiqi savadının artırılması yollarının, mahnı oxunmasının, musiqili ritmik hərəkətlərlə rəqsin, musiqili oyunların təşkilinin öyrədilməsinə və inkişafına kömək edir. Kiçik və orta qruplarda olduğu kimi, böyük qruplarda da uşaqlar musiqi zalına marş musiqisi ilə daxil olub, ritmik musiqi sədaları altında zalı dövrə vurub addımlayır, lakin, bu yerişin sürəti daha təntənəli, gümrah olur. Uşaqların yerişi daha da şaqraq, əzəmətli olur. Ritmik yerişdən sonra yüngül ritmli musiqili qaçışla pəncə üzərində yeriməyi öyrənirlər. Bu yüngül ritmli musiqi ilə musiqi zalının ortasında dairə vurub, əl-ələ tutmaqla bir-birinin ardınca qısa, oynaq və şən ritmli musiqi hərəkətinin icrasını öyrənirlər. Musiqi məşğələsinin birinci bölməsində öyrədilən yeriş və yüngül ritmli musiqili hərəkətlərin metodiki yollarını musiqi rəhbəri qurur və qrup tərbiyəçisinin köməyi ilə uşaqlara aydınlaşdırır.

Böyük qrup uşaqları daha diqqətlə nisbətən dolğun məzmunlu əsərlər dinləmək qabiliyətinə malik olurlar. Bu yaş dövründə uşaqlar musiqi rəhbəri tərəfindən ifa olunan musiqi əsərlərinin janrını, onun musiqi xarakterini fərqləndirməyi, bu musiqi əsərlərinə aid illüstrasiyaları sərbəst tanıya, dinlədikləri musiqi əsərlərinin adını yadda saxlaya bilirlər.

Musiqi dinlənilməsində verilən hər bir musiqi əsərinin həcmi uşaqların musiqi yaddaşının inkişafına kömək edir. Dinlənilən musiqi əsərləri uşaqlar tərəfindən yaxşı və düzgün mənimsənilibsə, əlavə əsərlərdən də istifadə etmək olar. Hər bir musiqi əsəri aydın, dolğun mənalı və ifadəli ifa olunmalıdır. Böyük qruplarda musiqiyə diqqət artır. Burada musiqi rəhbərinin söhbəti də böyük yer tutur. Onun uşaqlarla müsahibəsi, musiqi əsərlərinin hissələrini sözlə aydınlaşdırması, illüstrasiyalardan istifadə etməsi, musiqinin dinlənilməsində uşaqların fəal iştirakını təmin edir və onların musiqi dünyagörüşünü zənginləşdirir. Uşaqlar musiqi alətlərinin adını öyrənir, onlar səslənmə formasını, zil və bəm səslərin necə yerləşməsini mənimsəyirlər. Bu musiqi alətlərinin növləri ilə tanış olarkən uşaqlar səsli-səssiz, simli, dilli, nəfəs və zərb alətlərinin fərqini aydınlaşdırmağı bacarmalıdırlar. Uşaqlar musiqi alətlərini barmaqlarla, çubuqlarla, nəfəsləri ilə səsləndirməyi öyrənirlər. Bu da onların musiqiyə həvəsini artırır. Nəticədə uşaq musiqi alətləri ansambılı yaranır, bayramlarda, səhərciklərdə cürbəcür musiqi əsərlərinin ifası səsləndirilir. Bundan əlavə, uşaqların səsini açmaq, inkişaf etdirməkdən ötrü musiqi rəhbərinin mahnılardan musiqi cümlələri hazırlayıb onların ifasına verməsi mahnının ifa tərzini asanlıqla qavramalarına imkan verir.

Mahnı öyrədilməsi musiqi məşğələlərinin üçüncü bölməsidir. Bu zaman uşaqlar mahnı oxumağa fəal münasibətlərini göstərməyə çalışırlar. Bu yaş qrupunda uşaqları həyəcanlandıran vətənpərvər mahnılara geniş yer vermək lazımdır. Dövlət Himninin oxunması, bayrağımızın dalğalanması, vətən nəğmələri, Azərbaycan, paytaxtımız Bakı şəhərinə həsr olunmuş mahnıların ifası uşaqların qürurunu artırır, onlarda vətənə məhəbbət hissini yüksəldir. Uşaq qəlbini riqqətə gətirən aydın ifa, sözlə izahat musiqi rəhbərinin uşaqlarla müsahibəsi, şəkil və illüstrasiyalar uşaqların zehni düşüncələrini dərinləşdirir. Mahnını təbii uşaq səsi ilə, sakit ucadan oxumaq, təntənəli, gurultulu ifa tərzləri musiqinin xarakterindən asılıdır. Musiqi rəhbəri qısa musiqi frazaları ilə mahnının hissələrini uşaqlarla birlikdə ifa etməklə aydınlaşdırır. Bu, mahnının ifa bacarığını yüksəldir, uşaqları fərəhləndirir. Uşaqlarda solo ifa etmək arzusu ifa etdikləri mahnıya böyük həvəsdən irəli gəlir. Musiqi rəhbəri solonu ifa üçün uşaqların istəyi üzrə seçir. Bundan başqa, mahnı ifası 3-4 və daha artıq uşaq qrupları ilə təşkil oluna bilər. Xorla mahnı ifası uşaqların ən çox sevdikləri musiqi bölməsidir. Təkrar mahnı ifası uşaqların musiqi qavrayışını və yaddaşını daha da möhkəmləndirir.

Musiqi məşğələlərində dördüncü musiqi bölməsi musiqili-ritmik-hərəkətlərdir. Böyük qrup uşaqları musiqi rəhbəri tərəfindən ifa olunan ritmik musiqinin xarakterini qavrayırlar. Bu yaş qrupunda rəqs, musiqili oyunlar cəld, çevik hərəkətlər uşaqların şənlənmələrinə səbəb olur. Uşaqlar müxtəlif xarakterli musiqi nömrələri ilə bir-birinin ardınca musiqi məşğələlərində öyrəndikləri rəqsi, yaxud musiqili-didaktik oyunları asanlıqla öyrənirlər. Musiqi məşğələsinin bu bölməsində solo rəqs, oğlanların və qızların ayrı-ayrı və birlikdə rəqs qrupları, ümumi və ya sərbəst rəqslər, müxtəlif xalqların rəqs musiqilərinin öyrədilməsi daxil edilir. Azərbaycanın milli rəqslərini uşaqlar daha həvəslə ifa edirlər.

Bu, musiqili oyunlarda da özünü böyük bir xüsusiyyətlə aşkara çıxara bilir. Musiqili oyunun, mahnı-oyunun, rəqs-oyunun, mahnı-rəqsin məzmunu, mənası, xarakteri onun adı ilə bağlıdır. Musiqili ritmik hərəkətləri öyrədərkən uşaqların qruplara bölünməsi musiqili oyunun həcmindən asılıdır. Yeriş formalı oyunlar, yürüş formalı oyunlar, tək-tək, üz-üzə və s. oyunlar uşaqların cürbəcür hərəkətlər öyrənmələrinə, onların fəal iştirakına həvəs yaradır. Musiqi rəhbəri uşaqların sərbəst ifalarına, musiqinin ritmi ilə düzgün hərəkətlərinə kömək etməlidir. Böyük qruplarda musiqi məşğələlərinin bu bölmələrini öyrənən uşaqlar məktəbəhazırlıq qrurlarında musiqiyə daha yaxşı hazır olurlar.

Böyük qruplarda bir məşğələnin təşkilini nəzərdən keçirək.

**«Marş» E.Rüstəmov, «Kiçik polka» (D.Kabalyevski).**

**Proqramın məzmunu.** Bir-birinin ardınca, ritmik musiqi sədaları altında musiqi zalına daxil olaraq, zal boyu addımlamaq. Addımlayarkən qaməti düz tutmağı, qolları musiqinin ritmi ilə hərəkət etdirməyi öyrətmək. Musiqi rəhbərinin məşğələdən əvvəl qurduğu kubiklərlə küncləri müəyyən etmək və dönmə hərəkətini yerinə yetirmək. Musiqi zalını iki dəfə ritmik yerişlə dövrə vurmaq və musiqinin dəyişməsi ilə pəncə üzərində yüngül qaçışa keçmək. Pəncə üzərində qaçış zamanı əlləri belə qoymaq. Musiqi zalını dövrə vurub, ortasında dairələnmək. Dairədə əllər beldə, yerində pəncə üzərində qaçış formasını icra etmək, yerində fırlanmaq və oturub – durmaq hərəkətlərini öyrətmək.

**Metod**. Yeriş və yüngül qaçış zamanı musiqi hissələrinin dəyişməsində musiqi rəhbərinin işarələrinə diqqət yetirmək. Yeriş zamanı və künclərin müəyyən formasında musiqi rəhbərinin ucadan ifa və 1,23,4 sayına diqqət yetirmək, musiqi akkrodlarına fikir vermək, pəncə üzərində qaçış və dairədə hərəkətlərin icrası zamanı musiqi rəhbərinin sayı və sözlə izahatına diqqət yetirmək. Hərəkətləri tərbiyəçi ilə birlikdə icra etmək. Tərbiyəçinin uşaqlara fərdi göstərişləri və izahatı. Hərəkətləri musiqi ritmi ilə düzgün icra edən uşaqları fərqləndirmək. Hərəkətlərin icrasından sonra stullarda əyləşmək.

Dinləmə. «Lay-lay» (Ü. Hacıbəyov).

**Proqramın məzmunu**. Əsərin musiqisi ilə tanışlıq. Onun məzmununu, xarakterini aydınmaşdırmaq. Əsərin adını uşaqların yadına salmaq. Ana laylasına aid şeir, bayatı söyləmək.

**Metod.** Musiqi rəhbərinin aydın ifası və sözlə izahı. Əsərin xarakterini əks etdirən illüstrasiya göstərmək. Musiqinin səslənməsi ilə fəal uşaqlardan seçməklə kuklanı yatırtmaq. Musiqini uşaqlarla birlikdə zümzümə etmək. Uşaqlarla söhbət aparmaq, sorğu keçirmək. Fəal uşaqları fərqləndirmək, zəif uşaqlara göstəriş və izahatlar vermək.

**Musiqi savadı**. «Fortopiano», «metallofon», «qarmon» musiqi alətlərini səsləndirmək. Onların səslənmə fərqlərini aydınlaşdırmaq. Fəal uşaqlardan 3-3 ayırmaq, uşaqlar üçün musiqi rəhbərinin məşğələdən əvvəl hazırladığı stullarda qrup yoldaşları ilə üz-üzə oturtmaq.Musiqi rəhbərinin fortopianoda ifa etdiyi eyni səsi və səsin uzunluğunu musiqi rəhbərinin sayması (1,2,3,4) ilə ifa etməyi öyrətmək. Bunu bir neçə dəfə ayrı-ayrı və birlikdə ifa etmək. Uşaq musiqi alətlərinin səslənməsini izahatla öyrətmək. Uşaqların səsini açmaq və inkişaf etdirməkdən ötrü musiqi cümləsi oxumalarını davam etdirmək.

Mənim nənəm yaxşı nənəm,<br>
Evimizin naxışı nənəm. } 2

**Mahnı: «Dünyamızın anası» R.Şəfəq.**

**Proqram məzmunu.** Mahnının musiqisi ilə tanış olmaq, onun məzmununu aydınlaşdırmaq. Mahnının adını söyləmək, onun məzmununun mənasını başa salmaq. Mahnının musiqisini iki dəfə ifa etmək. Mahnının adına və məzmununa aid şeir söyləmək. Mahnının hissələrini aydınlaşdırmaq.

**Metod**. Musiqi rəhbərinin aydın ifası və sözlə izahı. Mahnının musiqisini zümzümə ilə uşaqlar üçün ifa etmək. Mahnının hissələrini ayrı-ayrı ifa etməyi öyrətmək. Bənd və nəqəratin ifasını aydınlaşdırmaq. Mahnının məzmunu haqqında sorğu keçirmək, sorğuda iştirak edən fəal uşaqları fərqləndirmək. Mahnının tam qavranılması üçün mahnını təkrar ifa etmək. Ötən məşğələdə öyrəndiyimiz «Mənim kuklam» (O.Zülfüqarov) mahnısının musiqisini yada salmaq, onu birlikdə ifa etməyi öyrətmək. Mahnını ayaq üstə, dairədə oxumağı öyrətmək. Mahnını dairədə oxuyarkən dairənin ortasına kuklanı qoymaq, mahnının sözlərini ifa edərkən onu göstərmək və mahnının sözlərinə uyğun göstərişlər vermək.

**Musiqili ritmik hərəkətlər**. «Rəqs edirəm» (yaylıqlarla rəqs), «Ay, ləli» Azərbaycan xalq mahnısı

**Proqram məzmunu.** Rəqsin musiqisini çalmaq və oxumaqla ifa etmək. Uşaqları bu xalq musiqisi ilə tanış etmək və onun musiqi xarakterini aydınlaşdırmaq. Mahnını oğlanlar qrupu ilə oxumaq. Qızlar qrupu isə rəqs edir.

Rəqsin ifası zamanı qızlar iki dəstəyə bölünür. Hər dəstənin əvvəlində və axırında qızların əllərində yaylıq olur. Qızlar xalq mahnısının musiqisilə yan-yana bir-birinin qarşısından əl-ələ tutaraq keçir, yan divarların qarşısında üz-üzə dururlar. Əllərində yaylıq olan qızlar üz-üzə rəqs edir, digər qızlar musiqinin ritmilə əl çalırlar. Oğlanlar isə zalın orta divarının qarşısında durub «Ay ləli» mahnısını oxuyurlar. Əllərində yaylıq olan qızlar yerlərinə keçərkən yaylığı öz rəfiqələrinə ötürürlər. Beləliklə, mahnı-rəqsin ifası davam edir. Rəqsin ayaq ritmi «yallı» ritminə yaxındır.

**Metod.** Bu rəqsi musiqi rəhbəri aydın ifa edir, sözlə izahat verir. Musiqi rəhbərinin izahatı ilə tərbiyəçi uşaqlarla birgə ifa edir və onlara fərdi göstəriş verir. Rəqsin ifası zamanı musiqinin ritminə uyğun hərəkətlər ifa etməyi öyrənməklə yanaşı, musiqi ilə hərəkətlərin düzgün, paralel olması lazımdır.

Mahnının sözlərini əl çalmaqla ardıcıl söyləmək və müəyyən ritmi tutmaq olar. Oğlanların və qızların geyimi isə milli Azərbaycan formasında olsa daha yaxşıdır. Bu rəqs-oyunda həm də mahnı rəqsdə Azərbaycan xalq rəqslərindən istifadə edib ümimi, sərbəst rəqslə ifa etmək olar. «Rəqs edirəm» musiqili, oynaq, şən ritmli hərəkətlərin birgə ifası «Novruz» bayramı səhərciyində vermək olar.

**Son yeriş və məşğələnin yekunu**. Bu məşğələdə oxunan mahnıların və rəqs hərəkətlərinin möhkəmləndirilməsindən ötrü fərdi məşğələlər üçün həftə daxilində gün təyin etmək, fərdi tapşırıqlar vermək lazımdır.

## METODİK İŞLƏRİN PLANLAŞDIRILMASI

**Sərvanə HACIYEVA,**
Qax rayon Təhsil Şöbəsinin metodisti

Məktəbəqədər müəssisələrdə təlim-tərbiyə işinin normal təşkili metodik işlərin düzgün təşkilindən asılıdır. Aşağıda bunun bir nümunəsini veririk.

| № | Görüləcək işin məzmunu | Tarix | Məsul şəxs |
|---|---|---|---|
| 1. | I. Kadrlarla iş<br>Tərbiyəçilərin staj vahidinə uyğun olaraq qruplar üzrə müvafiq yerləşdirilməsi. | Sentyabr | Müdir |
| 2. | Gənc tərbiyəçilərlə aparılan metodik işin səviyyəsini yüksəltmək | İl boyu | Müdir |
| 3. | Tərbiyçiləri ixtisasartırma kurslarına göndərmək | Yeri gəldikcə | Müdir, hami tərbiyəçi |
| 4. | Tərbiyəçilərin rayon üzrə keçirilən seminar-praktikumlarda, metodbirləşmələrdə və konfranslarda iştirakını təmin etmək | Yeri gəldikcə | Müdir |
| 5. | Tərbiyəçilərin sentyabr və yanvar ayında keçirilən bölmə iclaslarında iştirakını təmin etmək | Sentyabr-yanvar | Müdir |
| 6. | Tərbiyəçilərin il çərçivəsində keçirilən müsa- | İl boyu | Müdir |

| | | | |
|---|---|---|---|
| | biqələrdə iştirakını təmin etmək | | |
| 7. | Qabaqcıl iş təcrübəsini öyrənmək üçün tərbiyəçilərin rafonun şəhər 1 və 2 nömrəli uşaq bağçalarında olmalarını təmin etmək | Vaxtaşırı | Müdir |
| 8. | Aşağıda adları qeyd olunmuş tərbiyəçilərə hami tərbiyəçilər təyin etmək. | Sentyabr | Müdir |
| | **Pedaqoji şuralar**<br>**I ŞURA** | | |
| 1 | Prezidentin 12 aprel 2007-ci ildə imzaladığı Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşməsi proqramı» (2007-2010-cu illər) fərmanını müzakirəsi. | | Müdir |
| 2. | Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12 oktyabr 2002-ci il tarixli əmri ilə təsdiq edilmiş «Fəaliyyət planının tələbləri baxımından bağçanın böyük qrupunda sadə riyazi təsəvvürlərin inkişafı məşğələlərinin təşkili vəziyyəti» (Tematik yoxlamanın yekunları) | I rüb, noyabr | Müdir |
| 3. | Ana dili məşğələlərində interaktiv təlim metodlarından istifadə (Orta qrupun iş təcrübəsindən) | Irüb, dekabr | Orta qrupun tərbiyəçisi |
| | **II ŞURA** | | |
| 1. | Məktəbəqədər tərbiyə proqramının tələbləri baxımından qruplarda estetik tərbiyənin təşkili vəziyyəti (tematik yoxlamanın nəticələri) | II rub, mart | Müdir |
| 2. | Təhsil Nazirliyinin əmrinə müvafiq olaraq bağçadaxili keçirilən «İlin ən yaxşı mühazirəçisi» müsabiqəsinin yekunları haqqınd | | |
| 3. | Əxlaq tərbiyəsinin inkişafı ilə əlaqədar uşaqlarda humanist hisslərin aşılanması (Kiçik qrup tərbiyəçisinin iş təcrübəsindən) | | |
| 4. | Fəaliyyət planının tələblərinə uyğun olaraq istedadlı və qabiliyyətli uşaqlarla aparılan tərbiyə işlərinə dair məktəbə hazırlıq qrup tərbiyəçisinin hesabatı. | | |
| | **III ŞURA** | | |
| 1 | Təhsil Qanununun və Təhsil İslahatının tələbləri baxımından orta qrupda təlim- tərbiyə işlərinin vəziyyəti (Frontal yoxlamanın yekunları) | III rub, may | Böyük və məktəbəhazırlıq qrupunun tərbiyəçiləri , musiqi rəhbəri |
| 2. | Məktəbəqədər tərbiyə təlim proqramının tələblərinə müvafiq olaraq kiçik qrupda fiziki tərbiyənin təşkili vəziyyəti (tematik yoxlamanın nəticələri) | | |

| | | | |
|---|---|---|---|
| 3. | «Təhsil sistemində müasir yanaşmaların təşəkkülü ilinin davamı» ili ilə əlaqədar görülmüş işlər. (Böyük və məktəbə hazırlıq qrup tərbiyəçilərinin hesabatı) | | |
| 4. | Musiqi məşğələlərində uşaqlarla fərdi iş. (Musiqi rəhbərinin iş təcrübəsindən) | | |
| | **IV ŞURA** | | |
| 1. | Yay-sağlamlıq dövrünün təşkili vəziyyəti (tematik yoxlamanın nəticələri) | IV rüb, avqust | müdir |
| 2. | 2006-2007-ci tədris ilində uşaqlarla aparılan tərbiyə və təlim işinin yekunlarına dair qrup tərbiyəçilərinin hesabatı | | |
| 3. | 2007-2008-ci il tədris ili üçün iş planının təhlili və təsdiqi<br>Yeni dərs ilinə hazırlığın vəziyyəti | | |

*Qeyd: 1.* Yuxarı təşkilatlar tərəfindən məktəbəqədər tərbiyə müəssisələrinin yoxlamanın yekunları və digər məsələlər üzrə də növbədənkənar pedaqoji şuralar keçirilə bilər.

*Qeyd 2.* Hər bir pedaqoji şuranın əvvəlində ötən pedaqoji şuranın qərarlarının yerinə yetirilməsi vəziyyətini müzakirə etmək.

## Pedaqoji proseslərə kollektiv baxış

### 1. Açıq məşğələlər

**I rüb**

| | | | | |
|---|---|---|---|---|
| 1. | Orta qrup | Riyaziyyat | noyabr | Tərbiyəçi |
| 2. | Böyük qrup | Gil işi | noyabr | Tərbiyəçi |

II rüb

| | | | | |
|---|---|---|---|---|
| 1. | Orta qrup | Hissi tərbiyə | fevral | Tərbiyəçi |
| 2. | Böyük qrup | Bədii ədəbiyyat | fevral | Tərbiyəçi |

III rüb

| | | | | |
|---|---|---|---|---|
| 1. | Orta qrup | Ətraf aləmlə tanışlıq | aprel | Tərbiyəçi |
| 2. | Böyük qrup | Savad təlimi | aprel | Tərbiyəçi |

IV rüb

| | | | | |
|---|---|---|---|---|
| 1. | Orta qrup | Fiziki mədəniyyət | iyun | Tərbiyəçi |
| 2. | Böyük qrup | Rəsm | iyun | Tərbiyəçi |

### 2. Kollektiv qarşılıqlı baxış

Kollektiv qarşılıqlı baxış rübdə 1-2 dəfə hər bir tərbiyəçi tərəfindən təşkil edilir

| | | | |
|---|---|---|---|
| | **Seminar- praktikum** | | |
| | 1-5 qruplu məktəbəqədər müəssisədə ildə 1 dəfə, 6-12 qruplu bağçada ildə 1-2 dəfə keçirilir. | | |
| | **Dərs ilinin birinci yarısı** | | |
| 2 | Təsviri fəaliyyət məşğələlərinin təşkili metodikası üzrə | | |
| | Qruplarda məşğələlərə baxış | noyabr | Kiçik, |

| | | | |
|---|---|---|---|
| | a) rəsm; b) applikasiya; c) gil işi | | orta, böyük, qrup tərbiyəçisi |
| 2. | Təsviri fəaliyyət məşğələlərində interaktiv təlim metodlarından istifadə | noyabr | M/hazırlıq qrupunun tərbiyəçisi. |
| 3. | Təsviri fəaliyyət məşğələlərinə dair əyaniliyə və uşaqların əl işlərindən ibarət sərgiyə baxış | noyabr | Müdir, tərbiyəçi |
| | **Dərs ilinin ikinci yarısı** | | |
| | Ətraf aləmlə tanışlıq məşğələlərinin təşkili metodikası üzrə | | |
| 1. | Qruplarda ətraf aləmlə tanışlıq məşğələlərinin təşkili | mart | Orta, mək/haz. qrup tərb. |
| 2. | Ətraf aləmlə tanışlıq məşğələlərinin təşkilinə verilən tələblər | mart | Böyük qrup tərb. |
| 3. | Ətraf aləmlə tanışlıq məşğələləri üçün hazırlanmış əyanilikdən, testlərin, didaktik materialların nümayişi | mart | Müdir, tərb. |
| | **Seminar** | | |
| | **Dərs ilinin I yarısı** | | |
| | Əl işlərinin hazırlanması | aprel | Tərbiyəçi |
| 1 | Kağızla iş:qatlama yolu ilə əşyaların hazırlanması . | aprel | Tərbiyəçi |
| 2 | Təbiət materialları ilə əl işləri düzəltmək. | aprel | Tərbiyəçi |
| 3 | Tullantı materialları ilə əl işləri hazırlamaq. | aprel | Tərbiyəçi |
| 4 | Müxtəlif materaillardan hazırlanmış əl işlərindən ibarət sərginin təşkili. | aprel | Tərbiyəçi |
| | **Məsləhətlər** | | |
| | **Bütün tərbiyəçilər üçün** | İl ərzində | Müəssisə rəhbəri, metodist |
| 1. | Müxtəlif yaş qruplarında uşaqlara idman elementləri ilə keçirilən oyunları öcyrətmə texnikası. | | |
| 2. | Uşaqların təfəkkür və nitqinin inkişafı üçün şəkillərdən istifadə olunması. | | |
| 3. | Nitqin səs mədəniyyəti və lüğət ehtiyatının zənginləşdirilməsi üzrə uşaqlarla məşğələdənkənar vaxtlarda iş aparılması. | | |
| 4. | Valideyn yığıncaqlarının keçirilməsi və təşkili. | | |
| 5. | Fərdi xüsusiyyətlərin öyrənilməsi – təlim-tərbiyə işində müvəffəqiyyətinin rəhnidir. | | |
| 6. | Təbiət güşəsində uşaqlarla tərbiyə işi. | | |
| 7. | Kiçik qruplarda hissi tərbiyənin inkişafı. | | |
| 8. | Riyazi təsəvvürlərin inkişaf etdirilməsində testlərdən və paylama materiallarından istifadə. | | |
| 9. | Əl əməyi məşğələlərinin təşkilində təbiət və tullantı | | |

| | | | |
|---|---|---|---|
| | materaillarından istifadə. | | |
| 10. | Ana dili məşğələlərinin təşkilində əyani-obrazlı vasitələrdən istifadə. | | |
| 11. | Beşyaşılarla aparılan işin xüsusiyyətləri. | | |
| 12. | Uşaqların estetik tərbiyəsində bağçada keçirilən kütləvi tədbirlərin əhəmiyyəti | | |
| 13. | Tərbiyəçi-uşaq münasibətləri. | | |
| 14. | Uşaqlarda müstəqilliyin inkişaf etdirilməsi. | | |
| 15. | Əqli tərbiyənin inkişafında didaktik oyunların əhəmiyyəti. | | |

**Qabaqcıl təcrübə**

| | | | |
|---|---|---|---|
| 1. | 2006-2007-ci tədris ilində «İlin ən yaxşı məktəbəqədər müəssisəsi» müsabiqəsinin qalibi olmuş şəhər 1 nömrəli bağçanın qabaqcıl işini tətbiq etmək. | İl ərzində | Müdir, tərbiyəçi |
| 2. | 2006-2007-ci tədris ilində «İlin ən yaxşı tərbiyəçisi» müsabiqəsinin qalibi olmuş şəhər 1 nömrəli bağçanın tərbiyəçisi ..... və şəhər 2 nömrəli uşaq bağçasının tərbiyəçisi ....qabaqcıl iş təcrübəsini tətbiq etmək. | İl ərzində | Müdir, tərbiyəçi |
| 3. | Böyuk qrup tərbiyəçisi ..... «Quraşdırma» məşğələlərinin təşkili metodikası üzrə qabaqcıl iş təcrübəsini öyrənmək və ümumiləşdirmək, pedaqoji şurada müzakirə etmək. | fevral | Müdir |
| 4. | Şəhər 1 nömrəli uşaq bağçasının tərbiyəçisi ... «Uşaqların məktəb təliminə hazırlanması» üzrə iş təcrübəsini öyrənmək və tətbiq etmək. | İl ərzində | Müdir, tərbiyəçi |
| 5. | Orta qrup tərbiyəçisi ...... «Fiziki tərbiyənin təşkili metodikası üzrə qabaqıl iş təcrübəsini tətbiq etmək. | İl ərzində | Tərbiyəçilər |
| 6. | Qabaqcıl təcrübə ilə bağlı açıq məşğələ, sərgi təşkil etmək. | Vaxtaşırı | Müdir |
| 7. | «İbtidai məktəb və məktəbəqədər tərbiyə» jurnalında qabaqcıl təcrübə ilə əlaqədar dərc olunmuş məqalələrin müzakirəsi . | İl ərzində | Tərbiyəçilər |

**Təlim-tərbiyə işlərinə nəzarət**

| | | | |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12 oktyabr 2002-ci il tarixli əmri ilə təsdiq edilmiş «Fəaliyyət planının tələbləri baxımından bağçanın böyük qrupunda sadə riyazi təsəvvürlərin inkişafı məşğələlərinin təşkili vəziyyəti» (Tematik yoxlamanın yekunları). | I rüb | Müdir |
| 2. | Məktəbəqədər tərbiyə təlim proqramının tələblərinə müvafiq olaraq kiçik qrupda estetik tərbiyənin təşkili vəziyyəti (tematik yoxlamanın nəticələri). | IIrüb | Müdir |

| | | | |
|---|---|---|---|
| 3. | Təhsil Qanununun və Təhsil İslahatının tələbləri baxımından orta qrupda təlim-tərbiyə işlərinin vəziyyəti. | III rüb | Müdir |
| 4. | Bütün qruplarda «ay sağlamlıq dövrünün» təşkili vəziyyəti (tematik yoxlamanın nəticələri) | IV rüb | Müdir |
| 5. | Yeni dərs ilinə hazırlığın vəziyyəti | İl boyu | Müdir |
| 6. | Bütün qruplarda gündəlik məşğələləri müşahidə etmək. | İl boyu | Müdir |
| 7. | Gəzintilərin və oyunların həyata keçirilməsinə nəzarət etmək. | İl boyu | Müdir |

**Metodkabinetdə**

| | | | |
|---|---|---|---|
| 1. | «Tərbiyəçilərə metodik kömək güşəsi» hazırlamaq:<br>a) tərbiyəçinin rüblük və gündəlik iş planlarının nümunəsi;<br>b) nümunəvi icmal;<br>c) nümunəvi fərdi iş dəftəri;<br>ç) nümunəvi illik hesabat;<br>q valideyn iclaslarının protokolları. | Sentyabr | Müdir |
| 2. | Metodik ədəbiyyat güşəsi təşkil etmək. | Sentyabr | Müdir |
| 3 | Metodik tədbirləri sənədləşdirmək. | Yeri gəldikcə | Müdir |
| 4 | Tərbiyəçilərin əl işlərindən ibarət sərgi təşkil etmək («Bacarıqlı əllər» güşəsi | İl boyu | Müdir, tərbiyəçi |
| 5 | Qabaqcıl təcrübəyə dair bülleten hazırlamaq, güşə təşkil etmək | İlin əvvəlində | Müdir, tərbiyəçi |
| 6 | Bütün yaş qrupları üzrə asudə vaxtı və məşğuliyyətləri keçirmə planlarını tərtib etmək (iş təcrübəsi nəzərə alınmaqla) | İlin əvvəlində | Müdir, tərbiyəçi |
| 7 | Bütün yaş qrupları üzrə əl əməyi məşğələlərinin planlarını işləyib hazırlamaq və s. | İlin əvvəlində | Müdir, tərbiyəçi |
| 8 | Məktəbəqədər tərbiyə proqramının ayrı- ayrı bölmələri üzrə güşələr təşkil etmək<br>«İdman sağlamlıqdır» güşəsi, «Riyaziyyat» güşəsi, «Əl əməyi güşəsi», «Ətraf aləmlə tanışlıq» güşəsi, «Doğma yurdumuz» güşəsi. | İlin əvvəlində | Müdir, tərbiyəçi |
| 9 | Milli güşəni zənginləşdirmək | İl boyu | Müdir, tərbiyəçi |
| 10 | «Nağıllar aləmi» güşəsini zənginləşdirmək (nağıllar üzrə personajlar hazırlamaq) | İl boyu | Müdir, tərbiyəçi |
| 11 | Azərbaycan Respublikasının ümummilli lideri H. Əliyev güşəsini zənginləşdirmək | İl boyu | Müdir, tərbiyəçi |
| 12 | Müxtəlif mövzuda sərgilər təşkil etmək | İl boyu | Müdir |
| 13 | Azərbaycan Respublikası Təhsil Nazirliyi və Təhsil Şöbəsinin əmr və sərancamlarına müvafiq olaraq tədbilər planlarını işləiyb hazırlamaq | Yeri gəldikcə | Müdir |

# İKİDİLLİLİK ŞƏRAİTİNDƏ ÜZÜNDƏNKÖÇÜRMƏNİN TƏŞKİLİ ÜZRƏ İŞİN YOLLARI

**Cavanşir ABBASOV,**
Lənkəran Dövlət Universitertinin müəllimi



Savad təlimi dövründə, əsasən, ən asan müstəqil çalışma növü olan üzündənköçürmədən istifadə edilir. Bu prosesdə şagird hər an yazdığını, gördüyü işi tutuşdurub yoxlaya bilir. Ona görə də üzündənköçürmədə səhvburaxma ehtimalı daha az olur. Bununla belə, həddən artıq yazdırılan üzündənköçürmə də uşaqları yorur. K.D. Uşinski yazır: «Üzünü köçürmək başa nəinki heç bir inkişafetdirici iş vermir, o hətta odun yarmaq, yerimək və ya hər hansı bir başqa sırf fiziki işə nisbətən başın işlənməsinə daha çox mane olur».

K.D.Uşinski orfoqrafiyanı öyrənmək üçün üzündənköçürmədən istifadə etməyi lazım bildiyinə baxmayaraq, ondan çox istifadə etməməyi, şüurluluq prinsipinə əsaslanmağı məsləhət bilidi.

Üzündənköçürmə zamanı mətnin üzünü eynilə köçürməklə kifayətlənmək olmaz. Onun yaradıcı növlərindən istifadə etmək daha səmərəli nəticələr verir. Prof. Y.Ş Kərimov göstərmişdir: «Hazırda metodika şüursuz , mexaniki üzündənköçürməni rədd edir və şagirdləri düşünməyə vadar edən, onların diqqətini müəyyən orfoqramlara yönəldən şüurlu, yaradıcı üzündənköçürməyə böyük əhəmiyyət verir.

Şagirdlərə sözlərin qrafik surətini mənimsətmək məqsədilə olduğu kimi üzündənköçürmədən ən çox əlifba təlimi dövründə istifadə olunur.

Çox zaman şagirdlər bütövlükdə cümləni və ondakı sözlərin sırasını aydın təsəvvür etmədən üzünü köçürdüklərindən yazmağa gec alışırlar.

Üzündənköçürməyə yaradıcı xarakterin verilmiəsi üçün orfoqrafik təhlilin əhəmiyyəti böyükdür. Müəllim yazı taxtasında bir cümlə yazır. Şagirdlər müəllimin suallarının köməyilə yazılmış cümlənin mənasını fikirləşir, sözlərin quruluşunu, onun hərf-heca tərkibini təhlil edir, sözü ucadan oxuyur, onu hecalara ayırır, hər bir hecada neçə və hansı hərflərin olduğunu göstərirlər. Təhlildən sonra bir şagird cümləni oxuyur, şagirdlər yazı taxtasına baxmAdan cümləni yazır, sonra yazı taxtasına baxırlar. Bu yolla onlar üzündənköçürmə yazıya mükəmməl hazırlanırlar.

Yaradıcı üzündənköçürmə zamanı şagirdlər sözlərin, cümlənin, mətnin tərkibinə müəyyən əlavələr edə bilərlər. Ona görə ikidillilik şəraitində yaradıcı üzündənköçürməyə daha geniş yer vermək lazımdır.

İkidillilik şəraitində istifadə olunan yaradıcı üzündənköçürmənin variantlarını nəzərdən keçirək:

1. Sözdə buraxılmış hərfin yerinə qoyulması.

Müəllim yazı taxtasında oğl…n, bar..m…, t… td… sözlərini yazaraq müsahibə aparır:

— Birinci sözdə hansı hərf çatışmır? (ə)
— Kim yoldaşının səhvini düzəldər? (a)
—Kim sözü düzgün deyər? (oğlan)
—Nöqtələrin yerinə *ə* olsaydı söz necə deyilərdi? ( oğlən)
— Deməli, *oğlən* yox, *oğlan* kimi yazılmalıdır.
— İkinci sözdə hansı hərflər çatışmır? (ə,ə)
— Kim yoldaşının səhvini düzəldər? (a,a)
— Söz necə yazılır? (barama)
Üçüncü sözdə hansı hərflər çatışmır? (ü,ü)
— Kim yoldaşının səhvini düzəldər? (u,u)
—Söz düzgün necə yazıdır? (tutdu)

2. Cümlədə buraxılmış sözün yerinə qoyulması.

Müəllim «Arif telefona … verir» cümləsini yazı taxtasında yazaraq şagirdlərdən soruşur:

—Cümlədə hansı söz çatışmır? ( cavab)
—Sözdəki saitlər hansılardır? (ə, a)
—Hansı səs düzgün deyilməmişdi? (Birinci ə saiti ə kimi deyilmişdi)
—Kim sözü düzgün deyər? ( cavab)

3. Mətndə verilmiş nümunə və qrammatik tapşırıq üzrə sözün dəyişilməsi.

Müəllim yazı taxtasında «Mən yazı yazıram» cümləsini yazaraq onun axırıncı sözünü dəyişdirib yazılmasını tələb etdi. Yazmağa başlamazdan əvvəl o, müsahibə təşkil edə bilər:

—*Yazıram* sözünü necə dəyişmək olar? (yazdim)
—Kim yoldaşının səhvini düzəldər? (yazdım)
— Daha necə oxumaq olar? (yazacağəm)
—Söz düzgün necə yazılmalıdır? (yazacağam)
—Sözlər dəyişiləndən sonra cümlələr necə yazıla bilər? (Mən yazı yazdım. Mən yazı yazacağam).

4. Mötərizədəki suala əsasən sözün dəyişdirilməsi.

Müəllim yazı taxtasında «Qardaşım altı (neçənci) sinifdə oxuyur» cümləsini yazır. Şagirdlərə tapşırır ki, suala əsasən cümləni düzgün yazsınlar.

Məlumdur ki, talış dilində sıra say şəkilçiləri ancaq *-ci* şəklində olur. İkidillilik (talış) şəraitndə təhsil alan şagidlərin əksəriyyəti Azərbaycan dilində *-cı,-ci, cu,-cü* şəklində bitən sıra saylarını ancaq *-ci* şəklində yazırlar. Şagirdlərin buraxa biləcəkləri səhvləri nəzərə alaraq müəllim müsahibə təşkil edir:

— Azərbaycan dilinə sıra say şəkilçiləri hansılardır? (*-cı,-ci, -cu,-cü*)
— Talış dilində sıra say şəkilçiləri hansılardır? (ancaq *-ci*)
— *Altı* sözünə hansı sıra say şəkilçisi qoşulur? (*-cı*)
— Nə üçün? (çünki altı sözünün son saiti *ı*-dır)

— Kim yazı taxtasındakı cümləni bütöv deyər? (Qardaşım altıncı sinifdə oxuyur).

6.Verilmiş cümlənin genişləndirilməsi.

Bu məqsədlə müəllim rabitəsiz mətn seçərək yazı taxtasında yazır. Uşaqlara tapşırır ki, cümləni genişləndirsinlər: «Atam kitab aldı» «Biz ağac əkdik». «Məzahir yazır» , «Ayrunə şəkillər çəkir»

Müəllim birinci cümləni oxuyur: «Atam kitab aldı»

— Bu cümləni hansı sözlə genişləndirmək olar? (maraqlı)

— Sözdəki saitlər hansılardır? (a, a,)

— Kim cümləni tam deyər? (Atam maraqlı kitab aldı) və s.

Talış şivəsi şəraitində savad təlimi dövründə üzündənköçürmə yazılar verərkən iş aşağıdakı qaydada təşkil edildikdə düzgün yazı vərdişləri təmin olunur.

Yazı yazdırılmazdan əvvəl yazılacaq *ana, ata, Tutu, tut, ora, durna* və s. sözlərin hər birinin üzərində müsahibələrlə sorğu təşkil etmək lazımdır.

Kim *ana, ata, ora* sözlərini deyər (Anə, atə, orə)

Bu sözlərdə hansı səs düzgün deyilmirdi? (Sözlərin axırıncı saiti *a ə* kimi deyilirdi)

— Kim düzgün deyər? (ana, ata, ora)

— Kim *Durna, Tutu, tut* sözlərini deyər? (Durnə, Tütü, tüt)

— Bu sözlərdə hansı səs düzgün deyilmirdi? (u səsləri ü kimi deyilirdi)

Təcrübə göstərir ki, talış dili şəraitində şagirdlərin əksəriyyəti üzündənköçürmə yazıda daha çox səhvə yol verirlər. Bunun bir səbəbi uşaqların diqqətsizliyidirsə, digər səbəbi Azərbaycan dilinin orfoqrafiyasını öyrənməkdə çətinlik çəkmələridir.

İkidillilik şəraitində üzündənköçürmə yazılarda orfoqrafik səhvləri müəyyənləşdirib, aradan qaldırmaq üçün ayrı-ayrı siniflər üzrə aparılan işlərlə tanış olaq.

I sinif üzrə:

Müəllim mətni oxuyub yazı taxtasında yazır:

«Ulduzlar göyə səpələnib. Ülkər onlara tamaşa edir. Ümid və Ürfan da oradadırlar. Uşaqlar sevinirlər. Uğur Ümmiyə uçan ulduzu göstərir».

Yazıya başlamamışdan əvvəl müəllim yol verilə biləcək orfoqrafik səhvlər üzərində musahibə təşkil edə bilər:

—Kim *ulduzlar* sözünü deyər? (*ulduzlər*)

— Bu sözün saitləri hansılardır? (*u,u,v*)

—Samitlər hansılardır? (*l,d,z,l,r*)

—Kim *göyə* sözünü deyər? ( göyə) Bu sözü *qöyə qeyə* kimi tələffüz edən də ola bilər, çünki talış dilinin fonetikasında *g* və *ö* səsləri yoxdur.

—Bu sözdə saitlər hansılardır? ( ö,ə)

—Samitlər hansılardır? ( *g,y*)

—Kim *onlara* sözünü deyər? (onlərə)

—Bu sözün saitləri hansılardır? *( o,a,a)*

—Samitlər hansılardır? *( n,r,l)*

—Kim *tamaşa* sözünü deyər? *( tamaşə)*

—Bu sözdə saitlər hansılardır? (*a,a,a)*

—Samitlər hansılardır*? ( t,m,ş*) və s.

Bu cür müsahibədən sonra müəllim sinfə yazmağı tapşırır. Yazı tamamlandıqdan sonra şagirdlərdən bir neçə nəfər mətni oxuya bilər.

II sinif üzrə üzündənköçürməni həmin sinif üçün «Hüsnxət» dərs vəsaitində «Yadda saxla» mətni üzrə təşkil etmək olar.

Müəllim əvvəlcə mətni oxuyur:

«Bulağı bulandırma, çirkləndirmə. Meşədə ocağı söndürməyi unutma. İstirahət etdiyin yeri zibilləmə. Quş yuvalarını dağıtma».

İkidillilik şəraitində talış dilinin təsirinə düşərək orfoqrafik səhvlərə yol verilə biləcək sözlər üzərində müsahibə təşkil etmək məqsədəuyğundur:

— *Bulağı* sözündə birinci sait hansıdır? (u)
— *Balandırma* sözünün son saiti hansıdır? (a)
— *Unutma* sözündəki saitlər incədir, yoxsa qalın? (hamısı qalın)
— *Quş* sözündə hansı sait var? (u)
— *Dağıtma* sözünün son saiti hansıdır? (a)

Belə müsahibədən sonra üzündənköçürmə yazdırmaq olar.

III sinifdə yazını kitab üzrə təşkil etmək mümkündür. «Azərbaycan dili» dərsliyində «Cümlədə sözlərin əlaqəsi» bəhsində hərfləri buraxılmış sözlərin yazılması üzrə çalışmanın yerinə yetirilməsinə nəzər yetirək:

dö..lət, şə..bə, zə..bil, şək...ən, zərə..., c...fa, tə...ğəl, g...brə, m...barək,a...bar, n...zik, tr...leybus, b...xtəvər, xoşb...xt, bərab...ər, mübt...da, şəh...rat, müşt...luq, k...şniş, iş...aha, pər....ar, qəhr...manın, kərpi....

Orfoqrafik səhvləri müəyyənləşdirib, aradan qaldırmaq məqsədilə təhlil işi aparmaq məqsədəuyğundur:

— *Dövlət* sözünün birinci saiti hansıdır? (ö)
—Talış dilində *o* saiti varmı? (yox)
—Bəs *ö* səsini hansı saiti əvəz edir? (e)
—Talışlar *zənbil* sözünü necə tələffüz edirlər? (zanbül)
—*Gübrə* sözü talış dilində necə səslənir? (qübrə)
—Nə üçün belə səslənir? (talış dilində *g* samiti olmadığı üçün onu çox vaxt *e* saiti əvəz edir)
—*Trolleybus* sözü talış dilində necə səslənir? (trəleybus)
—Burada hansı səs düzgün deyilmədi? (o saiti ə kimi, u saiti ü kimi tələffüz olundu)
— Talış dilində *bəxtəvər* sözü necə səslənir? (baxtəvər)
— Burada hansı səs düzgün deyilmədi? (ə saiti a kimi tələffüz olundu)
—*Muştuluq* sözünün saitləri hansılardır? (u,u,u)
— *İştaha* sözünün saitləri hansılardır? ( i, a,a) və s.

Beləliklə, ikidillilik şəraitində üzündənköçürmə yazıları yazdırarkən yerli şivənin təsiri ilə orfoqrafik səhvlər yarana bilən sözlər həmişə diqqət mərkəzində saxlanmalıdır.

## Ədəbiyyat

1. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1953.
2. KərimovY.Ş. İbtidai siniflərdə orfoqrafik çalışmaların sistem. Bakı, «Maarif,» 1965.

3. Kərimov K.Ə. Talış dilinin tədrisinə dair (I-IV sinfilər üçün) 1990.
4. Məmmədova A., Məmmədov N., Ağayev Ş. «Əlifba» (talış) Bakı, «Maarif», 1996.

Пути осуществления работы по организации преписывания в условиях двуязычия
Резюме
В статье речь идет о методике проведения переписывания в условиях двуязычия. Отмечается, что наблюдаемые в речи учащихся национальные особенности можно устранить при использовании метода переписывания. Для этого имеются разные пути в возможности. В сатье все это раскрывается на основе тех или иных конкретных примеров.

# ŞAGİRDLƏRİN NİTQİNİN İNKİŞAFINDA SİNİFDƏNXARİC İŞLƏRİN ƏHƏMİYYƏTİ

**Mətanət SADIQOVA,**
ARTPİ-nin elmi işçisi



İbtidai sinif şagirdlərində nitq mədəniyyəti tərbiyə edərkən onların öz fikir və hislərini qrammatik və fonetik cəhətdən obrazlı şəkildə ifadə etmələrinə nail olmaq lazımdır. Nitqin düzgünlüyündən o zamn danışmaq olar ki, dilin normaları (fonetik, orfoepik, leksik, qrammatik, söz yaradıcılığı, semantik, üslubi və s.) pozulmasın. Buna görə də nitq nöqsanlarının aradan qaldırılması üçün onun başvermə səbəblərini müəyyənləşdirmək tələb olunur.

Nitq inkişafı məsələsi daim metodist alimlərin diqqət mərkəzində olmuş, onlar öz əsərlərində nitq nöqsanları və onların aradan qaldırılması yollarına toxunmuşlar. Araşdırmalarda nitqin dərin məzmunlu olması, məntiqiliyi, aydınlığı, anlaşıqlı olması, dəqiqliyi, ifadəliliyi ön plana çəkilir.

Təcrübə göstərir ki, ibtidai siniflərdə zəngin lüğət ehtiyatına malik olmadan, nitqin məzmunluluğunu, dəqiqliyi təmin edilmir. Ona görə də nitq inkişafı üzrə işdə nitq vahidi olan söz ehtiyatının zənginləşməsinə xüsusi diqqət yetirilməlidir. Yalnız düzgün seçilən, yerində deyilən söz nitqin təsirini artıra bilər.

Məktəbə yeni gəlmiş uşaqlarda bir sıra fizioloji qüsurların olması ilə bağlı bəzi sözlərin əvvəlində q səsini d kimi ( gəl- dəl, geyib- deyib) k səsini t kimi

(kök- tök, kar- tar), ş səsini s kimi (qaşıq- qasıq) və ortasında q səsi əvəzinə l kimi ( qara- qaya) tələffüz edirlər. Nəticədə bir səsi digəri ilə əvəz etməklə sözlərin mənaları dəyişir, anlaşma çətinləşir.

Bu cür nöqsanların aradan qaldırılmasında sinifdənxaric işlərin rolu böyükdür. Sinifdənxaric işlər şagirdlərin tədris prosesində əldə etdikləri bilik, bacarıq və vərdişləri dərinləşdirir, onlar düzgün nitq qabiliyyətinə yiyələnmələrinə şərait yaradır. Hər bir məktəbdə sinifdənxaric işlərin məzmunu şagirdlərin meyl və maraqları nəzərə alınmaqla müəyyən edilir.

Şagirdlərin nitqi praktik şəkildə mənimsəmələri üzrə iş bütün məşğələlərdə, həmçinin sinifdənxaric məşğələlərdə, tənəffüslərdə, ictimai- faydalı işlərdə, əmək prosesində, bayram şənlikləri zamanı, oyun və əyləncələr zamanı getməlidir.

Tədqiqat göstərir ki, nitq nöqsanlarının başvermə səbəbləri subyektiv və obyektiv olmaqla iki istiqamətdə təsnif olunur. Nöqsanlar, əsasən, uşaqlarda qırıqlıq, pəltəklik, kəkələmə, tələskənliyin olması, onların yerli şivə xüsusiyyətlərinə istinad etmələrindən irəli gəlir. İşin elmi əsaslar üzərində səmərəli təşkil olunması üçün hər bir uşağın nitq qüsurları diqqətlə öyrənilməlidir.

Uşağın nitqindəki qüsurların aradan qaldırılmasına ilk növbədə ailədən, məktəbəqədər dövrdən başlanmalı, məktəbə qədəm qoyduğu gündən isə müəllimin bu işdə rolu böyük olmalıdır. Müəllim danışarkən tələffüzünə, intonasiyaya diqqət etməlidir. Əgər müəllim öz nitqinə diqqət yetirməsə, şagird də öz nitqini düzəltməkdə çətinlik çəkər.

Təəssüflə qeyd edilməlidir ki, sinifdənxaric iş zamanı nitq normalarının düzgün öyrədilməsi mühüm yer tutmasına baxmayaraq, hələ müəllimlərin fəaliyyətinə lazımınca daxil olmamışdır. Apardığımız müşahidələr zamanı aydın oldu ki, uşaqların çoxunun nitqində kobud yerli şivə xüsusiyyətləri işlətmələri, sürətlə danışmaları, vurğu və intonasiyanı gözləmələri özünü daha aydın göstərir.

Çox vaxt müəllimlər yerli şivə xüsusiyyətlərinə əhəmiyyət vermirlər. Ona görə də qərb şivələri şəraitində *aler, gəler, duror, üzör, alajam, gələjəm*, şimal-qərb şivələrində *sen, men, geliy, qoruy, gülüy*, şimal şivələrində *aladı gələdi, gürədi, duradı, üküz, Uruc*, Baki, dialekti şəraitində *vərdi, getirdi, bobam, ənnon, söbet* və s. şəklində tələffüz adi hal kimi qarşılanır. Müəllimlərin özlərinin də tələffüzünün belə olması nöqsanların aradan qaldırılmasını çətinləşdirir.

Sinifdənxaric iş prosesində müəllim şagirdlərin nitqini nəzərə almaqla uşaqları səhərciklərə, oyun və əyləncələrə, bayram şənliklərinə cəlb etməli, onların bu işdə daha yaxından iştirak etmələrinə çalışmalıdır. Tənəffüs zamanı təşkil olunan oyunlar və əyləncələr uşaqların nitqində mühüm rol oynaya bilər. Oyun prosesində birinin digəri üzərində nəzarətini təşkil etməklə onların nitqlərindəki qüsurları aradan qaldırmaq mümkündür. Bu zaman hərəkətli - sözlü oyunlara üstünlük verilməlidir. «Bənövşə», «Kim güclüdür»,

«Ana məni qurda vermə» və s. kimi oyunlar nöqsanlara düzəliş verilməsinə imkan yaradır.

Səhərciklərin, bayramların, gəzintilərin, görüşlərin keçirilməsi uşaqları sevindirir, fərəhləndirir, onların bədii zövqünün, dünyagörüşünün inkişafına müsbət təsir göstərir, nitqini zənginləşdirir. Bu cür tədbirlərdə təkcə istedadlı uşaqlar üçün deyil, eyni zamanda dilində qüsur olan şagirdlər də işə cəlb olunmalıdır.

Məktəblərdə keçirilən hər bir bayram (xüsusilə Novruz bayramı, Yeni il bayramı, Qadınlar günü və s.), hər bir görüş və səhərciklər uşaqları tariximizlə yaxından tanış edir, onların dünyagörüşlərini formalaşdırır, nitqini inkişaf etdirir.

Şagirdlərin zehni inkişafına, dünyagörüşlərinin genişlənməsinə, lüğət ehtiyatının zənginləşməsinə, onların nitqində olan qüsurların aşkara çıxarılmasında gəzintilərin və ekskursiyaların da rolu böyükdür. Gəzinti və ekskursiya zamanı şagirdlərin gördükləri əşya və hadisələrin adlarının dəqiq tələffüzünə nail olmaq mümkündür.

Müəllim gəzinti zamanı uşaqlara yanıltmaclar, qısa və maraqlı nağıllar və s. söyləyir, onların nitqində olan qüsurları aşkar edir və bu qüsurların aradan qaldırılmasına səy göstərir.

Şagirdlərin nitqinin inkişaf etdirilməsində istifadə olunan səmərəli vasitələrdən biri də radio və televiziya verilişləridir. Uşaq verilişləri onalrın mənəviyyatına, zehni inkişafına təsir göstərməklə, onlara davranış normalarını başa salmaqla yanaşı, nitqlərindəki qüsurların aradan qaldırılmasına da xidmət edir.

Şagirdlərin fəal iştirakı ilə hazırlanmış verilişlər: konsertlər, tapmaca, şeir gecələri, təbiətin qoynunda keçirilən gəzintilərə aid verilişlər, aktyorlarla birgə təşkil etdikləri səhnəciklər, eləcə də cizgi filmləri şagirdlərin yaradıcılığına, nitq qabiliyyətinə, ifa etmə mədəniyyətinə yiyələnmələrinə olduqca müsbət təsir göstərir.

Hazırda uşaqlar üçün verişlişlər hər gün bir neçə saat efirə yayılır. Uşaq verilişləri dedikdə biz xüsusi olaraq məktəblilərə ünvanlanmış müxtəlif verilişləri nəzərdə tuturuq. Bu verilişlərə daxil olan «Qanadlar» «Tumurcuq», «Balama qurban», «Günlərin bir günü», «Göy qurşağı» və s. kimi radio verilişləri tərbiyə baxımından çox əhəmiyyətli olmaqla yanaşı, onalrın nitqlərinin inkişafında daha mühüm rol oynayır.

Müşahidələr göstərir ki, televiziyada nümayiş etdirilən «İnam», «Cizgi filmləri», «Zəkalar», «Ay işığında», «Sehirli güzgü», «Hər birimiz bir çiçək», «Mənim dostlarım», «Pəncərə» və s. verilişləri uşaqlar böyük maraqla izləyirlər. Bu cür verilişlərin efirdə getməsi uşaqların diqqətini, hafizəsini, müşahidəçilik qabiliyyətini, nitqini inkişaf etdirir, onlara məntiqi danışmağı öyrədir.

Dərslər nə qədər yaxşı keçsə də, mürəkkəb proses olan nitq qüsurlarını 45 dəqiqəlik dərs çərçivəsində aradan qaldırmaq mümkün deyil. Ona görə də bu məqsədlə sinifdənxaric işlərdən istifadə etmək əhəmiyyətlidir.


Ədəbiyyat

1. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, s. 252-254.
2. Kərimov Y.Ş. Ana dili tədrisi metodikasının nəzəri problemləri. Bakı, «Nasir», 2005,
3. Kərimov Y.Ş. İbtidai təlim: problemlər, vəzifələr. Bakı, «Nasir», 2000.
4. Kərimov Y.Ş. Məmmədov Ə.S. II sinif Azərbaycan dili dərsliyinə metodik rəhbərlik. Bakı, 1996.



Значение внеклассных мероприятий в развитии речи учащихся

Резюме

В статье рассматриваются вопросы, связанные с путями развития речи учащихся начальных классов. В устранинис речевых недостатков, спесифических особенностей учащихся начальных классов особо отмечается роль внеклассных мероприятий. В этих целях полезным считается проведение утренников, праздников, встреч, прогулок, просмотр разного типа радио и телепередач.


## MƏSƏLƏ HƏLLİNİN ÖYRƏDİLMƏSİNİN DİDAKTİK SİSTEMİ


**Paşa PAŞAYEV,**
fizika-riyaziyyat elmləri namizədi
AMİ-nin Gəncə filialının müəllimi


İbtidai məktəb get-gedə daha çox ənənəvi tədris metodlarından uzaqlaşmaqdadır. Yeni növ məktəblər yaranmaqda, alternativ proqram və dərsliklər meydana çıxmaqdadır.

Riyaziyyatın təlimində əsas diqqət nəzəriyyəyə yönəldilir və nəzəriyyə praktika ilə möhkəm bağlanır. Başqa sözlə, şagirdlər öyrəndikləri nəzəri bilikləri mütləq praktikada tətbiq etməyi bacarmalıdırlar. Məsələ həlli məhz praktika kimi çıxış edir, lakin bu sahədə həm müəllimlər və həm də şagirdlər kifayət qədər çətinliklərlə qarşılaşırlar.

Artıq III sinifdə şagirdlər məsələ həllinin cəbri üsulu ilə tanış olurlar. Məlumdur ki, məsələ həllinin cəbri üsulu nəzəri təfəkkürü və ümumiləşdirmə qabiliyyətini inkişaf etdirir, mücərrəd təfəkkürü formalaşdırır, məsələnin qısa yazılışı və tənliyin tərtib olunması üçün mühakimələrə az vaxt sərf olunmasını

təmin edir. Bu üstünlüklərin müəllimlərin məsələ həllinin cəbri üsuluna üstünlük verməsinə səbəb olur, lakin bu heç də o demək deyildir ki, məsələ həllinin hesabi üsulu məsələnin sadə məsələlərə parçalanması və onların müəyyən ardıcıllıqla həll edilməsi şagirdlərin təfəkkürünü az inkişaf etdirir. Məsələ həllinin hesabi üsulu şagirdlərdən böyük zehni gərginlik tələb edir və bu da onlarda əqli imkanları, riyazi intuisiyanı, real həyati situasiyanı qabaqcadan görmək bacarığını inkişaf etdirir. Buna görə də məsələ həllinin hesabi üsulu ibtidai siniflərdə özünə möhkəm yer tutmalıdır.

Qeyd etmək lazımdır ki, məsələ həllinin hesabi üsulu heç də bütün şagirdlər tərəfindən asan və müvəffəqiyyətlə mənisənilmir. Belə ki, kiçikyaşlı məktəblinin təfəkkürü əyani obrazlı xarakter daşıyır. Kiçikyaşlı məktəblilər real əşyalarla əsaslandıqda bu və ya digər məsələni daha müvəffəqiyyətlə həll edirlər. Buna görə də məsələnin həll olunmasına imkan verən düşünülmüş fəaliyyət göstərmək üçün məsələdə təsvir olunan situasiyanı illüstrasiyalaşdırmaq, başqa sözlə, təsvirlər vasitəsilə maddiləşdirmək lazımdır. Bu halda şagirdlər bu və ya digər əməliyyatın nə üçün seçildiyini əyani başa düşmək imkanı əldə edəcəklər.

Dərsliyin sonunda verilmiş məsələlər xüsui diqqət və yanaşma tələb edir. Məhz təlimin bu mərhələsində məsələnin həlli üçün müxtəlif fəndlər və üsullar seçilməsi, məsələni təhliletmə bacarığı, lazımi nəticələr çıxarmaq qabiliyyəti aşkarlanır. Buna görə də məsələ həlli zamanı müəllim işi elə qurmalıdır ki, şagirdlər məsələ həllinin müxtəlif üsullarını tapsınlar, onları müqayisə etsinlər, daha asan və rasional yolu seçsinlər.

Təəssüf ki, müəllimlərin böyük bir qismi verilmiş məsələnin həlli üçün göstərişlərə aludə olaraq məsələ üzərində iş aparır və bu da təlimin öyrədici və inkişafetdirici funksiyalarının tam şəkildə reallaşmasını təmin etmir. Təlimin inkişafetdirici aspektini gücləndirmək üçün məsələləri hesabi üsulla həll etmək daha əlverişlidir. Bu zaman şagirdlərə məsələni həll etmək üçün əməliyyatları seçmək imkanı yaranır.

Məsələ həlli üsullarının müqayisəsi zamanı aydın olur ki, bir çox şagirdlər məsələni həll etmək üçün hesabi üsula üstünlük verir, digər qisim şagirdlər isə cəbri, qrafik və ya praktik üsulu seçir. Bununla belə, məsələlər üzərində müxtəlif üsullarla aparılan müntəzəm iş, ayrı-ayrı üsulların tətbiqi nəticəsində alınmış cavabların müqayisəsi və onların müzakirəsi, rasional həlli üsulunun seçilməsi kəmiyyətlər arasındakı əlaqə və asılılıqları daha yaxşı dərk etməyə, düşünmək, nəticə çıxarmaq və bu nəticələri əsaslandırmaq qabilyyətləri formalaşdırmağa imkan verir.

Məsələ həll etməyə başlamazdan əvvəl sual qoymaq lazımdır ki, «Məsələ nədir?». Uşaqlar hökmən cavab verəcəklər: «Məsələdə sözlər olur», «Məsələdə sual olur», «Məsələdə nəsə baş verir» və s. Bu zaman uşaqlara təklif edin ki, aşağıda verilənlərdən məsələləri seçsinlər:

1. Anbara 3 ton taxıl gətirdilər.

2. Bayramda 20 qırmızı, 10 yaşıl və 15 göy şar vardır. Bayramda neçə şar vardır?

3. Buketdə neçə çiçək vardır.

4. Çəkisi 15 kq olan yeşik çəkisi 8 kq olan yeşikdən nə qədər ağırdır?

5. Qabda 5 alma və 7 armıd var. Qabdakı meyvələrin sayını tapın.

1 və 3 maddələr ilə əlaqədar problem yaranmır. Belə ki, birincidə sual yoxdur, üçüncüdə isə verilənlər. 4-cü maddədə verilən mətn məsələnin əsas elementlərinə – şərtə və suala malikdir. 4 məsələdə şərt, 5 məsələdə isə sual yoxdur. İndi uşaqlara sual vermək lazımdır ki, bunardan hansı məsələdir. Diqqətlə baxdıqda görmək olar ki, 4-cü maddədə verilən mətndə həm şərt, həm də sual eyni bir cümlədə ifadə olunmuşdur. 5-ci maddədə verilən mətndə isə sual göstəriş cümləsində «gizlədilmişdir».

Göründüyü kimi, məsələ haqda sadə bir sual bir sıra tədqiqat xarakterli cavablar doğura bilir. Bu cavablar məsələlərin öyrənilməsi ilə tədricən inkişaf etdiriləcəkdir. Hələlik isə keçdiyimiz dərsə yekun vuraraq uşaqlara demək lazımdır ki, məsələ hökmən müəyyən süjetə malik olur. Sonda uşaqlara bir neçə məsələ fikirləşmək haqda tapşırıq verilməlidir.

Sonrakı iş prosesində şagirdlərə məsələnin mətni arxasında riyazi nüvəni görməyi öyrətmək lazımdır. Bunun üçün məsələni iki dəfə oxumaq lazım gəlir. Birinci oxu ümumi tanışlıq xarakteri daşıyır. İkinci oxu isə məsələnin məntiqi fasilələrlə, verilənlərin səs intonasiyası ilə ayırd edilməsi yolu ilə strukturlaşdırılması məqsədi daşıyır. Birinci oxu ilə hər şey aydındır. İkinci oxunun nəticələrini kağızda necə qeyd etmək olar? Əgər biz şagirdlərə bunu öyrədə bilsək, onda təsdiq etmək olar ki, məsələ həlli istiqamətində onların qarşılaşacaqları problemlərin yarısı artıq götürülmüşdür.

Hər bir şagird məsələni emal etməyi bacarmalıdır.

Beləliklə, riyazi nüvəni ayıraraq onu ikinci dəfə oxuyur və qarşımıza belə bir vacib məqsəd qoyuruq: kəmiyyətləri və onlar arasındakı əlaqələri ayırmaq. Bu məsələnin həlli istiqamətində ikinci addımdır.

Uşaqlara demək olar ki, kəmiyyət bildirən sözlərin altından xətt çəksinlər. Məsələnin sulaını isə xüsusilə ayırmaq lazımdır. İndi məsələyə baxaq, görək nə alınır:

*Tənbəl bir ovçu ovdan əvvəl <u>iki dənə qoğal</u> yeyəndən sonra elə zəiflədi ki, ova getmək istəmədi. <u>Üç dənə də qoğal</u> yedikdən sonra o bir az ürəkləndi, hətta tüfəngini də doldurdu, amma yenə də ayaqları sözünə baxmadı. Ovçu məcbur oldu ki, <u>iki qoğal da</u> yesin. Bundan sonra onu yuxu basdı və tənbəl ovçu yatdı. <u>Ovçu cəmi neçə qoğal yedi</u>?*

Göründüyü kimi, yerinə yetirilmiş əməliyyatlar, yəni əsas sözlərin altından xətt çəkilməsi məsələnin qavranmasını xeyli asanlaşdırdı, lakin şagirdlərin bəzilərinin qarşısında hələ də belə sual dayanmaqdadır: əsas sözləri məsələdə necə ayırd etmək olar? Bu şagirdləri məsələdə sözlərin çoxluğu ehtiyatlandırır. İndi belə bir iş edək – yazı taxtasında yazılmış

məsələdən altından xətt çəkilmiş sözlərdən başqa qalanını pozaq. Belə bir mənzərə alacağıq:

...iki dənə qoğal ... Üç dənə də qoğal ... iki qoğal da ... Ovçu cəmi neçə qoğal yedi?

Sözlərin böyük bir qisminin silinməsi məsələnin riyazi modelinə heç bir xələl gətirmədi. Biz bu məsələni indi asanlıqla həll edə bilərik. Bu, artıq məsələnin həllinin ikinci üsuludur. Birinci halda biz əsas sözlərin altından xətt çəkmişdik. İkinci üsul isə əsas olmayanların kənarlaşdırılmasına əsaslanır.

Müzakirə zamanı aydınlaşdırırıq ki, əsas sözlərə nələr aiddir: ədədlər və rəqəmlər və onların yanındakı adlar; müqayisə olan yerdə iştirakçılar; fəaliyyətə dair sözlər. Sönuncunun üzərində bir qədər ətraflı dayanmaq lazımdır. Göstərmək lazımdır ki, məsələnin mətninin emalı son dərəcə mühüm əhəmiyyət kəsb edir. Şagirdlərin bir qismində vərdiş etdikləri bir ifadə var: «Mən məsələni başa düşməmişəm». Görəsən, doğma dildə yazılmış məsələ niyə başa düşülmür? Problem ondadır ki, məsələni doğma dildən riyazi dilə çevirmək lazımdır və əksinə.

Beləliklə, sadə məsələlərin həllinə başlayarkən biz ən birinci problemlə – məsələnin mətninin qavranılması problemi ilə üzləşirik. Bu, problemin həlli məsələ üzərində işin müvəffəqiyyətini şərtləndirən əsas amillərdəndir.

Məsələnin mətnini emal etdikdən sonra atılan addımlar:

Məsələnin şərtinin sxemi çəkilir.

Formula yazılır.

Hesablama apırılır, cavab yazılır.

Məsələnin mətninə qayıdaraq yoxlama aparılır.

Göstərmək lazımdır ki, bütün bu addımlar kompleks yanaşma tələb edir. Nəzarət dərslərində məsələyə sxemin nə dərəcədə düzgün çəkildiyini yoxlamaq lazımdır. Bu zaman, məsələn, belə fənddən istifadə etmək olar. Məsələdəki hər bir əsas sözlə sxemdəki uyğun detalı xətlə birləşdirmək.

Müəllim praktikada nəzəri əsasları əlində rəhbər tutmalıdır. Nəzəriyyə və təcrübə bir-birilə qırılmaz vəhdətdədir və ayrı-ayrılıqda mövcud ola bilməzlər. Məsələ həllinin nəzəri əsasları ilə tanış olduqdan sonra təcrübi məsələlərə keçmək məqsədəuyğundur. Daha doğrusu nəzərdən keçirmək lazımdır ki, məsələyə sualları necə tərtib etmək, qısa yazılışı necə həyata keçirmək, məsələni necə təhlil etmək və onu necə həll etmək lazımdır. Buradaca ədədlərin bir neçə vahid artırılması və azaldılmasına dair, bölməyə dair, iki fərqə görə məlum olmayanın tapılmasına görə, qarşı-qarşıya və əks istiqamətlərdə hərəkətlərə dair və s. bu kimi məsələlələrin həlli üsulları ilə tanış olmaq məqsədəuyğundur.

Məsələnəin sualdan və ədədi verilənlərdən çıxış edərək təhlili zamanı bir neçə mərhələni ayırd etmək olar ki, bu mərhələləri sadə yolla dəf etmək mümkündür:

1. Bir bağlamada bir neçə dəftər var idi və o biri bağlamada da dəftərlər var idi. Hər iki bağlamada neçə dəftər var idi?

2. Bir qabda 5 alma və o biri qabda da bir neçə alma var idi. İki qabda birlikdə neçə alma var idi?

3. Bir kolda 4 pomidor, o birsində isə 5 pomidor var idi. İki kolda neçə pomidor var idi?

Əvvəlcə birinci məsələ nəzərdən keçirilir. Söhbət belə istiqamətdə aparılır:

- Məsələdə verilən sualı içərisində sual işarəsi olan düzbucaqlı ilə göstərək. Suala cavab vermək üçün nəyi bilmək lazımdır? (Birinci və ikinci bağlamalarda nə qədər dəftər olduğunu).




Düzbucaqlı çəkək və içərisində sual işarəsi yazaq. Bu düzbucaqlıdan iki xətt çəkək və onların sonunda yenə də düzbucaqlı çəkək. Bu düzbucaqlının biri bir bağlamadakı, digəri isə digər bağlamadakı dəftərləri göstərmək üçündür. Bunların da heç birisi məlum olmadığı üçün bu düzbucaqlıların da içərisinə sual işarəsi yazaq (şəkil 1).

Gördüyünüz kimi bu məsələni həll etmək mümkün deyil. Çünki burada məlum olan heç nə yoxdur.

Sonra ikinci məsələ nəzərdən keçirilir. Müəllim lövhədə sxemi çəkir (şəkil 2). Analiz davam edir:




Şəkil 2.

İkinci məsələnin sualına cavab vermək üçün nəyi bilmək lazımdır? (Hər qabda neçə alma olduğunu). Birinci qabda neçə alma var? (5 alma). Ona görə də birinci düzbucaqlıya 5 yazırıq. İkinci qabda neçə alma var? (Bilinmir.) Ona görə də ikinci düzbucaqlıya ? yazırıq.

Uşaqlara izah olunur ki, bu məsələ də həll olunmur.

Nəhayət, üçüncü məsələyə baxılır. Müəllim yazı taxtasında yenə də sxemi çəkir (şəkil 3) söhbəti belə aparır:




Şəkil 3.

- Üçüncü məsələnin sualına cavab vermək üçün biz nəyi bilməliyik? (Hər kolda neçə pomidor olduğunu). İndi bir kvadrata 4, o biri kvadrata 5 yaza bilərik. Bu məsələ gördüyünüz kimi həll oluna bilər. Bunun üçün düsturu yazırıq və həll edirik: 4+5=9.

Bundan sonra iki və üç əməliyyatla yerinə yetirilən məsələlər həll edilir: «Ata və oğul ağacların dibini doldururdu. Ata 1 saata 5 ağacın, oğul isə 3 ağacın dibini doldurur Onlar birlikdə 24 ağacın dibini neçə saata doldurarlar?». Bundan sonra analoci qaydada məsələ təhlil olunur.

- Məsələnin şərtini yenə də kvadratlara yazaq (şəkil 4). Suala cavab vermək üçün nəyi bilmək lazımdır? (Cəmi neçə ağacın dibinin doldurulmasını və ata ilə oğulun 1 saata neçə ağacın dibini doldurduqlarını.) Bunların birincisi 24-dür, ikincisi isə məlum deyil. Ona görə də birinci düzbucaqlıya 24, ikinciyə ? yazırıq. Məlum olmayan ata və oğlun birlikdə 1 saat ərzində neçə ağacın dibini doldurmalarını tapmaq üçün nəyi bilmək lazımdır? (Onların hər birinin

1 saatda neçə ağacın dibini doldurduqlarını.) Bunların hər ikisi məlumdur və sual işarəsi yazılmış ikinci düzbucaqlıdan aşağıya daha iki düzbucaqlı çəkərək onların birinə 4, o birisinə isə 3 yazırıq.

Beləliklə, sxem hazırdır. Bundan sonra şagirdlər frontal şəkildə təhlili təkrar edirlər və göstərirlər ki, ata və oğulun birlikdə 24 ağacın dibini neçə saata doldurduqlarını tapmaq üçün bilmək lazımdır ki, ata və oğlu bir saata birlikdə neçə ağacın dibini doldurar. Onu tapmaq üçün isə bilmək lazımdır ki, onların hər biri 1 saata neçə ağacın dibini doldurular. Aydındır ki, bundan sonra məsələnin həlli elə bir çətinlik doğurmayacaqdır.

Bundan sonra 4 və 5 əməliyyata həll edilən məsələlərin həlli öyrədilir.

Məsələyə baxaq: «Quşçuluq fabriki mağazaya 6000 yumurta göndərməli idi. O, hər birində 350 yumurta olan 10 yeşik və hər birində 150 yumurta olan 4 yeşik göndərdi. Mağazaya daha nə qədər yumurta göndərilməlidir?».



Şəkil 4.

Məsələnin qısa yazılışını yerinə yetirməklə mühakimə aparaq: əgər 10 yeşiyin hər birində 350 yumurta vardısa, bu 10·350 yumurta edər. 4 yeşiyin hər birində 150 yumurta olarsa, bu da 4·150 yumurta edər. Məsələnin şərtini yazaq:

Göndərildi (350•10 yumurta
(150•4) yumurta } 6000 yumurta
Qaldı: ?

Məsələnin tam olmayan təhlilini apararkən şagirdlər təxminən belə mühakimə yürüdürlər: «Məsələnin sualına cavab vermək üçün bilmək lazımdır ki, mağazaya nə qədər yumurta göndərmək lazım idi (6000) və nə qədər göndərilmişdi (?). Mağazaya göndərilmiş yumurtaların sayını tapmaq üçün bilmək lazımdır ki, oraya birinci dəfə (?) və ikinci dəfə (?) nə qədər yumurta göndərilmişdi. Birinci dəfə nə qədər yumurta göndərildiyini tapmaq üçün hesablamaq lazımdır ki, 10 yeşikdə nə qədər yumurta göndərilmişdi (10·350), ikinci dəfə nə qədər yumurta göndərildiyini tapmaq üçün hesablamaq lazımdır ki, 4 yeşikdə nə qədər yumurta göndərilmişdi (4·150). Beləliklə, 1-ci sualda birinci dəfə, 2-ci sualda isə ikinci dəfə göndərilən yumurtaların sayı, 3-cü sualda cəmi nə qədər yumurta göndərildiyi, 4-cü sualda isə bundan sonra nə qədər yumurta göndərilməli olduğu hesablanmalıdır. Şəkil 5-də tam, şəkil 6-da isə tam olmayan analizin sxemləri göstərilmişdir. Şagirdlər təhlili yerinə yetirdikdən sonra müəllimin göstərişinə əsasən riyazi ifadələri sərbəst şəkildə yazır və məsələni həll edirlər.




*Şəkil 5*




*Şəkil 6*

Müqayisə metodunu tətbiq etməklə aşağıdakı məsələlərə baxaq:

1) 150 çərçivəni rəngləmək lazımdır. Bir rəngsaz bunu 15 günə, o birisi isə 10 günə yerinə yetirərsə, hər ikisi birgə bunu neçə günə edər?

2) Kitabxanaya 1500 kitabı cildləmək lazım idi. Bir emalatxana bunu 15 günə, o birisi isə 10 cünə yerinə yetirərsə, hər iki emalatxana bunu neçə günə edər?

Bu məsələlərin həlli şagirdlərdə bir qədər çətinlik törətdiyi üçün onların ənənəvi həlli müəllimin rəhbərliyi altında aparılır.

## PRAKTİK MƏZMUNLU MƏSƏLƏLƏRİN TƏRTİBİ ÜZRƏ İŞİN TƏŞKİLİ TƏCRÜBƏSİNDƏN

**Turan ƏLƏKBƏROVA,**
Respublika Humanitar Fənlər Gimnaziyasının müəllimi

**Valeh MƏMMƏDOV,**
AMİ-nin baş müəllimi



Praktik məzmunlu məsələlərin süjeti, ədədi verilənləri şagirdlər tərəfindən müəyyən edildikdə daha inandırıcı olur. Bu baxımdan I sinifdə məsələdə münasib verilənlər, şagirdlərin həyatından, sinfin fəaliyyətindən, şəxsi əməyin, oyunun nəticəsindən, eləcə də şagirdin gündəlik tələbatından olduqda məsələlərin maraqlılığı artır.



II sinifdə praktik məzmunlu məsələlərin tərtibində sinfin və məktəbin fəaliyyətindən, həyatdan götürülmüş ədədlərdən istifadə olunması vacibdir.

III sinifdə praktik məzmunlu məsələlərin tərtibində eləcə də süjetində ədədi verilənləri şagird təşkilatının fəaliyyətindən, əməklərinin nəticəsindən istifadə etmək olar.

IV sinifdə məsələlər üçün yerli materiallardan, istehsal sahələrindən, nəhəng zavod və fabriklərin istehsalından, doğma diyarın əhatəsində yerləşən digər fermer sahələrindən götürülmüş ədədlərdən istifadə etmək olar.

Bu və ya digər sahələrdən əldə edilmiş verilənlərə görə, müəllim sinfin proqramına uyğun materialdan dərsdə istifadə edə bilər. Bu iş heç də müəllimə çətinlik gətirmir, çünki ədədi verilənlər onun əlinin altında olur, vacib hesab etdiyi məzmunda məsələ tərtib etməyə imkan verir. Bəzən də elə olur ki, alınan ədədlər üzərində əvvəlcədən müəyyən çevirmələr aparmaq lazım gəlir. Həmin ədədlərin bir hissəsi tam ədədlərdən, şagirdlərin bilik səviyyəsinə uyğun olmalıdır. Yəni faiz, onluq kəsr, kəmiyyətlərin kəsrlə ifadəsinin olması çətinlik yaradır.

Yerli materiallardan istifadə etməklə ibtidai siniflərdə praktik məzmunlu məsələ tərtib olunmasında verilənlərin (əldə olunan) məlumatların çevrilməsinin əhəmiyyəti böyükdür. Bunu bir nümunə əsasında şərh edək:

Tutaq ki, müəllim şagirdlərə belə bir məsələ təklif edir. «Respublika stadionundakı üzgüçülük hovuzunun uzunluğu 50 m, eni 22 m-dir. Tullanma vannasının uzunluğu 25 m, eni isə 22 m-dir. Üzgüçülük hovuzunun sahəsi, tullanma vannasının sahəsindən nə qədər çoxdur?» Məsələ şagirdlər üçün maraqlı olur.

Məsələnin tərtibi məqsədilə ədədi verilənlərə əlavə verilənlər də daxil etmək olar. Praktik məzmunlu məsələlərin tərtibində bəzi verilənləri ixtiyari seçmək mümkündür. Bunun üçün hazırlıq işləri aparılmalıdır.

İbtidai siniflərdə riyaziyyatın tədrisinin əsas sahələrindən biri məsələ tərtibi və onun həllinin öyrədilməsidir. Riyaziyyat dərslərində həll olunan məsələlərin təlim-tərbiyə əhəmiyyəti də müəllimlərə aydındır. Məsələ tərtibi vasitəsilə şagirdlər riyaziyyatın tədrisi prosesində öyrəndikləri qayda və qanunları təcrübədə, həyatda tətbiq etməyə alışırlar. Onlar hesab, cəbr, həndəsə materialı ilə də tanış olduqlarından riyaziyyatın həyatda oynadığı rolu dərk edə bilirlər. Digər tərəfdən şagirdlər məsələ həll etdikcə konkret kəmiyyətlər arasında mövcud olan qanunauyğunluqları müəyyən etməyi öyrənirlər. Onlar məsələnin suallarına cavab tapmaqdan ötəri məlumlar və bunların üzərində aparılan əməlləri seçərkən məntiqi nəticələr çıxarmağa məcbur olur; bunun nəticədə onların riyazi düşüncələri inkişaf edir və elmi dünyagörüşü dairələri genişlənir. Hesab məsələləri şagirdlərin müstəqil işləmələri üçün bir materialdır. Bu mAterial şagirdlərin elmə olan marağını artırır və onların idrak fəaliyyətini fəallaşdırır. Şagirdlər riyaziyyat məsələləri vasitəsilə həyati hadisələri öyrənir, istehsal sahələri ilə müəyyən dərəcədə tanış olurlar.

Belə böyük imkana, əhəmiyyətə malik olan məsələlərin həlli riyaziyyatın tədrisi prosesində yüksək keyfiyyətlə öyrədilməli, həmçinin şagirdlərdə məsələ həlli bacarığını tərbiyə etməlidir. Bu məqsədə nail olmaq üçün məsələ tərtib etmək bacarığına yiyələnmiş müəllim, həm də məsələ həlli metodikasına bələd olmalı, tədris prosesində təlim texnologiyasından məharətlə istifadə etməlidir. Bu sahədə özünü göstərən qüsurlara səbəb müəllimlərin iş metodlarındakı yeknəsəqlikdir.

Məsələ tərtib etmək, şagirdlərdə məsələ həll etmək bacarığının vərdiş halına düşməsinə əhəmiyyətli dərəcədə kömək göstərir. Məhz buna görə də hesab tədrisində şagirdlərə məsələ tərtib etmək bacarığı öyrədilməlidir. Şübhəsiz ki, şagirdlərin iştirakı ilə tərtib edilmiş hər hansı məsələni onlar müstəqil daha yaxşı həll edə bilərlər, çünki şagirdlər məsələnin tərtib edilməsi prosesində bilavasitə öz fikri fəaliyyətləri ilə iştirak etdiklərindən belə məsələlərin məzmununu daha şüurlu dərk edirlər. Məsələnin məzmununun daha yaxşı başa düşülməsi onun həllini təmin edən əsas şərtlərdən biridir.

İbtidai siniflərdə praktik məzmunlu məsələlərin tərtibi müxtəlif yollarla aparıla bilər. Bu yollardan biri, məchulu və məlumları şəkil vasitəsilə təsvir edilmiş əyani vasaitlər əsasında məsələ tərtib etdirməkdir. Bu yoldan ibtidai siniflərdə, xüsusilə I və II siniflərdə çox istifadə edilməlidir. Təcrübədə həmin məqsədlə şəkillər hazırlayarkən, onların məzmununu şagirdlərə tanış olan mühitdən götürürük.

Əyani vəsaitin hazırlanmasında bu cəhətin nəzərə alınması, məsələ tərtib etdirmək işini xeyli asanlaşdırır. Nəzərə alınacaq ikinci cəhət, obrazın şəkil vasitəsilə təsvir edilmiş əşyanın real məzmununa müvafiq olmasıdır,çünki şəkil əşyanın real məzmununu nə qədər düzgün təsvir edərsə, o, şagirdin zövqünə bir o qədər keyfiyyətli təsir göstərər. Bu isə öz növbəsində şagirdin marağının artmasına və diqqətinin cəlb edilməsinə müsbət təsir bağışlayır. Məlum mənbədən istifadə etdiyimiz aşağıdakı məsələni şagirdlərə tərtib etdirmək üçün şəkil hazırlayırıq.

*Məsələ*. Bir qarpızın kütləsi 2 kq-dır. Bu cür 3 qarpızın kütləsi nə qədər olar?

Bunun üçün kağızın bir tərəfində bir qarpız şəkli çəkib, onun altında 2 kq yazırıq, kagızın o biri (sağ) tərəfində 3 qarpız şəkli çəkib bunların altında sual işarəsi qoyuruq. Bu şəklə aid bir neçə sual-cavab aparmaqla yuxarıdakı məsələni şagirdlər asanlıqla tərtib edir, həllini də asanlıqla aparırlar.

Müəllim bu şəkli hazırlayarkən nəzərə almalıdır ki, qarpızların dördünün də şəkli eyni ölçüdə çəkilməlidir, çünki qarpızın birinin böyük ikisinin isə kiçik ölçüdə çəkmək işi çətinləşdirə bilər. Belə ki, kiçik qarpızın çəkicə yüngül olmasını şagird real mühitdən bilir. Digər tərəfdən qarpızın şəkli mümkün qədər qarpızın özünə oxşamalıdır. Yekun olaraq qarpızın çəkisi üçün müəyyən edilmiş kəmiyyət ölçüsü real seçilmişdir.

Praktik məzmunlu məsələ tərtib etdirməyin digər yolu, həll edilmiş məsələdə verilmiş məlumatların başqa məlumatlarla əvəz etdirilməsidir.

Müşahidə apardığımız məktəbdə müəllim aşağıdakı məsələni dərsdə həll etdirdi.

«Bufetə birinci gün 5 bidon, ikinci gün isə 9 bidon süd gətirmişdilər. İkinci gün birinci gündəkindən 20 l artıq süd gətirmişdilər. Bufetə birinci gün neçə litr süd gətirilmişdir?»

Müəllim məsələni III sinifdə planla həll etdirdi.

1) Bufetə ikinci gün birinci gündəkindən artıq neçə bidon süd gətirilmişdi?

9 b. - 5 b.=4 b

2) Hər bidonda neçə litr süd gətirilmişdir?

20 l : 4 = 5

3) Bufetə birinci gün neçə litr süd gətirilmişdir?

5 . 5 = 25

Cavab: Bufetə birinci gün 25 litr süd gətirilmişdir.

Məsələnin həllindən sonra müəllim bu məsələdə verilənləri başqa ədədlərlə əvəz etdirmək yolu ilə məsələ də tərtib etdirdi. Belə olduqda məsələnin məzmununa dəyişiklik əmələ gəlmir, məlumatlar dəyişdirilir. Şagirdlər də fəallıq göstərirlər. Onlar çalışırlar ki, hər birinin tərtib etdiyi məsələ qəbul olunsun. Məsələ tərtib etdirməyin bu üsulundan istifadə etməyin başlıca əhəmiyyəti ondadır ki, belə təlim prosesində şagirdlər məsələ üçün real məlumlar seçmək bacarığına yiyələnirlər. Şagirdlərdə belə bacarığın yaranması gələcəkdə onların dolğun məzmunlu, real, həyati və düzgün məsələlər tərtib edə bilmələri üçün möhkəm bünövrə qoyulur.

Praktik məzmunlu məsələ tərtib etdirməyin digər yolu, həll edilən məsələnin formasında dəyişiklik əmələ gətirmədən, onu məzmunca dəyişməkdir. Məsələnin formasında dəyişiklik əmələ gətirmək, dedikdə bu nəzərdə tutulur ki, verilən məsələnin həllindəki sualların sayı və işlədilən əməllər dəyişməməlidir.

Şərh olunan materiallara əsasən, deyə bilərik ki, praktik məzmunlu məsələ tərtib etmək, həmçinin onu həll etməyi bacarmaq üçün şagirddə həvəs, cəhd, inam, iradə olmalıdır. Bundan başqa məsələni tam dərk etmək lazımdır ki, məsələnin həlli yolunu müəyyən edən şagirdin təlimə marağı artsın.

Ədəbiyyat

1. Həmidov S.S. Məktəbin ibtidai siniflərdə riyaziyyatın tədrisi metodikası, Bakı, 2006.

2. Mehrabov A.O. və b. Pedaqoji texnologiyalar, Bakı, 2006.

3. Истомина Н.Б., Методика обучения математика в начыльных классах. Учебное пособие, М., 2002.

4. Я уду на урок в начальную школу; Книга для учителя, Москва, 2000. (Составител М.А.Козлова).

Из опыта организации работы по внедрению задач
практического содержания
Резюме

Сюжет математических задач практического содержания становится для учашихся более убедительным, если цифровых данные определяются им самими. Составление в начальных классах практического содержания задач в связи с трудом, использование в этом процессе местных материалов повышает интерес учашихся к математика и активизирует их познавательнуя деятельность.

В статье указаны также некоторые способы составления задач практического содержания.

## İBTİDAİ SİNİFLƏRDƏ MUSİQİ TƏLİMİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİNƏ YENİ BAXIŞ

**Oqtay RƏCƏBOV,**
pedaqoji elmlər doktoru, professor,

**Rəna QULİYEVA,**
Azərbaycan Müəllimlər İnstitutunun metodisti

Didaktikada «təlim məqsədi»nə müxtəlif istiqamətdə yanaşmalar mövcuddur. Bizim təqdim etdiyimiz və araşdırdığımız elmi işdə tədris fənninin məqsədi xarakterizə olunur. Pedaqoji elmin ümumi nəzəriyyəsinə görə təlimin əsas məqsədi bəşəriyyətin sosial və mənəvi təcrübəsinin böyüməkdə olan nəsl tərəfindən mənimsənilməsidir.

Müasir didaktikada fənnin əsaslandırılmasına xüsusi yanaşmalar mövcuddur:

- müəyyən fənnə uyğun gələn elmin, yaxud incəsənətin (musiqinin, musiqişünaslığın) araşdırılması;
- şagird şəxsiyyətinin pedaqoji-psixoloji nəzərə alınması;
- fənnin məqsədinə ümumi didaktikada öz əksini tapmış, təlim prosesinin qanunauyğunluqları prizmasından baxılması.

**<u>I. Musiqi təlimin məqsədinin nəzəri əsaslandırılması.</u>**

Musiqi təliminin əsasını müasir musiqi elmində formalaşdırılmış musiqi mədəniyyəti haqqında anlayışlar təşkil edir. Rus musiqi nəzəriyyəçisi L.A.Mazelin dediyinə görə musiqi elmi uzun müddət musiqinin differensiyasına, texnoloji təhlilinə yönəldilmişdi ki, məhz bu səbəbdən musiqi bilikləri musiqi mədəniyyətinin tələblərinə tam cavab verə bilmirdi.

Son 10-20 ildə bütün dünyada, o cümlədən Azərbaycanda musiqi təlimi musiqi tərbiyəsi, musiqi estetikası sahələrində aparılan fundamental elmi tədqiqatlarında musiqi biliklərinin inteqrasiyasında keyfiyyətcə sıçrayışlar olmuşdur.

Musiqi estetikasında «musiqi mədəniyyəti» anlayışı öz əksini tapıb:

«Cəmiyyətin musiqi mədəniyyətini musiqinin və onun sosial mədəniyyətinin vəhdəti təşkil edir. Bu mürəkkəb sistemə aşağıdakılar daxildir:

- müəyyən sistemin yaratdığı və qoruduğu musiqi dəyərləri;

- musiqi fəaliyyəti növlərinin onların bilikləri, bacarıq və vərdişləri, eyni zamanda digər keyfiyyətləri ilə birlikdə uğurunu təmin etməsi»[1].

Musiqi mədəniyyətində əsas yeri cəmiyyət tərəfindən toplanmış incəsənət dəyərləri tutur. Şəxsiyyətin musiqi mədəniyyəti isə insanın bu dəyərləri mənimsəmə dərəcəsi ilə xarakterizə olunur. Musiqi pedaqogikasında musiqi mədəniyyəti anlayışına bu cür yanaşma çox vacibdir, belə ki, bu yanaşma musiqi mədəniyyətinin məzmununu, formasını və insana təsirini açıxlaya bilir.

Musiqi estetikası musiqiyə reallığın bədii inikasının spesifik forması kimi baxır. Onun məzmununun əsasını müxtəlif həyat hadisələri, insanın mənəvi-daxili aləmi, təbiət hadisələri təşkil edir. Bədii əsərlərin mənəvi dəyərləri sosial hadisə kimi müasir ideya-estetik mənası ilə müəyyən edilir: xəlqiliyi, realizmi və demokratizmi, sosial və bədii ümumiləşdirmələri, vətənpərvərliyi və bəşəriliyi.

Musiqi mədəniyyətinin ən yüksək dəyərlərini musiqi klassiklərinin əsərləri, xalq musiqi nümunələri, müasir milli və xarici ölkə bəstəkarlarının əsərləri təşkil edir. Musiqi təkcə həyatın əksi deyil, eyni zamanda insanların ünsiyyət formasıdır (B.V. Asafyev, A.N. Soxor, L.A. Mazel və başqaları). Bu kommunikativ fəaliyyət növü musiqi fəaliyyətlərinin bəstəkar yaradıcılığı, musiqi ifaçılığı, musiqi qavrama prosesində özünü göstərir.

Göründüyü kimi, burada musiqinin qavranılmasının sosial funksiyasına xüsusi yer ayrılır. «Musiqi qavranılması» dedikdə, musiqi əsərlərinin mənən-rühən mənimsənilməsi nəzərdə tutulur.

Musiqi pedaqogikası üçün musiqi nəzəriyyəçilərinin səs vasitələrinə (lad, metroritm, harmoniya, temp və s.) musiqi əsərlərinin sosial məzmununun səviyyəsini müəyyən edən faktor kimi qəbul etmələrinin böyük əhəmiyyəti vardır.

Musiqi təliminin məqsədinin əsasını belə müəyyən etmək olar:

- Musiqi incəsənəti sosial hadisə olub, böyüməkdə olan gənc nəslin inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

- Musiqi mədəniyyətinin məzmunun yaradıcı əsasını klassik musiqi, xalq incəsənət nümunələri və müasir musiqi təşkil edir.

**<u>2. Musiqi təliminin məqsədinin psixoloji əsaslandırılması.</u>**

Musiqi təliminin (musiqi mədəniyyətinin) məzmununa müasir şagirdin şəxsiyyətyönümlü inkişafına onun psixi imkanları baxımından nəzər yetirək.

Bütün fənlərin tədrisi prosesində olduğu kimi, «Musiqi» fənninin tədrisi prosesində də müəllim öyrətmək məqsədilə fəaliyyət göstərir kiçikyaşlı məktəbli isə müəllimin rəhbərliyi altında öz musiqi mədəniyyətinin yaranması və inkişaf etdirilməsi prosesində fəal iştirak edir, nəticədə onlarda müəyyən şəxsiyyət keyfiyyətləri formalaşır.

Bununla əlaqədar iki sual qarşıya çıxır:

1. Musiqi mədəniyyətinin məzmunu hansı formmada verilməlidir ki, şagird onu başa düşsün, o şagirdin psixi imkanlarına cavab versin, onun şəxsiyyət kimi formalaşmasına təsir göstərsin?

2. Musiqi mədəniyyətinə yiyələnmiş şagirddə hansı keyfiyyətlər formalaşdırılmalıdır?

---

[1] Сохор. А.Н. «Музыкальная культура общества». «Вопросы социологии и эстетики музыки». Л. 1980, стр.1.

Şagirdlərin psixi imkanlarına onun şəxsiyyətyönümlü inkişafının potensialını və eyni zamanda pedaqoji nəticələrini nəzərə alaraq baxmaq lazımdır. Əgər qoyulmuş məqsəd qarşısında sosial tələblər, şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınarsa, onda musiqi təlimi bu inkişafı nəinki qabaqlayacaq, eyni zamanda inkişafın düzgün istiqamətə yönəlməsinə kömək göstərə biləcəkdir. Bu cür yanaşma şagirdlərin musiqi mədəniyyətinə yiyələnmələri prosesində psixi imkanlarını öyrənərkən xüsusi əhəmiyyətə malikdir.

Məktəblilərin psixi imkanları probleminə müasir tələblər baxımından nəzər yetirsək, görərik ki, müasir məktəblərimizin yaşadığı real ictimai şəraiti və inkişafı nəzərə almaq lazımdır. Həmin şəraitə şəxsiyyətin psixi inkişafına kömək edən imkanlar kimi baxılmalıdır. Bu vəziyyət, bir tərəfdən şagirdin musiqi mədəniyyətinin mənimsənilməsi prosesində böyük sosial təcrübənin rolunu, digər tərəfdən musiqinin məzmununun həyati rolunu təsdiq edir.

Müstəqillik şəraitində inkişaf edən məktəblilərin mənəvi psixi simasına nəzər yetirsək görərik ki, dövlətin hər şeyi elmi-texniki inkişafa yönəltdiyi bir şəraitdə şəxsiyyətin intellektual keyfiyyətlərə malik olması çox vacibdir.

Müasir məktəblinin son dövrlərdə intellektual keyfiyyətləri diqqətə çatacaq dərəcədə inkişaf etmişdir. Kiçikyaşlı məktəblilərin intellektual imkanları o dərəcəyə çatmışdır ki, görkəmli psixoloqlar artıq təlimin ilk mərhələlərindən elmin əsaslarını öyrənməyi, mənimsəməyi məsləhət görmüşlər (D.B. Elkonin, B.B.Davıdov və s.).

Bu imkan verir ki, şagirdlərin musiqi mədəniyyətinin formalaşması prosesində musiqi biliklərinin verilməsi tələblərinə yenidən nəzər yetirilsin. Proqram materialını qurdıqda müəllim şagirdlərin intellektual inkişafının dinamikasını və bu inkişafın müxtəlif mərhələlərində istifadə edilən bilikləri mütləq nəzərə almalıdır.

Təlimin birinci pilləsində vacibdir ki, biliklər şagirdlərin həyat təcrübəsi vəhdətdə fənnin məzmununun mənimsənilməsinə kömək etsin. Digər pillədə bu biliklər qavrama fəaliyyəti prosesində bir növ bünövrə olmalıdır. İntellektual inkişafın daha yüksək mərhələsində bu biliklər, hadisə və qanunauyğunluqlar sosial dəyərlənmə ilə nəticələnməlidir.

Şagirdin emosional sferası onun daxili-mənəvi aləmdə çox böyük yer tutur ki, bu da onun ətraf aləmlə münasibətində, yeniliyi öyrənməyə can atdıqda, fəal təlim prosesində və s. özünü göstərir (S.L.Rubinşteyn, B.İ. Dodonov. D.B. Kabalevski, Y.Əliyev, O.M. Rəcəbov, S.Quliyev və başqaları).

Musiqi pedaqoqikasında şagirdlərin emosional həyatının xüsusiyyətlərini bilmək ona görə vacibdir ki, emosional şəraitdə şəxsiyyətin ideya-mənəvi keyfiyyətləri təbii ifadə olunur və inkişaf edir.

Müasir psixologiya-pedaqogika elmində uşağın emosional inkişafının yaş dinamikasına xüsusi diqqət yetirilir. Bununla əlaqədar şagirdin emosional həyatını xarakterizə edən üç əsas mərhələ nəzərdə tutulur. Təlimin birinci pilləsi şagirdlər üçün dərs prosesi ilə canlı maraqlanma ilə xarakterizə olunur. Digər pillə şagirdin emosional inkişafı onun yaşıdları ilə fəal əlaqə yaratmağa və onların daxili-mənəvi həyatlarına yaxınlaşmağa cəhd göstərməsi ilə xarakterizə olunur. Daha yüksək inkişafda emosional-dəyərləndirmə funksiyası-yəni əxlaqın və ünsiyyətin sosial normalarını mənimsəməyə cəhd etməsi özünü qabarıq şəkildə göstərir.

Şəxsiyyətin emosional və şüurlu inkişafının vəhdəti xüsusi əhəmiyyət kəsb edir ki, bunun nəticəsində təlim fənlərinin, o cümlədən incəsənət fənlərinin

məzmununun mənimsənilməsi prosesində şagirdlərin psixoloji imkanlarının artmasında özünü biruzə verir.

«Musiqi» fənni anlayışı özündə məktəblilərin musiqi qabiliyyətlərini birləşdirir. Musiqi qabiliyyəti anlayışı geniş və dar mənada bir-birindən fərqlənir. Birinci, musiqinin emosional sferasında və obrazlı-intonasiya səmtində olan qabiliyyətlər, ikinci, musiqinin akustik sferasında səmtləşmiş qabiliyyətlər. Musiqi qavranması prosesində musiqi qabiliyyətləri əsərlərin obrazlı-məzmunlu cəhətləri ilə əlaqədar olur. Problemə bu cür yanaşılmasını musiqi qabiliyyətlərinin inkişafına məktəblilərin musiqi mədəniyyətinin formalaşmasında bir açar, bir yol hesab etmək olar.

Musiqi qabiliyyətlərinə belə münasibət şagirdlərdə bu qabiliyyətlərin intensiv inkişafına səbəb ola bilər. Bunun üçün aşağıdakı şərtlərə riayət olunmalıdır: birinci, musiqinin həyatla fəal əlaqə yaradılması; ikinci, görmə, duyma və hərəkətlərlə əlaqədar qabiliyyətlərin musiqi eşitmə ilə əlaqəsinin yaradılması; üçüncü, musiqi qabiliyyətlərin ümumiləşmiş nəticəsi olan melodik eşitmə qabiliyyətinin inkişaf etdirilməsi; dördüncü, musiqi qavranılması prosesinə musiqi biliklərinin daxil edilməsi.

Musiqi mədəniyyətinin mənimsənilmə prosesində musiqiyə tələbat şəxsiyyətin inkişafı səviyyəsini xarakterizə edir. Musiqiyə tələbat-şagirdlərin musiqi incəsənətinə müsbət və daimi münasibəti deməkdir. Bu, iki formada özünü göstərə bilir: mənəvi dəyərlərin, musiqi əsərlərinin mənimsənilməsi kimi və musiqi fəaliyyətində olan tələbat.

Şəxsiyyətin musiqi inkişafının ilk mərhələsində musiqi insanın hisslərini, əhval-ruhiyyəsini, musiqi obrazlarını ifadə etdirir. Sonrakı mərhələdə, artıq musiqi dili mənimsənildikdən sonra, şəxsiyyətin musiqiyə münasibəti ümumiləşmiş halda olur.

Musiqiyə tələbatın daha yüksək mərhələsində estetik biliklərin musiqi qavranılması prosesinə tətbiqi nəzərə çarpır və şagird qəbul edilmiş meyarlara istinad edərək incəsənət dəyərlərinə öz şəxsi münasibətini bildirir. Musiqiyə tələbat təbii olaraq estetik zövq ilə əlaqədardır.

İncəsənət əsərlərinin dəyərləndirilməsinin əsasını ümumiləşmiş musiqi bilikləri təşkil edir. Bunlar şagirddə musiqi təcrübəsinin inkişafına, incəsənətə münasibətin yaranmasına və bütövlükdə onun musiqi aləminə münasibətinə öz müsbət təsirini göstərir. Əgər müasir şagirdin psixi inkişafının xüsusiyyətlərini musiqi incəsənətinin inkişaf xüsusiyyətləri ilə müqayisə etsək, bir neçə prinsipial müddəalar formalaşdırmaq mümkündür.

- Şəxsiyyətin sosial təbiəti haqqındakı psixoloji anlayış, musiqi incəsənətində ictimai faktorun rolu haqqında musiqi-estetik anlayışda olduğu kimi psixoloji və musiqi elmlərinin vahidliyini əks etdirir.
- Şagirdlərin musiqi niqavramaları prosesi onların musiqi inkişafının əsasına təşkil edir.
- Müasir psixologiya musiqinin emosional qavranılmasını təfəkkürlə vəhdətdə götürür.
- Emosionallıq və şüurluluğun vəhdəti musiqi incəsənətinin əsasını təşkil edir.
- Uşaq şəxsiyyətinin inkişafında emosiyalar onların həyatındakı hadisələrin dəyərləndirilməsi kimi büruzə verilir.
- Musiqidə də müxtəlif emosiyalar ifadə olunur. Bu emosiyalar yaradılan əsərdə sənətkarın həyatı hadisələrə münasibətini, onun ideya mövqeyini ifadə edirlər.
- Musiqiyə, estetik zövqə tələbatın inkişafı musiqinin tərbiyəvi əhəmiyyəti ilə sıx əlaqədə olub, insanın psixikasına öz təsirini göstərir.

Bütün bunlar bir daha sübut edir ki, musiqi insanın, bütövlükdə nəslin psixikasına hərtərəfli müsbət təsir göstərir və onun tərbiyəsində emosional atmosferin yaradılmasının rolu böyükdür.

3. Musiqi təliminin vəzifələri

Müasir didaktikda təlim fənninin aparıcı vəzifələr səviyyəsində konkretləşdirməyi tələb edir. Bu, şagirdlər tərəfindən dərs materialının mənimsənilməsi prosesində müəllimin rəhbərliyinin daha effektli olmasının zəruriliyini göstərir.

XX əsrin əvvəlində dünya miqyasında yaradılan musiqi təlimi konsepsiyalarına istinadən musiqi təliminin üç əsas vəzifələrini qeyd etmək lazımdır: musiqiyə emosional, şüurlu, fəal, praktik münasibətin formalaşdırılması. Bütün bunlar musiqinin qavranılmasının inkişaf prosesində həyata keçə bilər. Məhz bu vəzifələrin həyata keçirilməsi prosesində şagird şəxsiyyət kimi inkişaf edə bilər.

1-ci pedaqoji vəzifə-musiqinin qavranılmasına əsaslanaraq şagirddə musiqiyə emosional münasibətin formalaşdırılması. Musiqiyə emosional həssaslıq, musiqi hissiyatı, musiqi aləminə emosional yanaşma; biliklərin mənimsənilməsinə bacarıq və vərdişlərə yiyələnməyə, musiqini dinləməyə və onu ifa etməyə, musiqinin həyatla əlaqələrini göstərməyə maraq oyatmaq üçün fəal cəhd göstərmək keyfiyyətinin şagirddə inkişaf etdirməyin əhəmiyyəti böyükdür.

2-ci pedaqoji vəzifə-musiqiyə şüurlu münasibətin formalaşdırılması. Şagirdin aşağıda göstərilən keyfiyyətləri əldə etməsi vacibdir: musiqi əsərlərinin şüurlu qavrama təcrübəsi; musiqi biliklərini tətbiq etmək bacarığı; təkcə musiqini hiss etmək deyil, eyni zamanda əsərdəki obrazların xarakterini onların inkişaf məntiqini, əsərin ideya əsasını, onun məzmununun həyatiliyini başa düşmək. Bu vəzifənin həyata keçirilməsi məktəblilərdə bədii təfəkkürün formalaşmasından, yeni situasiyalarda əldə edilmiş bilikləri sərbəst tətbiq edə bilmək bacarığından asılıdır

3-cü pedaqoji vəzifə-musiqiyə fəal-praktik münasibətin ifaçılıq (xorla oxuma, musiqi alətlərində çalma və s.) prosesində formalaşdırılması. Bu vəzifənin həyata keçirilməsi musiqi qavrama prosesində musiqi-eşitmə, ifaçılıq vərdişlərinin inkişafı ilə sıx əlaqədədir. Onların vəhdəti musiqi mədəniyyətinin formalaşmasına təkan verir.

Təcrübədə vəzifələrin üçü də sıx əlaqədədir, lakin onları həyata keçirərkən müəllim bilməlidir ki, şagirdlərin musiqi inkişafı, musiqi təcrübəsinin toplaması, musiqi biliklərini tətbiq edə bilməsi, yaradıcılıq prosesində fəal iştirak ümumi bir məqsədə, musiqi mədəniyyətinin formalaşmasına, son nəticədə şəxsiyyətyönümlü insan yetişdirməyə qulluq edir.

## DİALOQ – DİSKUSSİYA HAQQINDA

**Leyla MUSTAFAYEVA,**
Bakı Məktəbəqədər Pedaqoji texnikumun müəllimi

Təlim-tərbiyə priyomu kimi evristik müsahibə dünyaya səs salanda, fəallıq yaradan sual-cavaba üstünlük veriləndədiskussiyadan, dialoqdan geniş istifadə olunurdu. Bu metod indi daha çox aktuallıq kəsb etmişdir və bu aktuallıq son illərin metodik təfəkkürünün yetirməsidir.

Diskussiya geniş fəlsəfi anlayış olub, idrakın da, təlimin də metodu kimi həqiqəti üzə çıxarmağa yönəlir, lakin diskussiyadan məqsəd məlum həqiqətlərin yolunu göstərmək deyil, naməlumu düşüncə müstəvisinə çıxarmaqdır. Hər məsələdə onun köməyinə ehtiyac yoxdur. Cavabı açıq qalan məsələlərdə tətbiq edilməlidir. Düzgün cavabı hikmət sahibləri bilsələr də, elmi bilikləri səhvsiz qavramaq istəyənlər üçün, «on elmi birtərəfli yox, bir elmi ontərəfli öyrənmək» (Pestalotsi) istəyənlər üçün qiymətli olan metod sayılır. Diskussiyada alim mədəniyyəti özünü büruzə verir. Burada «Bizə görə» «mənim fikrimcə», «bizə elə gəlir ki», «səhv etmirəmsə», «bizim nöqteyi-nəzərimizcə» və s. kimi ifadələrlə fikir yürüdülür, arqumentlər, sübutlar gətirilir, hökmlər verilir, nəticələr çıxarılır.

İstər naməlumu tapmaqda, istərsə də məlumu dərindən qavramaqda ideyalar bəhsləşməsinə adi danışıq dili ilə desək, höcətləşməyə) ehtiyac yaranır. Əgər Nizaminin «İsgərdərnamə»sində yeddi alim nəfs, göz dəymə, hər şeyin sonu və sonsuzluq haqqında həm yazıları ilə, həm də bir məclisə yığışaraq mübahisə açırlarsa, deməli, həqiqət məhz şifahi diskussiyalarda qəbul edilmiş olur.

Dialoq həqiqətin iki və ya daha çox şəxs tərəfindən, eyni zamanda kollektiv tərəfindən axtarışı metodu kimi səciyyəvi olub, həm təlim, həm də tərbiyə üsulu kimi tətbiq edilir. Tərbiyələndirici təlim prosesində isə bu metod hər iki funksiyanı eyni vaxtda yerinə yetirməyə imkan verir. Fərqi yoxdur; istər təlim, istər tərbiyə prosesi olsun, şərt diskussiyaya səbəb olacaq ziddiyyəti tapmaqdır. Ziddiyyətin tapılması isə problemin aşkar edilməsi deməkdir. Problemli situasiya, yəni şərait müəyyənləşmişsə, diskussiya ən aktual metod kimi tətbiq edilə bilər.

Pedaqoji elmlər doktoru, professor Zahid Qaralov bu metodun bugünkü təhsili qurmaqda rolundan bəhs edərək yazır: «Əgər müəllim sinifdə və ya sinifdənxaric məşğələlərdə bir hadisəni öyrətmək istəyərkən ziddiyyət tapırsa, dialoq metodunu tətbiq edir. Ziddiyyətlərdən çıxışı şagird kollektivi müstəqil axtarır» (Qaralov Z.İ, Tərbiyə (prinsiplər, məzmun, metodik, hüquq) III cild. Bakı, Pedaqogika, 2003, s. 103.) Ziddiyyət elmi bilikləri mənimsəməyə, tərbiyənin problemini həll olunmağa doğru yönəltməyə təhrik edən başlıca amildir. Onu motivasiya kimi, yəni insanı fəaliyyətə təhrik edən qüvvə kimi dəyərləndirmək lazımdır. Həmin qüvvənin təsiri altında qarşıdakı ziddiyyəti və ya problemi həll etmək lazım gəlir, ancaq o da mümkündür ki, dialoqa qoşulan şagirdlər səhvlərə yol verə bilərlər; bu zaman onlar bir- birinə kömək göstərməklə səhvlərini də özləri düzəldərlər. Ola da bilər ki, mülәlim kollektivin işinə müdaxilə etməsin. Yaxıd o da mümkündür ki, ziddiyyətdən çıxış nəzərdə tutulan vaxtda tapılmAsın. Onda həmin iş sonrakı məşğələlərdə davam etdirilə bilər. Maraqlı məsələlər olanda şagirdlər tənəffüsdə də dialoqu böyük həvəslə davam etdirirlər. Bu proses həqiqət üzə çıxarılana qədər şagirdlərin təfəkkürünü fəal saxlayır.

İbtidai siniflərdə dialoq qurmağın özünəməxsus cəhətləri var. Onun məqsədi, məzmunu və ya strukturu bir-birinə yaxın olmaqla aparılma formaları da hər bir fənn üzrə bilik, bacarıq və vərdişlərə yiyələnmə sferalarını əhatə etmiş olur. Müəllimlərimizi bu metoda yiyələndirmək ibtidai riyaziyyatın tədrisi ilə bağlı sadə məzmunlu ziddiyyətləri araşdırmaq, onları müstəqil şəkildə aradan qaldırmaq vərdişi aşılamaq məqsədilə son illərdə ixtisas jurnalımızda məqalələrin dərc olunması təqdirəlayiqdir. Biz bu köməyi yüksək qiymətləndiririk.

Onu da qeyd etmək lazımdır ki, riyaziyyatdan məsələlərin qurulması və həlli yollarının tapılmasında şagirdlərin fikri fəallığını gücləndirmək diskussiyaya geniş imkanlar verir. Bununla belə, riyazi məntiqi təfəkkürü inkişaf etdirmək humanitar məntiqi üstələməli deyil. Tərbiyəvi xarakterdə olan dialoq-diskussiyalar ana dili tədrisində daha geniş panoramda meydana çıxarılmalıdır. Bu baxımdan oxu dərslərinin didaktik imkanlarına biganə qalmaq olmaz.

Hazırda I-IV sinif oxu dərsliklərindəki mətnlərin məzmun təhlili və tərbiyəedici xarakterindən çıxış edərək dialoq-diskussiya nümunələri göstərməyi qarşıya məqsəd qoymağımız da elə bununla əlaqədardır.

Əvvəla, onu qeyd edək ki, dialoq - diskussiyanı ana dili müəllimlərinin təcrübəsi üçün yeni hesab etmək düzgün olmaz, çünki oxu mətnləri üzərində məzmunun dərk edilməsi prosesi həmişə etik-əxlaqi sual-cavablarla, başqa sözlə, müsahibə yolu ilə aparılır. Bu müsahibə, hətta evristikliyi ilə sistem xarakteri də daşıya bilir. İndiki vaxtda tərbiyəediciliyin funksiyası hadisələri, əhvalatlar haqqında informativliyi ön plana çıxarmaq deyil, başlıca məqsəd münasibət bildirmək olduğundan vəzifə şagirdin hadisələrə münasibətini, konkret qənaət hasil edə bilməsini üzə çıxarır.

Hadisəni, məzmunu mənimsəmək, bir növ vasitədir. Deməli, təlim prosesi indi də aktual vasitəyə çevrilmiş olur. Məqsəd-həqiqəti dərk etdirməkdir. Bəs müəllimlərimiz bu vəzifənin öhdəsindən layiqincə gələ bilərlərmi? Dərslərini müşahidə etdiyimiz müəllimlərlə söhbətlərdən bu qənaətə gəldik ki, onlar həqiqətən də ziddiyyətli məqamların toqquşmasını ehtiva edən əsərlərdə «Bəs siz necə edərdiniz?», «O doğrumu hərəkət etdi?», «Necə olmalı idi?», «Niyə belə hərəkət etmək olmaz», «Necə düşünürsünüz?» və s. kimi suallar diskussiyalara meydan açmış olur.

III sinifdə M.Ə. Sabirin «Uşaq və pul», «Günəş və külək» və ya digər bir mətnin - «Ətirli ləçək» hekayəsinin oxusundan sonra qabaqcıl müəllimlər məzmunu olduğu kimi mənimsədir, bu zaman problematik suallar qoyub, ziddiyyətlər formalaşdıraraq diskussiya-dialoq üçün geniş meydan açırlar. Onlardan bəzilərinin fraqmental da olsa, təsvirini verməyə çalışaq.

«İnsana, sizcə, günəş ya külək daha çox vacibdir?»

Əvvəlcə onu qeyd edək ki, bu sual üzrə işin icrası üç mərhələdən keçir. Belə ki, sinif ya üç qrupa bölünərək yarışır, ya da fərdi yolla, yəni tək-tək cavablar dinlənilir. Müəllim bu tədbirlərdə koordinator rolunu oynayır və nəticələri ümumiləşdirilməsi ilə məşğul olur.

İndi də mərhələləri nəzərdən keçirək:

1) Tapşırığın icra şərtinin düşündürmə, dərk olunma məsələləri zamanı müəllim xırda alqoritmik suallardan istifadə edə bilər.

2) Cavabların hazırlanma mərhələsində fərdi-diferensial məsləhətləşmələr apara bilər.

3) Cavabların və ya fikirlərin dinlənilmə mərhələlərinin ümumiləşdirilməsi isə ya lider şagirdlər, ya da müəllim yerinə yetirə bilər.

Cavablar: 1-ci şagird: Günəş insana daha çox lazımdır, çünki günəş havanı qızdırmasa, adam soyuqdan donar.

2-ci şagird: Külək olmasa, insanlar istidən nəfəs ala bilməzlər. Gün onları vurar. Külək havanı təmizləyir və sərin saxlayır. Deməli, külək insana daha çox lazımdır.

3-cü şagird: Külək olmasa, gün insanı yandırar. Günəş də olmasa, külək havanı çox soyuq edər. Külək də lazımdır, günəş də. Onların hər ikisinin olması yaxşıdır.

Müəllim tərəfindən formalaşdırılan ümumi fikir belədir: Günəş qoymur ki, külək hər şeyi soyutsun, vurub uçursun; külək də qoymur ki, günəş yandırsın, külə döndərsin. Həyat üçün bunların hər ikisi lazımdır.

Belə elmi diskussiyanı bəzi müəllimlər nəinki ibtidai təhsilin son mərhələsində, hətta yuxarı sinifdə də apara bilərlər. O zaman şagirdlərdən çox dərin mənalı cavablar alınar. Bunun üçün diskussiyanın mövzusunu «Təbiətdə günəşin və küləyin rolu böyükdür» kimi aktuallaşdırmaq olar. Bu zaman çox maraqlı cavablar eşitmək mümkündür.

Qabaqcıl təcrübədə «Ətirli ləçək» hekayəsindən sonra qurulan diskussiya da maraq doğurur. Mətnin oxusundan və təhlilindən sonra müəllim hekayənin məzmunu üzrə suallar vasitəsilə hekayəni mənimsədir. Şagirdlər bu əhvalatı öz sözləri ilə danışırlar, lakin ləçəyin «Axı mən güllərin içərisində oluram, ona görə belə ətirliyəm» fikrinin məcazi mənasını dərk etmirlər. Odur ki, müəllim diskussiya – dialoq qurmaq üçün belə bir problemli sual formalaşdırır: «Dostların, yoldaşların adama təsiri olurmu?» Şagirdlər yenə də bu tapşırığı üç mərhələdə həll etməyə istiqamətləndirilir.

1-ci mərhələdə müsahibə ilə müəllim dostlar, yoldaşlarla güllər, çiçəklər arasında əlaqə yaradır.

2-ci mərhələdə müəllim bənzətmələri dərk etdirir.

3-cü mərhələdə cavabları dinləyib qiymətləndirir və ya təshih edir.

Əlbəttə, biz burada diskussiya yolu ilə öyrənilən məsələlərin geniş məzmunundan bəhs etməyi qarşımıza məqsəd qoymadığımızdan, ana dili dərslərində diskussiya imkanları verən bütün mövzuları əhatə edə bilməzdik. «Oxu» dərsliklərindəki nəsihət, məsləhət, hikmət, atalar sözləri və s. mətnlərdən çıxan nəticələr əsasında belə imkanları müəyyənləşdirmək olar. Onlar da maraqlı məzmunla dialoq- diskussiyalar keçirməyə kömək edər. Belə diskussiyalar aşağıdakı pedaqoji nəticələr çıxarmağa əsas verir:

1. Diskussiya aparan şagird subyektdir, o elmi dərk etmək, həqiqəti tapmaq istəyir.
2. Diskussiyaya səbəb olan məsələlər cavabı açıq qalan, birmənalı olmayan məsələlərdir.
3. Müşahidələr və nəzəri təhlillər bu təgrübənin dərin tədqiqatlara ehtiyacı olduğunu göstərir.

## Ədəbiyyat


1. Qaralov Z.İ, Tərbiyə (prinsiplər, məzmun, metodik, hüquq) III cild. Bakı, «Pedaqogika», 2003, s. 103.
2. Kazımov N.M. Həşimov Ə.Ş. Pedaqogika. Bakı, «Maarif», 1996.
3. Məmmədov A. Təlimin psixoloji əsasları. Bakı, 1993.
4. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, 2006.
5. Əliyev E. Şagird şəxsiyyəninin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu. «İbtidai məktəb və məktəbəqədər tərbiyə», 2001, №1

О диалоге-дискуссии
Резюме

А статье речь идет о вопросах использования метода диалога-дискуссии. При этом отмечается, что более широкие возможности в этом аспекте заложены в преподавании родного языка. Использование образцов диалога-дискусии при анализе содержания текстов в тоже время носит воспитывающий характер. С современных условиях цель не в том, чтобы вынести на первый план информативность, важно высказать свое отношение, соображения. С этой позиции в статье раскрывается учебно- воспитательная сущность диалога- дискуссии.

## *Sizin kitab rəfiniz*

*A. O. Mehrabov.* **Azərbaycan təhsilinin müasir problemləri.**
Kitabda təhsilin modernləşdirilməsinin konseptual problemləri, təhsil quruculuğuna yeni yanaşmalar, yeni təhsil paradiqmaları, təhsilin yeni məzmunu, monitorinq və qiymətləndirmə, təhsilin və təhsildə keyfiyyətin idarə olunması. Ekoloji təhsilin problemləri və s. məsələlər əhatə olunmuşdur.

*Z. Muradova.* **Heydər Əliyev fondu və milli təhsilimiz.**
Kitab fondun yaradılmasının üç illiyinə həsr edilmişdir. Kitabda Heydər Əliyev fondunun prezidenti, YUNESKO-nun və İSEKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın milli təhsilimizin inkişafı yolunda göstərdiyi səmərəli fəaliyyətindən bəhs olunur.

*L.K. Cəfərova, R.E. Mirzəzadə.* **Məktəbəqədər dövrdə təiətdə tanışlıq.**
Kitabda kiçikyaşlı uşaqların təbiətlə tanışlığı üzrə işin təşkili və məşğələnin keçirilməsi metodikası verilmişdir. Bağçalarda saxlanılan bitki və heyvanların təxmini siyahısı və onlara qulluq qaydaları haqqında məlumat təbiətdə tanışlıq baxımından faydalıdır.

*X. Məməmdova.* **«Uşaq bağçasında təsviri fəaliyyət üzrə təlim məşğələləri.**
Kitabda bağçanın ayrı-ayrı qruplarında proqrama uyğun olaraq rəsm, yapma,applikasiya, quraşdırma üzrə işin təşkili metodikasına dair məşğələ nümunələri verilir.

## DƏRSDƏNKƏNAR TƏDBİRLƏRDƏ ƏMƏKSEVƏRLİK TƏRBİYƏSİ

**Gülarə KƏRİMOVA,**
BDU-nun müəllimi

Əməyin tərbiyədə imkanları genişdir. Əməyin iqtisadi, sosial, əxlaqi, fizioloji, psixoloji və idraki mənası tərbiyə prosesində həmişə diqqət mərkəzində olmuşdur. Uşaqların əmək prosesində tərbiyəsi, şəxsiyyət kimi formalaşdırılması həm ayrı-ayrı adamların həyata düzgün hazırlanmasının, həm də, bütövlükdə, cəmiyyətdə firavanlığın yaradılmasının başlıca vasitəsi kimi qiymətləndirilir.

Kiçikyaşlı məktəblilərin cəlb edildikləri dərsdənkənar əmək tədbirləri məzmunca zəngin, formaca rəngarəngdir; növbətçilik, yaşıllığa qulluq etmək, sinifdə, məktəbdə səliqə-sahman yaratmaqla bağlı fəaliyyət, yaxınlıqdakı uşaq bağçalarına hədiyyə vermək üçün oyuncaqlar hazırlamaq ibtidai sinif şagirdlərinin həvəslə məşğul olduqları işlərdəndir. Bu sahələrdəki fəaliyyəti həm fərdi, həm qrup, həm də kollektiv formada təşkil etmək mümkündür. Həm fəaliyyətin sahəsini, həm də formasını seçmək müəllimdən asılıdır və bu ondan yüksək pedaqoji ustalıq, dərs dediyi hər bir şagirdi ətraflı öyrənməyi tələb edir.

Əmək geniş mənada məhsuldarlığı çoxaldır, əlavə nemətlər yaradılmasına, mədəni məişət şəraitinin yaxşılaşdırılmasına, bütövlükdə, əhalinin maddi rifah halının yüksəlməsinə kömək göstərir, lakin ibtidai sinif şagirdlərinin dərsdənkənar vaxtlarda cəlb edildikləri əmək tədbirləri birbaşa məhsul istehsalının vasitəsi kimi yox, tərbiyənin vasitəsi kimi qiymətləndirilməlidir. Əslində, ibtidai sinif şagirdlərinin bu və ya digər əmək tədbirlərində iştirak etmələri, əməksevərlik tərbiyəsinin düzgün qurulması, onları həm də gələcək əmək həyatına hazırlayır. İbtidai siniflərdə əməksevərlik tərbiyəsi lazımi şəkildə təşkil olunduqda uşaqlar, bir qayda olaraq, yuxarı siniflərdə də yaxşı oxuyur, müxtəlif əmək tədbirlərinə həvəslə qoşulur, təhsil illərindən sonra istehsalat sahələrində uğurla çalışırlar. Bu isə, əslində, elə cəmiyyət üçün əmək məhsuldarlığının yüksəldilməsi kimi qiymətləndirilməlidir.

Ailədə uşaqları əməyə cəlb etməklə bağlı müəllimin məsləhətləri valideynlər tərəfindən rəğbətlə, maraqla qarşılanır. Problemlə əlaqədar bir müəllimlə söhbət edərkən o, validyenlərə necə məsləhət verməsindən söz açdı:

- Uşağın gücü çatdığı, özünün yerinə yetirə bildiyi işi heç vaxt başqalarının yerinə yetirməsinə imkan vermək lazım deyil. Hər bir uşaq yaşından asılı olmayaraq, gücü çatan işləri özü yerinə yetirməlidir. Ola bilər ki,bəzi vaxtlar iş lazımi nəticə verməsin. Dərhal irad tutmağa çalışmayın. İzahat verəndə övladınıza dost kimi yanaşın. İcra yollarını elə göstərin ki, guya övladınızın bu yolları bilmədiyindən xəbəriniz yoxdur. Belə «göstərişlər» balacaları əsəbiləşdirmir. Əksinə, ruhlandırır.

Yaxşı bilirəm ki, hər bir uşaq fərdi xüsusiyyətə malikdir. Eyni sözdən, hərəkətdən hamı eyni nəticə çıxarmır. Belə uşaqlarla necə davranmaq barədə də valideynlərə məsləhət verirəm.

Həmin uşaqlar məktəbə qəbul edildikdən sonra onlarla əməksevərlik tərbiyəsi üzrə işləri davam etdirirəm. Əvvəlcədən onları öyrənib tanıdığımdan işimi

səmərəli qura bilirəm. Bilirəm, kimin nəyə, hansı işə marağı var. Bu maraqdan dayaq nöqtəsi kimi istifadə edirəm. Uşaqlara maraqlarına uyğun işlər tapşırıram. Doğrudur, məktəbdə uşaqların maraqlarına uyğun fəaliyyət sahəsi tapmaq bir o qədər də asan deyil. Heç buna ehtiyac da yoxdur, çünki həyat ancaq maraqlı işlərdən ibarət deyil.

İşin belə təşkili uşaqları tədricən çətinliklərə öyrədir. Başlıcası isə budur ki, marağa uyğun seçilən işlər uşaqlarda əmək prosesində lazım olan ilkin əmək vərdişlərinin yaradılmasına kömək edir.

Yeri gəlmişkən qeyd edək ki, müşahidə apardığımız məktəblərdə daha çox bu cəhət unudulur: fəaliyyət sahəsində uşaqda hansısa bacarıq və vərdişlərin olub-olmadığına əhəmiyyət verilmir. Deməli, çox zəruri sayılan belə vərdişlərin yaradılması üzərində iş aparılmır. Nəticədə hələ ilk məktəb illərindən başlayaraq şagirdlər «bacarıqlılara» və «bacarıqsızlara» bölünürlər. Bunun ağrısını isə təkcə şagirdlərin özləri və müəllimlər deyil, həm də bir qədər sonra cəmiyyət çəkməli olur. Deməli, əməyə münasibət tərbiyəsi ilə əməklə bağlı bacarıq və vərdişlərin vəhdətdə aparılması uşaqları təşəbbüskar, müraciət gözləmədən xeyirxahlıq etməyi bacaran əməksevərlər kimi tərbiyələndirməyə kömək edir. Bu isə N.Tusinin dilində yaxşı səslənir: xeyirxahlıq etməkdə ehtiyacı olanların xahişini gözləmə, onlara demədən sən öz kömək əlini uzat.

Qeyd edilən cəhətlərin hər biri əməyin məzmununun əməksevərlik tərbiyəsi ilə əlaqədar imkanları ilə bağlıdır: əməkdə iştirak, onun nəticəsi şagirdi həvəsləndirir, xeyirxahlıq kimi əməllərə görə ona ətraf aləmdə bəslənən yaxşı münasibət, müəllimin tərifi, xidmətçinin razılığı, ata-ananın sevinci onlarda xoş hisslər oyadır. Xoş hiss isə bu hissi yaradan mənbəyə – əmək prosesinə rəğbət oyadır. Uşaq yenə də belə tədbirlərə can atır, həvəslə işləməyə calışır.

Hər bir əmək tədbiri bu və ya digər əxlaqi keyfiyyətin formalaşdırılması vasitəsi ola bilər. Dərsdənkənar əmək tədbirlərindən şagirdlərin əməksevərlik tərbiyəsində istifadənin ən səmərəli yolu uşaqlarda görüləcək, həyata keçiriləcək işə maraq oyatmaqdır. Maraq motivlərlə sıx bağlı olduğundan bu motivləri nəzərə almaq vacibdir.

İş prosesində düzgün münasibətin hökm sürməsi də əmək tədbirlərinin tərbiyəvi rolunu artırır. Müəllimin I və II siniflərdə şagirdlər arasında düzgün münasibət yarada bilməsi əməksevərlik tərbiyəsinə olduqca güclü təsir göstərir. Kiçikyaşlı məktəblilər, xüsusilə I və II sinif şagirdləri çox vaxt həm təlim prosesində, həm də digər tərbirlərdə ətrafdakılara, yoldaşlarına münasibətlərini müəllimlərinin münasibətləri ilə tənzimləyirlər. Müəllimlərin rəğbətini qazanmış sinif yoldaşlarına onların münasibətləri deyilənlərə yaxşı sübutdur. Adətən, kiçikyaşlı məktəblilər belə uşaqlara rəğbət bəsləyir, onlara mehribanlıq göstərir, onlarla dostluq etməyə can atırlar.

Əməksevərlik tərbiyəsi, əməyə zəruri münasibətin yaradılması iş prosesində meydana çıxan çətinlikləri necə aradan qaldırmaqdan çox asılıdır. Təsadüfi deyildir ki, əmək bacarıq və vərdişlərinə az da olsa yiyələnmiş şagirdlər onlara tapşırılan işi belə bacarıq və vərdişləri olmayan yaşıdlarından daha asan, daha keyfiyyətli və daha az gərginlik keçirməklə başa çatdırırlar. Adi müşahidələr belə bacarıqları olmayan şagirdlərin işdə necə çətinlik çəkdiklərini, əsəbiləşdiklərini, yorulduqlarını aydın göstərir.

Dərsdənkənar vaxtlarda kiçikyaşlı məktəblilərin cəlb edildikləri əmək prosesində əməksevərliklə bağlı meydana çıxan situasiyalardan biri qarşılıqlı tələbkarlıqla əlaqədardır. Əmək kollektiv şəkildə təşkil edildikdə bu daha çox üzə çıxır. Kollektiv formada təşkil edilən əməyin özünün səciyyəvi xüsusiyyətləri (birinin işinin nəticəsinin digərinin işindən asılılığı, qarşılıqlı köməyin zəruriliyi, yerinə yetirilən işlərin əlaqələndirilməsi vacibliyi və s.) uşaqlardan diqqətlilik, özlərinə və yoldaşlarına qayğıkeş münasibət tələb edir. Bu isə əməyə düzgün münasibətin yaradılması üçün əlverişli şərait deməkdir.

Professor M.Həmzəyev haqlı olaraq yazır: «Məktəbli təkcə oxumaqla, öyrənməklə kifayətlənmir. Bu dövrdə şagird üçün təlimdən sonra əsas fəaliyyət növü oyun olsa da, o, eyni zamanda ev işləri görür, ictimai- faydalı əməklə məşğul olur. Ona görə də uşağın tərbiyəsində onun əsas fəaliyyəti ilə yanaşı, qalan fəaliyyət növlərini düzgün təşkil etmək, onlara nəzarət və rəhbərlik etmək də vacibdir».

Əməyin əməksevərlik tərbiyəsinə təsiri imkanı onun nəticəsinin ümumi məqsədlərə xidmət etməsindən irəli gəlir. Tarixən şəxsi qazanc ayrı-ayrı fərdlər tərəfindən nə qədər yüksək qiymətləndirilsə də, başqalarına fayda vermək, əməyinin, zəhmətinin nəticəsinin digərinə də fayda gətirdiyini görmək, hiss etmək adamlara bir o qədər sevinc gətirmiş, qəlbləri yüngülləşdirmiş, daxili iftixar oyatmışdır. Təsadüfi deyildir ki, hər cəhətdən fikri, sözü və işi vəhdət təşkil edən adamlar bəşər yaranan gündən yüksək qiymətləndirilmiş, belələrinə ən nəcib xitablarla müraciət olunmuşdur. «Hikmətli o adamdır ki, onun fikri, sözü və işi bərabər və bənzər olsun». Əməyin faydalılığı insan qarşısında qoyulan ən mühüm tələblərdən biridir və belə olaraq qalacaqdır.

Şagirdlərin cəlb edildikləri əmək tədbirlərini verdiyi faydaya görə iki istiqamətdə qruplaşdırdıq: a) şagirdlərin özlərinə tanış olan adamlara fayda gətirən işlər. (Bu halda uşaqlar vaxtilə tərbiyə aldıqları uşaq bağçasına getməli, orada oyuncaqları təmir etməli, sonra isə mahnı oxumalı, şeir deməlidirlər); b) şagirdələrə tanış olmayan başqa bir uşaq bağçasında həyata keçirilən işlər.

Hər iki halda şagirdlərin işə münasibəti ətraflı öyrənildi. Məlum oldu ki, onlar tanış uşaq bağçasında daha həvəslə çalışır, ora gedəcəkləri barədə əvvəlcədən ağızdolusu danışırlar. İkinci halda (tanış olmayan uşaq bağçasında) isə münasibət tamamilə birincinin əksi oldu. Şagirdlər oraya getməyə həvəs göstərmir, iş prosesini tələm-tələsik başa çatdırmağa çalışırdılar.

Qeyd edilənlər mühüm faktdır və ibtidai sinif şagirdləri ilə dərsdənkənar vaxtlarda təşkil edilən əmək prosesində bunun nəzərə alınması vacibdir. Özü də elə başa düşülməməlidir ki, kiçikyaşlı məktəblilər həvəslə çalışsınlar deyə ancaq «tanışlıq» motivi əsas götürülməlidir. İlk baxışda bu çox cazibədar təsir bağışlayır, lakin aydındır ki, belə motivin əhəmiyyəti ilk mərhələlər üçün uşaqlarda müəyyən əmək bacarıq və vərdişlərinin, əməyə düzgün münasibətin yaradılmasında nə qədər əhəmiyyətli olsa da, daim bu istiqamətdə iş aparmaq düzgün sayıla bilməz. Uşaqlarla elə iş aparılmalıdır ki, onlar tədricən həm də «Fəaliyyət nə qədər zəruridir?» sualına cavab axtarıb tapmağa alışsınlar

Əməyin bu formasının əməksevərlik tərbiyəsinə təsiri bir tərəfdən də onun nəticəsinin həm ümumi məqsədə, həm də ayrı-ayrı adamların mənafeyinə uyğun gəlməsi ilə bağlıdır. Yəni çox vaxt ümumi və şəxsi mənafelər üst-üstə düşdüyündən, şagirdlər belə əmək tədbirlərinə tərəddüdsüz qoşulur, iş prosesində həvəslə çalışır, işlərinin nəticəsi ilə fəxr edir, öyünürlər. Əməyi şəxsiyyətin

formalaşdırılmasının mühüm vasitəsi kimi tədqiq edən alimlərdən Y.P.Sokolnikovun qeyd etdiyi kimi, əməyin nəticəsinin həm ayrı-ayrı şagirdlərin, həm də kollektivin mənafeyinə uyğunluğu əməyin təsirini artırır, o, bir neçə keyfiyyətin uşaqlarda yaradılmasının vasitəsi yerində çıxış edir.

Əmək prosesində şagirdlərə həm də zəruri iş tərzləri aşılınır. Onlara müvafiq bilik, bacarıq və vərdişlər əsasında alətlərdən düzgün istifadə, qənaət, təhlükəsizlik qaydaları, işdən sonra onların təmizlənib saxlanması və s. öyrədilir. Bu prosesdə işin mənası, onun başqa adamlar üçün əhəmiyyəti izah edilir. Nəticədə şagirdlərdə əməyə düzgün münasibət yaranır. Uşaq əməyə oyun kimi baxsa da, onun mənəvi təsirinə düşür. Eyni zamanda, şagirdə kollektivdə düzgün davranış qaydaları, gələcəkdə cəmiyyətə fayda verən təmənnasız işlərin əhəmiyyəti barədə məlumat verir. Əmək prosesində şagirdlərdə borc hissi təzahür edir, onlar valideynlərinin, müəllimin verdikləri tapşırıqları böyük həvəs və məsuliyyətlə yerinə yetirirlər.

### Ədəbiyyat


1. Aslanov A.S. Şagirdlərin ictimai fəallıq tərbiyəsi. Bakı, 1972, 172s.
2. Aslanova Z. Şəxsiyyətin inkişafında əməksevərliyin rolu. «İbtidai məktəb və məktəbəqədər tərbiyə» 1980, №5, səh. 23-24.
3. Aslanova Z. Uşaqlarda əməksevərliyin inkişafına oyunun təsiri. «İbtidai məktəb və məktəbəqədər tərbiyə» 1987, №5, səh. 62-67.
4. Aslanova Z. Şəxsiyyətin inkişafında əməksevərliyin rolu. «İbtidai məktəb və məktəbəqədər tərbiyə» 1980, №5, səh. 23-24.


## SİNİFDƏNXARİC İŞLƏRİN KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN ESTETİK TƏRBİYƏSİNƏ TƏSİRİ


**İradə NADİROVA,**
Heydər Əliyev adına liseyin təşkilat işləri üzrə direktor müavini




Hərtərəfli, inkişaf etmiş şəxsiyyətin mühüm keyfiyyət göstəricilərindən biri də estetik tərbiyəlilik səviyyəsidir. Estetik tərbiyə erkən yaşlardan başlayaraq uşaq, məktəbli şəxsiyyətinin hərtərəfli, ahəngdar inkişafına qüvvətli təsir göstərir. Təsadüfi deyildir ki, milli təhsil sistemimizin yeni inkişaf yollarını göstərən Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramında bu məsələyə də xüsusi diqqət yetirilmişdir. Təhsilimizin inkişafı ilə bağlı bu mötəbər sənəddə milli mədəniyyətimizin, tariximizin dərindən öyrənilməsi, təlim - tərbiyənin meyil, maraq, istedad və qabiliyyətlə qurulması çox mühüm vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur. (1, s. 21).

Estetik cəhətdən mühüm əhəmiyyət kəsb edən həmin vəzifələrin uğurla həyata keçirilməsində sinifdənxaric işlərin böyük rolu vardır. Prof. V. Xəlilov

problemlə əlaqədar yazır: «Şagirdlərin estetik tərbiyəsi sahəsində qarşıya qoyulan mühüm vəzifələrin müvəffəqiyyətlə həyata keçirmək üçün təkcə sinif-dərs məşğələlərinə istinad etməklə kifayətlənmək olmaz. Bu məqsədlə əldə olan bütün imkanlardan xüsusilə sinifdənxaric və məktəbdənkənar tədbirlər kompleksindən müntəzəm və sistemlə istifadə etmək zəruridir» (2, s. 140). Çox yerində deyilmişdir. Doğrudan da, estetik tərbiyənin təsirliliyini, həyati əhəmiyyətini artırmaq üçün sinifdənxaric işlərin ən maraqlı formalarından bacarıqla istifadə etmək lazımdır.

Estetik yönümlü sinifdənxaric işlər məktəblilərin asudə vaxtlarını daha səmərəli etməklə, onların Vətən və dünya mədəniyyəti inciləri ilə tanış olmalarına zəmin yaradır.

Tarix boyu ulu babalarımızın yaratdığı estetik sərvətləri mənimsəmək və yaradıcı formada inkişaf etdirmək qarşımızda duran əsas vəzifələrdən sayılır. Aqillərdən birinin dediyi kimi: «Gənclər həmişə gözəldir, əgər onlar düzgün tərbiyə olunursa, düzgün yaşayırsa, düzgün işləyir, düzgün sevinirsə...» buradakı dərin məna gənc nəslin estetik tərbiyəsi ilə sıx bağlıdır. Əgər doğrudan da, insan estetik cəhətdən düzgün tərbiyə olunursa, nəticədə onun gələcəyi üçün işıqlı bir yol açılır.

Bildiyimiz kimi, müxtəlif qəbildən olan insanlar ətraf aləmin cisim və hadisələrinə biganə qalmır, ya onlardan zövq alır, ya da onlara nifrət edir. Bir çox hallarda isə insanlar öz hiss və həyəcanlarını, hadisələrə münasibətini ədəbiyyat, təsviri incəsənət və musiqi əsərlərində ifadə edirlər.

Böyüməkdə olan nəslin estetik tərbyiəsi gözəllik hisslərini oyatmaqdan, formalaşdırmaqdan və inkişaf etdirməkdən başlayır. Gözəllik hissləri təbiətin ecazkar mənzərələri bağ – bağça, davranış, ünsiyyət mədəniyyəti, məzmunlu bədii yaradıcılıq əsərləri nümunələri yaraşıqlı məişət əşyaları vasitəsilə oyanıb hərəkətə gəlir.

Məlumdur ki, estetik tərbiyənin əsası ailədə, bağçada qoyulur və tədricən inkişaf etdirilir. Uşaq böyüyür, məktəbə gedir. Bundan sonra isə günün xeyli hissəsini ailədə, valideynləri təsir altında keçirir.

İbtidai sinif şagirdləri məktəbdə tədris olunan bütün fənlərə böyük maraq göstərəirlər. Oxu, musiqi, təsviri incəsənət, əmək hazırlığı, bədən tərbiyəsi dərsləri üzrə keçilən mövzular, aparılan təmrinlər şagirdləri heyrətləndirir. Estetik hisslərin, zövqün inkişafına zəmin yaradır.

«Tədris prosesində estetik tərbiyə məqsədyönlü və mütəşəkkil aparılsa da, bu işi yalnız ayrı-ayrı fənlərin tədrisi ilə məhdudlaşdırmaq olmaz. Şagirdlərin estetik tərbiyəsi sahəsində aparılan işlər dərsdənkənar vaxtlarda da davam etdirilir. Sinifdənxaric işlər məktəblərin tədris prosesində estetik tərbiyə üzrə qazandıqları bilik dairəsini genişləndirməyə, estetik bacarıq və vərdişləri möhkəmləndirməyə kömək edir» (3, s. 322).

Sinifdənxaric işlər uşaqların fərdi tələb və ehtiyaclarını, maraq və meyillərini dərsdə ödəməyə, onların yaradıcılıq fəaliyyətinə daha geniş imkanlar açır.

Ana dili, musiqi, təsviri incəsənət, həyat bilgisi və digər fənlər üzrə sinifdənxaric məşğələlərdə şagirdlərin əqli-yaradıcı fəaliyyət, əşya haqqında təsəv-

vürləri dərinləşdirir, onların bədii qabiliyyətlərini inkişaf etdirir. Göstərdiyimiz fənlər üzrə sinifdənxaric işlərdə, o cümlədən dərnək, klub, studiya məşğələlərində, habelə müxtəlif məzmunlu tədbirlərdə, bayramlarda, səhərciklərdə, ədəbiyyat, incəsənət xadimləri ilə keçirilən görüşlərdə, vətənə, onun gözəl, ülvi təbiətinə, yaradıcı insanlarına sevgi, məhəbbət hissləri oyanır, onlarda ətraf aləmin estetik qiymətləndirilməsi üzrə bacarıq və vərdişlər aşılanır.

Sinifdənxaric işlər kiçikyaşlı məktəblilərin estetik tərbiyəsinə o zaman qüvvətli təsir göstərir ki, ümumtərbiyə prosesinin digər sahələri ilə də əlaqələndirilir. Estetik tərbiyə tərbiyənin digər sahələri ilə əlaqədar daha təsirli imkana malik olur. Estetik tərbiyə ləyaqətli insan tərbiyəsinin etibarlı özülünü qoymaq baxımından müstəsna əhəmiyyət kəsb edir. Hər hansı məktəbdə yaradılan estetik mühitlə, habelə incəsənət növlərindən kompleks şəkildə istifadə edildiyi hallarda, sinifdənxaric işlərin estetik təsir qüvvəsi daha da artır.

İbtidai siniflərdən başlayaraq şagirdlərdə gözəlliyi düymaq, yaratmaq, estetik təsir vasitələrilə təmasda olmaq qabiliyyəti inkişaf etdirilməlidir. Təbiətdə, insanların davranışında, müxtəlif janrlı incəsənət əsərlərində gözəlliyi, estetik xassə və keyfiyyətlər görmək, qiymətləndirmək, müstəqil fikir – mühakimə yürütmək bacarığı aşılanmalıdır.

Sinifdənxaric işlərdə şagirdlərin estetik hissi, zövqü ilə yanaşı, bədii yaradıcılıq qabiliyyətləri də formalaşdırılmalıdır. Gözəlliyi görmək, qavramaq, onları bədii yaradıcılıq, bədii özfəaliyyətdə təzahür etdirmək tələbi də estetik mədəniyyətin tərkib hissəsi kimi nəzəri cəlb edir. Həyatın müxtəlif sahələrində – təbiət, cəmiyyət və incəsənət gözəlliyini duymaq, bu gözəlliyi görmək, başa düşmək, onun əks tərəflərini bir-birindən fərqləndirmək qabiliyyəti estetik zövqün inkişafı, formalaşması üçün əsas verir.

Ana dili dərslərində aparılan iş sinifdənxaric oxu ilə möhkəmləndirilməlidi. Şagirdlər sinifdə verilən mövzulardan əlavə, dərsdənkənar vaxtlarda mütaliə etmək üçün xalqımızın tarixinə, vətənimizin gözəl güşələrinə həsr olunmuş müvafiq əsərlərin oxunmasını tapşırmaq, lazım gəldikdə həmin əsərlərin estetik xüsusiyyətlərini onlara başa salmaq estetik zövqlərinin də inkişafına qüvvətli təsir göstərir.

Ana dili dərslərində şagirdlərin oxuduqları bədii nümunələr onlara estetik cəhətdən çox qüvvətli təsir göstərir. Aşağı sinif şagirdlərinə ana dili dərslərində öyrənilən şeir, hekayə, nağıl, atalar sözləri, tapmaca və bayatılar onların əxlaqi, estetik hisslərini, bədii təfəkkürünü inkişaf etdirir.

İncəsənətin ən geniş yayılan növlərindən olan musiqi ilə bağlı müxtəlif formalı məşğələlər sinifdənxaric işlərdə də layiqli yerini tutmalıdır. Musiqi şagirdlərin estetik tərbiyəsində güclü təsir qüvvəsinə malikdir. Onlar musiqini çox sevirlər, çünki musiqidə təbiət hadisələrinin tonu, ədəbi obrazların sevinci və kədəri, müxtəlif rəqslərin oynaq ritmləri öz ifadəsini tapır. Buna görə də uşaqlarda müsiqini diqqətlə dinləmək, onun müşayiətilə oxumaq, rəqs etmək, ifadəli şeir demək bacarığı formalaşdırılmalıdır. Unutmaq olmaz ki, musiqi uşaqları, məktəbliləri incəsənətin digər növlərinə nisbətən daha tez təsirləndirir.

Tədris prosesində verilən bilik, bacarıq və vərdişləri daha da inkişaf etdirməkdə, müxtəlif janrlı əsərlər vasitəsilə şagirdlərə estetik tərbiyə keyfiyyətləri aşılamaqda təsviri incəsənət üzrə həyata keçirilən sinifdənxaric məşğələlərin də rolu böyükdür.

Təsviri incəsənət üzrə sinifdənxaric işlərdə müxtəlif məzmunlu şeirlərdən, həndəsi fiqurlardan, xətti ifadə vasitələrindən istifadə şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək göstərir.

Sinifdənxaric işlərin kiçikyaşlı məktəblilərin estetik tərbiyəsində layiqli yer tutması üçün bu işin mahiyyəti düzgün başa düşülməli, estetik təsir imkanları qabaqcadan nəzərə alınmalıdır. Prof. Ə. Həşimov problemin bu cəhətindən bəhs edərək yazırdı: «Uşaqlarda yaradıcılıq, təşkilatçılıq, təşəbbüskarlıq, icraçılıq kimi keyfiyyətlərin təşəkkülünə və formalaşmasına xidmət etməyən, sevinc, şadlıq, maraq, intellektual və emosioanl reaksiya doğurmayan təxəyyülü və fantaziyanı inkişaf etdirməyən tədbirlərə yol verilməməlidir. Belə tədbirləri keçirməkdənsə, keçirməmək yaxşıdır. Bəzi məktəblər bu həqiqətə biganəlik göstərərək çoxlu tədbirlər keçirmləri ilə öyünürlər. Halbuki sinifdənxaric işin səmərəliliyi tədbirlərin say ııə deyil, nəticəsi ilə ölçülür» (3, s. 375).

Haqlı deyilmişdir. Şagirdlərin estetik tərbiyəsini inkişaf etdirmək məqsədilə müxtəlif məzmunlu, xarakterli sinifdənxaric işlər təşkil olunarkən həmin tələblərə qabaqcadan xüsusi diqqət yetirilməlidir.

Ədəbiyyat


1. Azərbaycan Respublikasının Təhsil sahəsində islahat proqramı. Bakı, 1999.
2. Xəlilov V.C. Ümumtəhsil məktəblərində estetik tərbiyənin inkişaf yolları. Bakı, «Maarif», 1991.
3. Kazımov N.M. Həşimov Ə.Ş. Pedaqogika. Bakı, «Maarif», 1996.
4. İbtidai məktəbdə sinifdənxaric işlərin təşkili. Bakı, «Kövsər», 2006.


Воздействие внеклассных работ на эстетическое воспитание младших школьников


Резюме

В статье речь идет о значении внеклассных работ, проводимых по развитию у учащихся начальных классов эстетического воспитании,

Отмечается, что внеклассных занятиях по родному языку, музыке, изобразительному искусству, познанию жизни и другим предметам художественные способности. Для этого следует заблаговременно озознать сущность внеклассных работ, возможности эстетического воздействия из на учащихся.

# TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN İMKANLARI

**Yeganə KAZIMOVA**
ARTPİ-nin dissertantı



Ümumtəhsil məktəblərində şagirdlərin vətənpərvərlik tərbiyəsi həmişə diqqət mərkəzində olub, lakin indiki dövrdə bu məsələ öz aktuallığı ilə diqqəti daha çox cəlb edir. Təhsil prosesində ümummilli liderimiz Heydər Əliyevin problemin əsas mahiyyəti ilə bağlı dediyi «Vətənpərvərlik təkcə o deyil ki, gedib Vətəni silahla müdafiə edəsən» sözləri daima diqqət mərkəzində saxlanılır. O deyir: «Vətənpərvərlik geniş məna daşayır… Vətənpərvər insan öz mədəniyyətinin də, iqtisadiyyatının da, öz dilininin də, təhsilinin də inkişaf etməsini istəyir».

Problemə məhz göstərilən istiqamətdə yanaşanda deməliyik ki, ibtidai siniflərdən başlayaraq şagirdlərin dünyagörüşünü inkişaf etdirməyə istiqamətlənən bədii-estetik silsilə fənlər, o cümlədən ana dili, musiqi, təsviri incəsənət fənləri vətənpərvərlik tərbiyəsində ən təsirli mənbələrdən sayılmalıdır. Bununla belə, həmin fənlər üzrə keçilən tədris materiallarının hamısını vətənpərvərlik tərbiyəsi vasitəsi hesab etmək doğru olmaz. Şagirdlərdə vətənpərvərlik hisslərini qüvvətləndirməyə imkan verən mövzuların üzərində dayanmaq, fənlərarası əlaqə, inteqrasiya yolunu tutmaq daha məqsədəmüvafiqdir. Bu baxımdan «Təsviri incəsənət» fənninin tədrisi prosesində ayrı-ayrı mövzularla əlaqədar müvafiq musiqi nümunələrindən istifadə etməklə şagirdlərin vətənpərvərlik tərbiyəsi də mühüm əhəmiyyət kəsb edir.

Araşdırmalar göstərir ki, I-IV siniflər üçün son illərdə hazırlanmış «Təsviri incəsənət» dərslikləri problem baxımından geniş imkanlara malikdir. I sinfin «Təsviri incəsənət» dərsliyinin ilk səhifələrindən milli geyimdə olan oğlan və qız şəkli, habelə milli naxışları əks etdirən ev əşyaları nəzərə çatdırılır. Müəllimlər dərsliyin 3-cü və 8-ci səhifələrində verilmiş təsviri lövhələr üzrə müsahibə apararkən həmin əşyaların xalq sənətkarları tərəfindən yaradıldığını və əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçdiyini diqqət mərkəzinə gətirməlidirlər. Həmin lövhələr haqqında məlumat verilərkən «Şur», «Rast» muğamından müvafiq hissələrin (şöbələrin) səsləndirilməsi şagirdlərdə xalq sənətinə maraq və məhəbbət hisslərini qüvvətləndirir.

I sinfin «Təsviri incəsənət» dərsliyinin «Təsviri incəsənət əsərləri ilə tanışlıq» bölməsində görkəmli rəssamlarımız haqqında məlumatlar, onların

məşhur əsərlərindən nümunələr də vətənpərvərlik tərbiyəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Şagirdlər Azərbaycanın görkəmli rəssamları-mənzərə ustaları Bəhruz Kəngərli və Səttar Bəhlulzadənin portreti, əsərlərindən nümunələrlə tanış olurlar.

Ecazkar mənzərələri, təbiət güşələri ilə zəngin olan Naxçıvanın gözəlliklərini mahir rəssam fırçası ilə tərənnüm edən B.Kəngərlinin həmin əsərləri haqqında söhbət açarkən dərsdə «Naxçıvan» xalq mahnısının dinlənilməsi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana, onun qurub-yaradan insanlarına məhəbbət hissini daha da qüvvətləndirir.

Dərslikdə Azərbaycan təbiətinin gözəlliklərini orijinal rəng çalarları ilə dünya sənətsevərlərinə çatdıran xalq rəssamı Səttar Bəhlulzadə haqqında verilən qısa məlumatlar da problem baxımından xüsusi maraq doğurur: Onun «Bilgəh», «Torpağın arzusu», «Qırmızı mənzərə», «Xəzər gözəli», «Kəpəzin göz yaşı» və başqa əsərləri təbiət təsvirinin ən gözəl nümunələridir.

Bu cür məlumatdan sonra şagirdlərin diqqəti dərslikdə öz əksini tapan «Xəzər gözəli» əsərinin reprodkusiyasına yönəldilir. Bu prosesdə həkim-bəstəkar İbrahim Topçubaşovun «Xəzərim» mahnısının lent yazısı səsləndirilir.

Dərslikdə görkəmli heykəltaraş, xalq rəssamı Fuad Əbdürrəhmanov haqqında qısa məlumat və onun yaratdığı Nizami Gəncəvi, Mehdi Hüseynzadə, «Azad qadın» heykəllərinin reproduksiyaları elə ilk baxışdan fərəh doğurur.

Müəllimlər «Təsviri incəsənət əsərləri ilə tanışlıq» mövzusu üzrə söhbəti davam etdirərkən, müvafiq müsahibə apararkən ayrı-ayrı sənətkarlara həsr edilmiş mahnı və romansların əvəzinə el sənətkarlarının, aşıqların Səməd Vurğunun sözlərinə qoşduqları «Yaşa Azərbaycan» mahnısını səsləndirməklə mövzunun mənəvi-estetik təsirini, vətənpərvərlik tərbiyəsindəki mühüm rolunu təmin etmiş olurlar.

I sinfin «Təsviri incəsənət» dərsliyində sırf vətənpərvərlik tərbiyəsi ilə bağlı mövzulardan biri də «31 dekabr dünya azərbaycanlılarının həmrəyliyi günüdür». Bu mövzu ilə əlaqədar təsviri lövhədə şagirdlərin «Bayramınız mübarək» adlı divar qəzeti hazırlamaları nəzərə çatdırılır. Mövzu üzrə rəsmə başlamazdan əvvəl bəstəkar Rauf Hacıyevin şair Ənvər Əlibəylinin sözlərinə yazdığı məşhur «Azərbaycanım» mahnısı səsləndirilir. Şagirdlər çox geniş yayılan bu mahnıya qulaq asdıqdan sonra dünya azərbaycanlılarının bayram şənliyini əl işlərində, müxtəlif şəkillərdə təsvir edirlər.

Dərsliyin 58-ci səhifəsində görkəmli sənətkar, xalq rəssamı Mikayıl Abdullayevin portreti və onun geniş yayılmış «Azərbaycan çöllərində», «Axşam», «Mingəçevir işıqları» əsərləri haqqında məlumat, rəssamın «Sevinc» tablosunun reproduksiyası nəzərə çatdırılır. Əsərin məzmunu haqqında kiçik müsahibədən sonra Tofiq Quliyevin şair Zeynal Cabbarzadənin sözlərinə yazdığı «Mingəçevir» mahnısı səsləndirilir. Dərsliyin 59-cu səhifəsində isə xalq rəssamı, görkəmli sənətkar Tahir Salahovun portreti və onun məşhur

«Təmirçilər», «Bəstəkar Qara Qarayevin portreti», «Neftçi», «Bəstəkar Fikrət Əmirovun portreti» əsərləri haqqında məlmat verilir.

Diqqətəlayiq haldır ki, həmin əsərin mənasını, mahiyyətini şagirdlərə daha anlaşıqlı şəkildə çatdırmaq üçün dərsliyin 60-cı səhifəsində «Neft buruqları», 61-ci səhifəsində isə «Neft daşları» adlı mətn və bunlara uyğun şəkillər verilib. Şagirdlər həmin mətnlə tanış olduqdan sonra müəllim əlavə olaraq şagirdlərin nəzərinə çatdırır ki, qəhrəman dəniz neftçilərinin mənalı əməyini təkcə rəssamlar deyil, eyni zamanda bütün sənət adamları-şairlər, yazıçılar, bəstəkarlar, kino sahəsində çalışan yaradıcı işçilər də tərənnüm edirlər. Bu cür məlumatdan sonra bəstəkar Tofiq Quliyevin «Bəxtiyar» kinofilminə yazdığı musiqidən «Dörd dost» mahnısının lent yazısını səsləndirilir. Daha sonra isə şagirdlər bəstəkar Telman Hacıyevin şair Aslan Aslanovun sözlərinə yazdığı «Neft daşları» mahnısına qulaq asırlar.

Göründüyü kimi, bu mətnin özü görkəmli qadın rəssamlarımızın önündə gedən Maral Rəhmanzadənin dərin vətənpərvərlik hissi ilə yazıb-yaratdığını göz önünə gətirir.

Şagirdlərin vətənpərvərlik tərbiyəsində xalqımıza məxsus qədim memarlıq abidələrinin də mühüm rolu var. «Təsviri incəsənət» dərsliyinin 72-ci səhifəsində «Azərbaycan abidələri» adı altında nəzərə çatdırılan Naxçıvandakı «Möminəxatun türbəsi», «Şəki xan sarayı», Bakıdakı «Şirvanşahlar sarayı», «Təzəpir məscidi» böyük maraq doğurur. Həmin memarlıq abidələri haqqında şagirdlərə məlumat verərkən körkəmli tarzən Əhsən Dadaşovun ifasında «Şur» muğamının bir hissəsinin səsləndirilməsi faydalıdır.

I sinfin «Təsviri incəsənət» dərsliyində öz əksini tapan «Novruz bayramı» mətni də vətənpərvərlik tərbiyəsi baxımından əhəmiyyətlidir. Bu mətnin hər cümləsi şagirdlərin ürəyincədir. Xalqımızın əziz bayramı Novruz şənlikləri, Novruz adətləri onlarda milli iftixar hissini qüvvətləndirir. Mətnin altında verilən tabloda isə uşaqların Novruz tonqalı ətrafında yumurta döyüşdürməkləri, rəqs etmələri təsvir olunur. Bu prosesdə xalq artistləri Məmmədbağır Bağırzadənin, yaxud Zeynəb Xanlarovanın ifasında lentə yazılmış «Səməni» mahnılarından biri səsləndirilir. Şagirdlərin mahnıya qulaq asaraq Novruz bayramına aid mövzu üzrə rəsm etməyə başlayırlar.

Təsviri incəsənt dərsliyinin 82-ci səhifəsində «Azərbaycan əsgəri» adlı mövzu üzrə rəsmə aid Abdulla Şaiqin «Vətən nəğməsi» şerinin, habelə üçrəngli bayrağın fonunda milli hərbi geyimdə olan əsgərlərimizin sıra ilə addımlamasını göstərən tablonun əks etdirilməsi də təsirli alınmışdır. Mövzunun göstərilən şəkildə təqdim olunması tələb edir ki, dərsin əvvəlində bəstəkar Cavanşir Quliyevin Əli Kaminin sözlərinə yazdığı «Əsgər marşı»nın lent yazısı səsləndirilsin.

I sinfin «Təsviri incəsənət» dərsliyində şagirdlərin vətənpərvərlik tərbiyəsi ilə əlaqədar verilən materiallar 87-ci səhifə ilə tamamlanır. Bu səhifə də problem baxımından təsirlidir. Səhifənin başında «28 May Respublika günüdür. Azərbaycan müstəqil dövlətdir» sözləri yazılıb.

Vətənpərvərlik ruhu ilə aşılanan bu şeirin bədii qiraətindən sonra şa-girdlər bəstəkar Cahangir Cahangirovun Abdulla Şaiqin sözlərinə yazdığ «Vətən» nəğməsini xorla oxuyurlar:

II,III,IV siniflərin «Təsviri incəsənət» dərliklərində də şagirdlərin vətən-pərvərlik tərbiyəsinə müsbət təsir göstərən mövzular var. Bunlar o zaman təsir qüvvəsini artırır ki, müvafiq musiqi nümunələri ilə əlaqələndirilir, bədii emosional qavrama şəraiti yaradılır. Daha aydın olmaq üçün II sinfi «Təsviri incəsənt» dərsliyində verilmiş müvafiq materialları nəzərdən keçirək

II sinfin «Təsviri incəsənt» dərsliyində görkəmli heykəltəraş Tokay Məm-mədovun böyük şairimiz Səməd Vurğuna, habelə Toğrul Sadıqzadənin yurdu minbir rəng çalarını dünyaya göstərən mənzərə ustası-rəssam Səttar Bəhlul-zadəyə həsr etdikləri büstlərin verilməsi də yerinə düşür (3, s. 11). Buna görə d dərsdə iki istiqamətdə söhbətin aparılması məqsədəmüvafiq sayılmalıdır.

**Birinci istiqamətə** görkəmli heykəltaraşlarımızın, **ikinci istiqamətə** is bilavasitə büstlərinin şəkli verilmiş Səttar Bəhlulzadənin və Səməd Vurğunu həyat və yaradıcılığı haqqında verilən məlumatlar aid edilir. Dərsdə bəstəka Ələkbər Tağıyevin xalq şairi Səməd Vurğunun sözlərinə bəstələdiy «Azərbaycan» mahnısını xalq artisti Zeynəb Xanlarovanın ifasında səsləndirməklə şagirdlərin vətənpərvərlik tərbiyəsinə qüvvətli təsir göstərmək imkanı yaranır.

II sinfin «Təsviri incəsənət» dərsliyində öz əksini tapan Hüseyn Ka-zımovun «Kürdə», Böyükağa Mirzəzadənin «Lənkəran mənzərəsi», «Qala», Qafar Seyfullayevin «Balıqçılar», Lətif Feyzullayevin «Fontan», Nadir Əb-durrəhmanovun «Dağlarda bahar» əsərləri də şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyətə malikdir. Göstərilən əsərlərlə tanışlıq zamanı şagirdlər daha aydın şəkildə başa düşürlər ki, Azərbaycan gözəlliklər diyarıdır, bitib - tükənməyən qiymətli sərvətlər məskənidir.

Müəllimlər S.Bəhlulzadənin «Bahar mahnısı» (3, s. 19) əsəri ilə şagirdləri tanış edərkən həm də Azərbaycanın gözəl güşələri-Qarabağ, Şəki, Zaqatala, Göygöl, Lənkəran, Astara, Abşeron və digər yerlər haqqında müvafiq məlumat verməlidirlər.

Heç şübhəsiz, S.Bəhlulzadənin «Bahar mahnısı» əsəri ilə əlaqədar verilən məlumatlar şagirdlərdə doğma vətənə məhəbbət hissini qüvvətləndirir. Həmin əsərlə tanışlıq zamanı görkəmli bəstəkarımız Fikrət Əmirovun «Bahar gəlir» mahnısının (sözləri Zeynal Cabbarzadənindir) səsləndirilməsi bu hissləri daha da qüvvətləndirir. Gəncədəki «Cümə məscidi» də parlaq şəkildə nəzərə çatdırılmışdır.

Problem baxımından mühüm əhəmiyyət kəsb edən həmin mövzunun tədrisi zamanı müxtəlif musiqi nümunələrindən istifadə etməklə şagirdlərin vətənpərvərlik hisslərini qüvvətləndirmək imkanları daha da artır. «Yallı» rəqs melodiyasının fonunda mətnin oxunması, eyni zamanda «Qız qalası», «Qobustan» aşıq mahnılarından birinin səsləndirilməsi odlar yurdunun sakinlərində Vətənə məhəbbət hisslərini qüvvətləndirir.

Dərslikdə «Milli naxışlar» mövzusu ilə əlaqədar verilən şəkillər, reproduksiyalar haqqında məlumatı qədim xalq çalğı alətlərindən olan udun vasitəsilə səslənən «Şur» muğamının fonunda vermək, ayrı-ayrı əşyaları nəzərə çatdırmaq səmərəliliyi artırar.

«Milli ordumuz», naturadan rəsm: «Bayram xonçası», «Azərbaycanın görkəmli heykəltəraşları», mövzu üzrə rəsm: «9 May qələbə bayramıdır», «28 may Respublika günüdür» mövzuları ilə əlaqədar verilən izahlı mətnlər, habelə həmin mətnlərin məzmununa uyğun rəsmlər şağirdlərin vətənpərvərlik hisslərini inkişaf etdirir.

III sinfin «Təsviri incəsənət» dərsliyində də şagirdlərin vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərən mövzular öz əksini tapmışdır. Həmin mövzuların təsir qüvvəsini artırmaqda müvafiq musiqi nümunələri mühüm rol oynayır.

Dərsliyin 14-cü səhifəsində «Dekorativ rəsm» məşğələləri ilə bağlı verilən mətndə göstərilir ki, xalqımız ən qədim zamanlardan əmək alətlərində, ev əşyalarında müxtəlif formalı ornamentlər naxışlar salmış, estetik zövqünü nəzərə çatdırmışdır. Əlvan xalçalar, kilimlər, bəzəkli qab-qacaq və digər ev Əşyaları hamının xoşuna gəlir. Bunların hamısı dekorativ-tətbiqi sənət nümunələridir…

Şirvan, Quba xalçaları, həmin xalçaların dünya muzeylərində, beynəlxalq sərgilərdə necə yüksək qiymətləndirilməsi haqqında şagirdlərə məlumat verilir. «Şur» muğamı səsləndirilir. Belə bir müqayisə aparılır: xalçalarımızın naxış, ornamentlərinin əsası olan ilmələrlə muğamlarımızdakı səs çalarları, guşələr arasında bir oxşarlıq, bağlılıq vardır.

III sinfin «Təsviri incəsənət» dərsliyində vətənpərvərlik ruhunda mövzuların verilməsi heç şübhəsiz, problemin son dərəcə aktuallığından, həyati əhəmiyyət kəsb etməsindən irəli gəlir. «Vətənin keşiyində», «Cəbhədə» mövzusunda rəsmlə əlaqədar dərslikdə öz əksini tapan mətndə deyilir: «Ana vətən hər kəs üçün müqəddəsdir. Bizim vətənimiz Azərbaycandır. Rəsamlarımız, şairlərimiz, bəstəkarlarımız vətənimizin gözəlliklərini tərənnüm edən əsərlər yaradırlar. Vətənimizin gözəlliklərini saxlamaq üçün onu qorumaq gərəkdir. Bu müqəddəs vəzifəni ilk növbədə Azərbaycan əsgəri, hərbçilərimiz yerinə yetirirlər. Rəssamlarımız əsgərlərimizin cəbhə həyatını, ölkəmizin keşiyində durmasını əks etdirən dəyərli sənət əsərləri yaratmışlar».

Belə şərhdən sonra hərbi-vətənpərvərlik mövzusunda bir sıra dəyərli sənət nümunələrinin müəllifi Vidadi Nərimanbəyovun «Səmanın keşiyində» əsəri verilmişdir. Əsərdə hərbi hava qüvvələrinə məxsus təyyarəçilərin səmada sərhədlərimizi qorumaq üçün növbəti uçuşa hazırlaşmaları təsvir olunur.

III sinfin «Təsviri incəsənət» dərsliyində «Görkəmli rəssamlarımız» silsiləsindən Əzim Əzimzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Nadir Əbdürrəhmanov, Maral Rəhmanzadə, heykəltəraş Fuad Əbdürrəhmanov və onların məşhur əsərləri haqqında verilən məlumatların şagirdlərə çatdırılması prosesində müvafiq musiqi nümunələrindən mahnı və rəqslərdən, muğam-

lardan-muğam rənglərindən istifadə şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

III sinfin «Təsviri incəsənət» dərsliyində öz əksini tapan «Dirijor Niyazinin portreti» «İstiqlal bayramı – Respublika günü» ilə əlaqədar mövzuların əsil mahiyyətinin açılması, bunlara uyğun musiqi nümunələrinin səsləndirilməsi də məqsədəmüvafiq olar.

Görkəmli dirijor və bəstəkar, parlaq istedadı, peşə məharəti ilə xalqımızı bütün dünyaya tanıtdırmış Niyazi Zülfüqar oğlu Tağızadənin «Vətənim» (sözləri Süleyman Rüstəmindir), Emin Sabitoğlunun «Azərbaycan»(sözləri Bəxtiyar Vahabzadənindir) mahnılarının səsləndirilməsi, müvafiq müsahibələrin aparılması problem baxımından mühüm əhəmiyyət kəsb edir.

Araşdırmalar göstərir ki, IV sinif üçün hazırlanmış «Təsviri incəsənət» dərsliyində də şagirdlərin vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərən tədris materialları az deyil. Bu materiallar mahiyyətinə, xarakterinə görə aşağıdakı şəkildə qruplaşdırıla bilər:

1) vətənimizin gözəl guşələrini tərənnüm edən rəngkarlıq əsərləri;
2) xalq yaradıcılığını əks etdirən müxtəlif janrlı sənət nümunələri;
3) xalqımızın görkəmli adamlarına həsr edilmiş sənət əsərləri;
4) Azərbaycanın tarixi ənənələri və bayramları ilə əlaqədar verilən mətnlər, əyani illüstrativ materiallar.

Göstərilən istiqamətlər üzrə ayrı-ayrı dərsliklərdə istinad olunan təsviri incəsənət nümunələrinin musiqi ilə əlaqələndirilməsi də şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Dərslikdə heykəltəraşlıqla bağlı verilən şərhin və həmin şərhə uyğun olaraq görkəmli heykəltəraşlarımız Ömər Eldarov və Tokay Məmədovun «Füzulinin abidəsi», Fuad Əbdürrəhmanovun Səməd Vurğunun heykəlinin foto şəkillərinin verilməsi habelə Elmira Hüseynovanın Cəfər Cabbarlıya həsr etdiyi əsərin nəzərə çatdırılması şagirdlərdə milli iftixar hissləri oyadır. Bu prosesdə şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, doğma Azərbaycanımız tarixən görkəmli sənətkarları, onların yaratdıqları möhtəşəm əsərlərlə dünyada tanınıb. Xalqımızın mədəniyyət tarixində silinməz izlər qoymuş sözsənət ustaları Məhəmməd Füzulinin, Səməd Vurğunun, Cəfər Cabbarlının əziz xatirəsi qəlblərdə yaşayır.

Görkəmli bəstəkarlarımız Cahangir Cahangirovun «Füzuli kontatası», Fikrət Əmirovun «Azərbaycan kapriççosu», Əfrasiyab Bədəlbəylinin «Azad bir quşdum» mahnısı (sözləri Cəfər Cabbarlınındır) müvafiq əlaqə yaratmaq baxımından əhəmiyyətlidir.

«Təsviri incəsənətdə mənzərə janrı» mövzusu ilə əlaqədar Mikayıl Abdullayevin «Mingəçevirin şəfəqləri», Səttar Bəhlulzadənin «Kəpəzin göz yaşları», «Dəniz sahilində» əsərələrinin reproduksiyalarının nəzərə çatdırılması problemliyi ilə diqqəti cəlb edir.

Göründüyü kimi, həmin əsərlərin hər biri yurdumuzun gözəl guşələrini tərənnüm edir. Müəllimlər həmin əsərlərlə şagirdləri tanış edərkən onların əsas mahiyyəti haqqında şagirdlərə müvafiq məlumat verdikdən sonra mövzuya uyğun mahnı nümunələrinə istinad etməlidirlər.

IV sinfin «Təsviri incəsənət» dərsliyində öz əksini tapan bir sıra mövzular da şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Həmin mövzuları və onlarla əlaqədar istifadə olunması məqsədəmüvafiq sayılan musiqi nümunələrini aşağıdakı cədvəldən aydın görmək olar:

| Mövzular | Dinlənilməsi, yaxud ifası lazım gələn musiqi nümunələri |
|---|---|
| Azərbaycan xalçaları | «Sur dəramədi», «Şur rəngi». |
| **Təsviri incəsənət əsərləri ilə tanışlıq:** «Azərbaycan geyimləri» | «Gül dəstəsi» rəqs melodiyası. |
| Mövzu üzrə rəsm: «20 yanvar». | Emin Sabitoğlunun «Şəhidlər» mahnısı (sözləri Bəxtiyar Vahabzadənindir). |
| Təsviri incəsənət əsərləri ilə tanışlıq: Onun növləri. | «Sur» muğamının (instrumental ifa) val yaxud lent yazısı. |
| Mövzu üzrə rəsm: | Niyaməddin Musayevin «Xudaya, sən özün kömək ol bizə!» mahnısının lent yazısı. |
| Mövzu üzrə rəsm: «Novruz bayramı». | Rəşid Şəfəqin «Gəl Novruzum» mahnısının (sözləri Rəfiq Zəkanındır) xorla oxunması. |
| Mövzu üzrə rəsm: «Milli ordumuz». | Cavanşir Quliyevin «Əsgər marşı»nın (sözləri Əli Kamınındır) xorla oxunması, yaxud lent yazısının dinlənilməsi. |
| Mövzu üzrə rəsm: «9 May». | Süleyman Ələsgərovun «Biz qələbə çalmalıyıq» (sözləri Qurban Musayevindir) mahnısının lent yazısı. |
| Mövzu üzrə rəsm: «28 May Respublika günüdür». | Əfsər Cavanşirovun «Mübarək» mahnısının (sözləri Hikmət Ziyanındır) lent yazısının dinlənilməsi. |

Bütün bunlar bir daha onu göstərir ki, «Ana dili» dərslərində olduğu kimi «Təsviri incəsənət» dərslərində də müvafiq mövzuların tədrisi prosesində ayrı-ayrı musiqi nümunələrindən istifadə etmək və şagirdlərin vətənpərvərlik tərbiyəsini daha da inkişaf etdirmək mümkündür, çünki vətənpərvərlik

tərbiyəsi ümumtərbiyə prosesinin ən başlıca tərkib hissələrindən biridir. Buna görə də bu işə nəinki ibtidai siniflərdən, hətta məktəbəqədər dövrdən başlanmalıdır. Unutmaq olmaz ki, çox geniş, əhatəli proses olan vətənpərvərlik tərbiyəsi oxu, musiqi, təsviri incəsənət əsərlərindən təbii əlaqə yolu ilə kompleks şəkildə istifadə edilməsi zərurətini qarşıya qoyur. ❑

Ədəbiyyat


1. «Azərbayçan müəllimi» qəzeti, 07.05.1998-çi il.
2. Y.Q. Cəlilova, M.K. Əzimova. Təsviri incəsənət I sinif. Ümumtəhsil məktəbləri üçün dərslik. «Elnicat», Bakı, 2005.
3. V.C.Xəlilov, H.İ. Ələkbərov. Təsviri incəsənət. Ümumtəhsil məktəblərinin II sinfi üçün dərslik. «Elniçat», Bakı, 2005.
4. V.C.Xəlilov, H.İ. Ələkbərov, Y.Q.Cəlilova. Təsviri incəsənət. Ümumtəhsil məktəblərinin III sinfi üçün dərslik. «Elnicat», Bakı, 2006.
5. V.C.Xəlilov, M. Məmmədova, S. Vəliyeva. Təsviri incəsənət. Ümumtəhsil məktəblərinin IV sinfi üçün dərslik. «Elnicat», Bakı, 2006.



Резюме

В данной статье указывается на плодотворность межпредметной связи уроков «изобразительного искусства» и «музыки».

Проведение таких уроков повышает чувство патриотизма учащихся, любовь к Родине и родной земле.



Resume

In this article the impotance of the use of the Music pieces at the art lessons is given. And one can stregthen the pariotism, the love of the Countri in the pupils by this way.

# TƏHSİLƏ PSİXOLOJİ XİDMƏTİN SOSİAL-PSİXOLOJİ PROBLEMLƏRİ

**Ramiz ƏLİYEV,**
Təhsil Problemləri İnstitutunun
şöbə müdiri, psixologiya elmləri doktoru

Bütün dövrlərdə insanların psixoloji xidmətə ehtiyacı olub və bu xidməti ayrı-ayrı insanlar, müxtəlif peşə sahibləri müxtəlif şəkildə, bacardıqları formada yerinə yetiriblər. Psixoloji xidmət işi ilə həkimlər (Hippokrat, Qalen, İbn-Sina, Mesmer, Z.Freyd və b.), din xadimləri, filosoflar və başqaları uğurlu və ya uğursuz, peşəkarcasına və ya avanturistcəsinə məşğul olmuşlar.

XIX əsrin 80-ci illərində məşhur Fransız psixoloqu T.Ribo təəssüflə yazırdı: "Görəsən elə bir vaxt gələcəkmi ki, fizika ilə fiziklərin, kimya ilə kimyaçıların məşğul olduğu kimi psixologiya ilə də psixoloqlar məşğul olacaqlar?

Təbii ki, psixologiya ilə psixoloqların məşğul olmasını uzun müddət gözləmək lazım gəlmədi. Psixologiya elminin inkişafı, eləcə də sosial sifariş həyat və fəaliyyətin müxtəlif sahələrini əhatə edən psixoloji xidmətin yaranması üçün zəmin yaratdı. Onların içərisində daha geniş yayılan, daha çoxsaylı insanları əhatə edən məktəbə psixoloji xidmətin yaranma tarixi 1896-cı ildən sayılır. Həmin il L.Uitmer ABŞ-ın Pensilvani Universitetində psixoloq-ekspert və müəllimlər üçün xüsusi kurs təşkil etdi. Kurs uşaq, klinik və xüsusi təlim psixologiyasının sintezindən ibarət idi. Az sonra, daha dəqiqi 1898-ci ildə ABŞ-da B.Devisin Detroytdakı orta məktəbdə apardığı psixoloji məsləhətlə məktəbə psixoloji xidmətin əsası qoyuldu. Bundan sonra məktəbə psixoloji xidmət işi sürətlə digər ölkələrə də yayıldı, təhsilin bütün pillələrini və sahələrini əhatə etdi.

Hazırda inkişaf etmiş bütün ölkələrdə təhsil psixoloji xidmət təhsil sisteminin mühüm sahələrindən biri kimi fəaliyyət göstərir və getdikcə fəaliyyət dairəsini genişləndirir.

Yüz on ildən artıq bir müddətdə təhsilə psixoloji xidmət ildən-ilə inkişaf etmiş, təkmilləşmiş, bu sahə ilə məşğul olanların sayı durmadan artmışdır. Azərbaycanda isə təhsilə psixoloji xidmətin təşkili çox da uzaq olmayan son iki onilliyi əhatə edir. İlk vaxtlar barmaqla sayılası qədər az olan məktəb

psixoloqlarının sırası xeyli genişlənmiş, demək olar ki, respublikanın bütün regionlarını əhatə etmişdir. Lakin hələ də bütün məktəblərdə məktəb psixoloqu fəaliyyət göstərmir. Məktəbəqədər tərbiyə müəssisələrində, eləcə də digər tədris müəssisələrində psixoloji xidmət təşkil olunmamışdır. Təhsilə psixoloji xidmətin vahid sistemi, strukturu yaradılmayıb. Bir çox hallarda isə bu işlə diletantlar məşğul olur ki, bu da tamamilə yol verilməzdir. Yuxarıda dediyimiz kimi, fizika ilə fiziklər, kimya ilə kimyaçılar məşğul olduğu halda, psixoloji xidmətlə demək olar ki, istənilən sahənin adamları məşğul olurlar.

Təhsilə psixoloji xidmətlə bağlı dövlət sənədləri, qərarlar demək olar ki, yox səviyyəsindədir. Vahid metodik göstəriş və tələblər hazırlanmayıb, ədəbiyyatla təminat qənaətbəxş deyil.

Bunların isə həm obyektiv, həm də subyektiv səbəbləri vardır. Respublikamızda ixtisaslı, yüksək səviyyəli psixoloqların sayı çox azdır. Onların da böyük əksəriyyəti təhsilə psixoloji xidmət işinə maraq göstərmirlər. Təhsil sistemində psixoloji xidmətin hələ də "Əsasnamə" si yoxdur. Psixoloqun hüquq və vəzifələri, etika qaydaları və s. müəyyən olunmayıb. Bu da təbii olaraq bir sıra problemlər yaradır. Bəzi məktəblərdə psixoloji xidmətə əhəmiyyətsiz bir iş kimi yanaşılır, digərlərində isə bütün problemləri həll etməli olan şəxs kimi baxılır. Təbii ki, hər iki yanaşma səhvdir: psixoloq nə sehrbazdır ki, hər şeyi həll edə bilsin, nə də lazımsız bir peşə sahibirdir ki, ondan texniki işçi kimi istifadə olunsun.

Bununla belə, sevindirici, ürəkaçan uğurlarımızda vardır. İlk növədə bildirməliyik ki, xeyli sayda yüksək ixtisaslı psixoloq kadrları məktəblərdə psixoloq kimi fəaliyyət göstərirlər. Artıq müəyyən qədər pozitiv təcrübə toplanmışdır.

Təhsilə psixoloji xidmət zəruri, faydalı və qaçılmazdır. İstəsək də, istəməsək də ona olan tələbat ildən-ilə artır. Onun faydalılığını insanlar daha çox dərk edirlər.

Müasir dövrdə cəmiyyətdə sivilizasiyanın səviyyəsini uşaqlara münasibətin, fiziki, əqli, mənəvi, sosial inkişaf üçün yaradılan şəraitin səviyyəsinə əsasən müəyyən edirlər. BMT, YUNESKO,YUNİSEF və digər beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə uşaq hüquqlarının qorunması, onların inkişafının təmin edilməsi birmənalı şəkildə təsbit olunmuşdur. Bizim ölkəmizdə də son illərdə uşaqların hüquqlarının qorunması, təhsil, səhiyyə və s. haqlarının yüksək səviyyədə təmin olunması üçün bir sıra qanun və qərarlar qəbul olunmuş, həyata keçirilmişdir. Təhsilə psixoloji xidmət də təhsil sisteminin bir strukturu kimi uşaq hüquqlarının qorunmasının tərkib hissəsi kimi onların təlim və tərbiyəsinin səmərəli təşkilinə, psixoloji inkişafın təmin edilməsinə, uşaqların sosial həyata hazırlanmasına xidmət edir.

Psixoloji xidmətin təşkili və strukturu yalnız təhsil sistemi ilə deyil, xalqın milli xüsusiyyətləri, sosiomədəni, tarixi inkişafı, ölkənin iqtisadi, ideoloji, siyasi sistemi ilə birbaşa əlaqədardır. Elə buna görə də müxtəlif ölkələrdə

psixoloji xidmət eyni vəzifəni yerinə yetirsə də, fərqli struktura, məzmuna malikdir. Psixoloji xidmətin başlıca vəzifəsi ilk növbədə hələ köməksiz, körpə olan uşaqların psixoloji sağlamlığını və hüquqlarını qorumaqdan ibarətdir.

Azərbaycan Respublikası keçid dövrünü yaşayır. Bu, sadəcə olaraq bir sistemdən digərinə keçid deyil. Bu həm də pedaqoji-psixoloji problemdir.

Keçid dövrü insanların düşüncə, təfəkkür, davranış tərzində, münasibətlər, dəyərlər sistemində də baş verməlidir. İnsanlar isə öyrəndikləri, uyğunlaşdıqları həyat və düşüncə tərzini asanlıqla yenisilə əvəz etmək istəmirlər. Bu mənada, təhsil sisteminin qarşısında həlli vacib olan bir sıra məsələlər durur. Yəni Azərbaycan təhsil sistemi yüksək intellektə malik, dünyada gedən proseslərdən baş çıxaran, milli-mənəvi dəyərləri bilən, ona hörmət edən, psixi və fiziki cəhətdən sağlam olan kamin şəxsiyyətlər formalaşdırmalıdır. Təbii ki, bu deyilənlərin reallaşması üçün uşaq (şagird) şəxsiyyətinə hörmət olunmalı, onun hüquqları tapdalanmamalıdır. Bunun üçün təhsil işçiləri ən azı onların yaş, cins, fərdi, psixoloji xüsusiyyətlərini dərindən bilməli, nəinki özləri bu xüsusiyyətləri nəzərə almalı, həm də valideynləri maarifləndirməlidirlər. Bu mənada müəllim və tərbiyəçilər kifayət qədər psixoloji biliklərə sahib olmalıdırlar. Hətta belə olduğu halda da məktəbin peşəkar psixoloqa, onun xidmətinə ehtiyacı qaçılmazdır.

İngiltərədən Rusiyaya gəlmiş məşhur bir iş adamına tanınmış alimlər rusların həyatından, məşhur rus alimlərindən, hərbçilərdən, kosmanavtlardan danışır və qürur hissi keçirirlər. Öz növbəsində ingilis iş adamı onlara belə cavab verir: "Həm də yaxşı olardı ki, sizin daha çox ağıllı, işgüzar menecerləriniz, idarəetmə sisteminiz də olaydı ki, xalqınız normal həyat tərzi yaşayaydı". Hesab edirik ki, ingilisin bu sözlərində acı bir həqiqət var.

Azərbaycan Respublikasında təhsil sistemi keçid dövrünün özünəməxsus mürəkkəb və məsuliyyətli bir dövrünü yaşayır. Respublikanın bazar iqtisadiyyatının tələblərinə əsasən azad, dünyəvi, demokratik bir ölkə kimi inkişafı təhsil sahəsində həyata keçirilən islahatlardan, qəbul edilən qərarlardan çox asılıdır. İslahatın uğur qazanmasında isə məktəb psixoloqlarının da üzərinə ciddi vəzifələr düşür.

Təhsil islahatında qarşıda duran mühüm vəzifələrdən biri də müəllimlərdə, məktəb rəhbərlərində, eləcə də, şagirdlərdə ağalıq-tabeçilik psixologiyasını, "vertikal təfəkkür kompleksi" ni əməkdaşlıq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, tolerantlıq psixologiyası ilə əvəz etməkdən ibarətdir. İndi şagird münasibətlər sisteminin, təhsilin obyekti yox, subyektidir.

Sovet təhsil sisteminin başlıca vəzifəsi öyrətmək, tərbiyələndirməkdən ibarət idi. Yeni təlim texnologiyalarının, humanis psixologiyanın başlıca qayəsi isə özünütəsdiq, özünüreallaşdırma, özünüfəallaşdırma, özünüqiymətləndirmə və özünüdərklə bağlıdır. Əqli hücum, diskussiyalar, snektika, sinergizm, komanda halında fəaliyyət və s. məhz həyatda, reallıqda lazım olan davranış və düşüncəni öyrədir. Əvvəlki sistemdə sözəbaxımlılıq, komanda vermək, tabe olmaq öyrədilirdisə, yeni sistemdə əsas məqsəd özünü, öz

imkanlarını fəallaşdırmağa, onu reallaşdırmağa, kamil şəxsiyyət formalaşdırmağa istiqamətlənmişdir.

Yeni sistemdə çalışan insanlar özünüidarəetməni, menecmenti öyrənir, özünü necə inkişaf etdirməyi, ətrafda gedən prosesləri dəyərləndirməyi, peşə yüksəlişini, özünütəhsili, özünütərbiyəni, rəqabətəqabillik keyfiyyətini yüksəltməyi, məqsədyönlülüyü, cari və perspektiv həyat planlarını qurmağı öyrənməyə can atırlar. Yeni sistem insanlardan ətrafdakı dəyişikliklərə, sosial tələbata uyğun olaraq və asanlıqla dəyişməyi tələb edir. Bu keyfiyyətlər isə şagirdlərə hələ məktəb illərindən öyrədilməlidir. Cəmiyyətin tələb etdiyi bu keyfiyyətlərin şagirdlərdə formalaşmasında təbii ki, məktəb psixoloqunun rolu əvəzsizdir.

Hesab edirik ki, təhsil sistemində qarşıda duran mühüm vasitələrdən biri də ümumbəşəriliklə milliliyin sərhəddini, həm də vəhdətini müəyyənləşdirməkdən ibarətdir. Biz Avropaya inteqrasiya etmək istiqaməti götürmüşük. Bu yöndə qanunlar qəbul etmişik və qəbul etməkdə davam edirik. Biz Avropa Şurasının üzvüyük. Deməli, təhsil sistemimizi Avropa standartlarına uyğunlaşdırmalıyıq. Digər tərəfdən isə soykökümüzü, milli adət-ənənələrimizi qorumağı bacarmalıyıq. Ayrı-ayrı tədbirlər keçirməklə kifayətlənməməli, sistemli, biri digərini tamamlayan kompleks işlər görməliyik. Bunun həyata keçirilməsi kadr probleminin, təhsilin idarə olunması mexanizminin, təşkilati işlərin, iqtisadi təminatın və s. yeni tələblərə, müstəqil, suveren, demokratik, azad, bazar iqtisadiyyatına keçid dövrünü yaşayan bir dövlətin tələblərinə uyğun şəkildə qurulmalıdır. Eyni zamanda, abstrakt, real həyatdan uzaq, pafos dolu fikirlər deyil, reallaşan, dinamik inkişafa xidmət edən fikir və fəaliyyətin vəhdətini təşkil etməliyik. Təbii ki, bu prosesin reallaşmasında da məktəb psixoloqu yaxından iştirak etməlidir.

Biz, məktəb psixoloqunun peşə fəaliyyəti ilə bağlı görməli olduğu bir sıra konkret məsələlər üzərində dayanmağı da məqsədəuyğun hesab edirik:

-İlk növbədə psixoloji xidmət özünün spesifik cəhətləri ilə yanaşı təhsil müəssisəsinin ümumi fəaliyyətinə uyğun olmalı, onunla ziddiyyət təşkil etməməlidir;

-Məktəb psixoloqunun aylıq, rüblük və illik iş planı hazırlanmalıdır.

Psixoloqun fəaliyyətində aşağıdakı istiqamətlərə xüsusi diqqət yetirilməlidir:

- şagirdin pasport qeydiyyatını aparmaq:
- psixoloji məsləhət almaq istəyən şagirdə, müəllimə, valideynə yardımçı olmaq;
- uşağın davranışı və emosional sferasının qeydiyyatını aparmaq;
- idrak proseslərinin inkişafını izləmək;
- şəxsiyyətlərarası münasibətləri öyrənmək;
- uşağın inkişafına dair məsləhətlər vermək.

Qeyd etmək istədiyimiz mühüm cəhətlərdən biri də məktəb psixoloqlarının öz fəaliyyətlərində müxtəlif testlərdən istifadəyə aludəlilik

göstərmələridir. Amma bir çox hallarda onların özləri də hansı testlərdən, hansı məqamlarda istifadə etməyi qarışdırırlar. Başqa sözlə, bir-iki testdən istifadə etməklə özlərinin "qəti mövqelərini" bildirirlər. Hesab edirlər ki, onların bu mülahizələri elmi əsaslara söykənir, həqiqəti əks etdirir. Lakin unudurlar ki, yalnız bir metodla (özü də insan haqqında) qəti fikir söyləmək nəinki mümkün deyil, hətta zərərli ola bilər.

Məsələnin bu cəhətinə diqqət yetirən məşhur psixoloq Q.Ayzenk yazırdı: "Xəstəliyin müalicəsində yalnız termometrdən istifadə etməyi bacaran praktikant həkimlə testlərdən ibarət kitabı oxuyub, yalnız ondan istifadə etməklə özünü peşəkar psixoloq hesab edən şəxsin heç bir fərqi yoxdur".

Psixoloqun istifadə etdiyi istənilən test ölçü vasitəsidir. Təbabətdə termometrdən hərarətin ölçülməsində istifadə olunur. Lakin heç bir həkim yalnız hərarəti ölçməklə diaqnoz qoymur. Çünki hərarətin olması xəstəliyin yalnız və yalnız bir əlamətidir və ona əsasən diaqnoz qoyub, müalicə aparmaq kəskin fəsadlar törədə bilər. Əlbəttə, burada termometri günahlandırmaq düzgün olmazdı. Hələ üstəlik heç bir həkim, deyək ki, hərarəti xətkeşlə ölçməz. Lakin bir çox hallarda praktik psixoloqlar intellektual imkanların səviyyəsini müəyyənləşdirməklə şəxsiyyətin gələcək intellektual inkişafı barədə qəti hökm verməkdən çəkinmirlər. Başqa sözlə, "hərarəti xətkeşlə ölçməyə" girişirlər. Bir çox hallarda verbal ünsiyyəti öyrənmək üçün istifadə edilən testlə "yaradıcı qabilliyəti", "məktəbə psixoloji hazırlığı" öyrənməyə çalışırlar.

Göründüyü kimi, məktəb psixoloqunun işi məsuliyyətli və zəruridir. Lakin bu o zaman faydalı olur ki, psixoloq nəzəri hazırlığa, pedaqoji hazırlığa, uşaqları və peşəsini sevmək qabiliyyətinə malik olsun. ❑

## Ədəbiyyat

1. Əlizadə Ə. Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, «Ozan», 1998.

2.Əliyev R. İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı «Nurlan», 2004.

3. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, «Mütərcim», 2007.

## MÜSTƏQİLLİK TARİXİMİZİN BƏZİ MƏSƏLƏLƏRİ

Məmməd MİRZƏLİYEV,
ARTP-nın baş mütəxəssisi

28 May tariximizə milli dövlətçiliyimizin bərpası kimi daxil olmuşdur. AXC-nın yaratdığı tarixi şəraitə diqqət yetirərkən o dövrün mürəkkəb siyasi vəziyyəti aydınlaşır. Belə ki, oktyabr çevrilişindən sonra Rusiya imperiyasının ucqarlarında siyasi proseslər daha da güclənmiş,müstəqillik hərəkatı genişlənmişdi. 1918-ci il fevralın 23-də qanunvericilik orqanı olan Cənubi Qafqaz seyimi təşkil edilmişdir. Həmin seyimə Məmmədəmin Rəsulzadə başda olmaqla 44azərbaycanlı daxil idi.

1918-ci ilin martında ermənilər azərbaycanlılara qarşı soyqırım törətdilər. Aprelin 22-də Zaqafqaziya müstəqil Federativ Respublika elan edildi, lakin burada hakimiyyətin fəaliyyəti üçün şərait olmadığından , demək olar ki, anarxiya yaranmışdı.Mayın 26-da gürcü fraksiyası Zaqafqaziya seyimindən çıxmağı qərara aldı. Bu da Zaqafqaziya seyiminin süqutuna səbəb oldu. Gürcüstan öz müstəqilliyini elan etdi. Həmin gün 27-də Azərbaycan fraksiyası Tibilisidə Məmmədəmin Rəsulzadə başda olmaqla Müvəqqəti milli şuranın yaranmasını elan etdi. Nəticədə 1918-ci il mayın 28-də Milli Şura müstəqil Azərbaycan Xalq Cümhuriyyətini elan etdi.Azərbaycanın müstəqilliyini ilk dəfə Türkiyə tanıdı. 1918-ci il iyunun 4-də Azərbaycan və Türkiyə arasında silh və dostluq haqqında müqavilə bağlandı.

1918-ci il iyunun 16-da Azərbaycan hökuməti Tibilisidən Gəngəyə köçdü.Burada Fətəli Xan Xoyskini başçılığı ilə hökumət təşkil edildi. İyunun 26-da Nazirlər Kabineti Milli ordunun təşkil edilməsi haqqında fərman verdi.Gənc respublikanın milli ordusunun, silahlı qüvvələrinin formalaşdırılması çar ordusunun iki generalına – Səmədbəy Mehmandarova və Əliaağa Şıxlinskiyə tapşırıldı. Bu vaxt Bakı daşnak bolşevik qüvvələrinin hələ də əlində idi. 1918-ci il iyunun 12-də Stepan Şaumiyanın əmri ilə «Bakı sovetinin» hərbi qüvvələri Gəncəyə hücim etməyə başladılar. Bu vaxt Ş.Şaumiyana AXC-nı dağıtmaq üçün Andronik başda olmaqla erməni dəstələri Zəngəzurda və Dağlıq Qarabağda silahlanaraq köməüə gəldi. Azarbaycan hökuməti məcbur olaraq hərbi kömək üçün Türkiyə hökumətinə müraciət ktdi. Türkiyə hökuməti 4iyun 1918-ci il müqaviləsinə əsasən qardaş ölkəyə kömək cöstərdi.

N əticədə, birləşmiş Türk-Azərbaycan ordusu Göyçay ətrafinda «Bakı sovetinin «ordusunu məhv etdi və sentyabrın 15-də Bakıya daxil oldu . Həmin vaxtdan etibarən respublikanın dövlət quruluşu prosesi yeni mərhələyə daxil oldu. 1918-ci il dekabrın 7-də AXC parlamentinin iclası keçirilir. İclasda Əlimərdan Bəy Topçubaşov parlamentin sədri seçildi. Onun başçılığı ilə Azərbaycan nümayəndələri beynəlxalq aləmdə tanınmaq üçün Avropaya getdilər. Burada çox çətin şəraitdə danışıqlar aparıldı. Nətğicədə, yalnız1920-ci il yanvarın 11-də Parisdə 1 Dünya müharibəsində qalib gələn ölkələrin

konfransında Azərbaycan Respublikası nın barədə qərar qəbul edilir. Həmin vaxtdan etibarən Sovet Rusiyası Azərbaycanı zəbt etmək barədə qarşıya qoyduğu məqsədlərini heç vaxt gizlətməmiş, bu barədə lazıüı iş aparmışvə Ermənistanın daşnak hökuməti bolşeviklərə kömək etmişdi. 1929-ci il martın 22-də Ermənistanın yaraqlı dəstələri Azərbaycanın yaşayış məntəqələrinə, DağlıqQarabağa hücum etdilər. AXC hökuməti yaranmış bəu vəziyyətdə deməkolar ki, bütün silahlı qüvvələri Dağlıq Qarabağa göndərməyə məcbur oldu. Aprelin ortalarında, Bolşevik Rusiyasının X1 ordusunun hissələri Azərbaycanın şimal səhədlərinə yaxınlaşdı. Aprelin 27-də onlar sərşəddə Çərkəz və aprelin 28-də Bakı şəhərinə daxil oldu. Azərbaycan ərazisi işğal edildi.

Beləliklə, AXC-nın yaradılması təkcə xalqımızın tarixində deyil həm də, beynəlxalq aləmdə onun xüsusi yeri vardır.

Onu da qeyd etmək lazımdır ki, təşkil edilmiş birinci koalisyon Milli hökumət bir neçə partiyaların üzvlərindən formalaşdırılmışdı. 1918-ci ildə Azərbaycanda birinci demokratik respublikanın formalaşmasından sonra o qarşısına vəzifələr qoymuşdur. Birinci vəzifə ondan ibarət olmuşdur ki, Bakı azad edilsin və Azərbaycanın paytaxtı elan olunsun. Bu məsələ1918-ci il sentyabrın 15-də həll edilmişdir. Yenicə yaradılmış AXC-nin ərazisi 114 min kvadrat metr təşkil edildiyi halda indi 86,6 min kvadrat metr təşkil edir.

Azərbaycanın görkəmli ictimai xadimi , mərhum akademik Həsən Əliyev söhbətlərində. Çızışlarında, elmi əsərlərində həmişə ürək ağrısı ilə Azərbaycanın təbiətinin, flora və faunasının qorunmasını vacib vəzifə sayırdı. Görkəmli insan uzun illər Azərbaycan təbiətinin qorunması cəmiyətinə sədirlik etmiş,canlı təbiətlə sıx əlaqə saxlamış, tez-tez təhsil müəssiələrində olmuş, şagirdlərlə, tələbələrlə görüşmüşöz tövsiyələrini, məsləhətlərini vermişdir.

Ermənistanın işğalı nəticəsində Azərbaycana 12 milyard dollar məbləğində ziyan dəymişdir. Ermənilər «Böyük Ermənistan» yaratmaq məqsədilə Azərbaycan torpaqlarını işğal etməkdən əl çəkmirlər.Demək olar ki, münaqişə zamanı 29 mindən artıq vətəndaşımız həyatlarını qurban vermiş, yüz mindən artıq insan əlil olmuş, min nəfər əsir düşmüşlər. Kənd təsərrüfatına 60 milyard dollar həcmində ziyan dəymişdir. 1 milyon əhali qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Qərbi azərbaycandan 46 min ailə qovulmuşdur. Statistik məlumatlara görə işğal edilmiş torpaqlarda ümumi sahəsi 9,1 min kvadrat sahəsi olan 150 min ev zəbt edilmişdir.

Ermənilər 219 tikinti və sənaye müəssiələrini məhv etmiş və 5 min ticarət və ictimai iaşə xidməti,600-ə yaxın ümumtəhsil məktəvini, 230 məktəbəqədər uşaq müəssisəsini, 65 texniki rehə məktəbini , 2 ali təhsil müəssisəsini dağıtmışlar.

AXC fəaliyyəti dövründə mədəniyyət və təhsil sahəsində böyük işlər gördü. Ölkənin bir çox bölgələrində ibtidai məktəblər, Qazaxda Müəllimlər seminariyası açıldı. Bakıda, Gəncədə gizirlər məktəbi yaradıldı. Ən böyük tədbirlərdən biri də 100 nəfər gəncin təhsil almaq üçün Avropaya göndərilməsi və 1919-ci ildə Bakı Dövlət Universitetinin yaradılması idi.

Ordu quruculuğu sahəsində də böyük işlər görüldü. Artıq 1920- ci ilin yanvarında 40 minlik ordu yaradılmışdı. Bu ordu 1919-cu ilin avqustunda Lənkaranda bolşeviklərin qiyamını n və 1920-ci ilin mart- aprel aylarında ermənilərin Əskəran və Xankəndində qaldırdıqları qiyamın qarşısını aldı. AXC-

nin ən böyük fəaliyyəti dövlətçiliyin bərpası, Azərbaycan xalqının azadlığının bərpasının təmin edilməsi oldu.

1920-ci ildə öz çan borcunu ödəmək üçün M.Ə.Rəsulzadəni həbsdən azad edən İ.Stalin ona AXC-nin 23 aylıq fəaliyyəti dövründə Azərbaycana heç nə vermədiyini bildirir. M.Ə.Rəsulzadə isə öz cavabında deyir ki, «Doğrudur, biz xalqa çox şey verə bilmədik, ancaq azadlığın dadını az da olsa xalqa dadızdırdıq.Budadı bilən xalq heç vaxt kölə oliaq istəməyəcək, yadelli işğalçılara boyun əyməyəcəkvə azadlıq uğrunda mübarizə aparacaq.»

O dövrdə parlamentdə 215 qanun layihəsi müzakirə edilmişvə əksəriyyəti qəbul edilmişdi. Ən böyük qanunlardan biri mətbuat azadlığı ilə bağlı idi. Bu qanunla söz azadlığı elan olundu, senzura ləğv edildi. Seçkilər haqqında qəbul edilmiş qanun nəinki Şərqdə, həmçinin Qərbdə ən demokratik seçki qanun idi.

AXC-nin süquruna obyektiv və subyektiv amillər səbəb oldu. XI Ordu 1920-ci ilin yanvarında Qafqaza yaxınlaşdı. Bolşeviklər neft Bakısını ələ keçirmək istəyirdilər. 1920-ci ilin fevralında Bakıda Kommunist partiyasının qurultayı keçirildi, siyasi üsyan xətti irəli sürüldü. Mikoyan başda olmaqla bolşeviklər X1Ordunu Bakıya dəvət etmək qərarına gəldi.

Azərbaycan parlaientində də vəziyyət gərgin idi.Aprelin 1-də N.Y usifbəylinin hökuməti istefa verdi. Yeni hökumətin yaradılması M.H.Hacinskiyə tapşırılmışdı. Rusiyaya meyilli H.Hacınski koalisyon hökumət yaratmaq üçün sosialistlərlə danışığa girdi. Partiyalar arasında çəkişmələr, mübarizələrparlamentinvə hökumətin ruslara qarşı xalqı səfərbəretməsinə, mübarizəni təşkil etməsinə mane oldu. Mikoyan başda olmaqla bir qrup kommunist Dağıstana gedərəkX1Ordunu Bakıya dəvət etdi. Aprelin 25-dən 26-na keçən gecə rus ordusu Yalamadan Azərbaycanın sərhədlərini keçdi və sürətlə Bakıya doğru irəliləməyə başladı. Bu zaman Azərbaycan ordusu Qazaxda və Qarabağda erməni qiyamını yatırmaqla məşğul idi. Bakıda isə çəmi 3 minlik polis qüvvəsi var idi. Bununla rus ordusunun qarşısını almaq mümkün deyildi. Aprelin 27-də Həmid Sultanov başda olmaqla bolşeviklər Azərbaycan parlamentinə hakimiyyəti təslim etmək üçün ultimatum verdilər. Əks halda parlamentin top atəşinə tutulacağı bildirildi Azərbaycan Hərbi Dəniz Donanmasının kommandiri Çingiz İldırım da bolşeviklərin tərəfinə keçmişdi. Belə bir şəraitdə parlament son iclasında bu məsələni çox çətin vəziyyətdə müzakirə etdi,hakimiyyətin aşağıdakı şərtlərlə kommunistlərə verilməsinə razılıq verdi; Azərbaycan öz dövlət müstəqilliyini saxlamalıdır. Azərbaycan ordusu qalmalılır;rus ordusu Bakıya daxil olmamalı,Biləcəridən Anadoluya getməlidir; bütün siyasi partiyalar öz fəaliyyətlərini leqal şəkildə davam etdirməlidirlər; hakimiyyət yalnız yuxarı eşalonu dəyişməlivə onlara qarşı repressiya olmamalıdır; 6ay müddətində myəssisələr Məclisinə dkmokratik seçkilər keçirilməli, xalqın iradəsi ilə hökumət təşkil edilməli idi.Kommunistlər hakimiyyəti bu şərtlərlə qəbul etdilər, lakin heç birinə əməl etmədilər.

Cumhuriyyət ideyaları Azaəbaycan xalqının qəlbindən heç zaman silinməmişdir. Yenidənqurma dövründə milli-azadlıq hərəkatı ərazi bütövlüyü uğrunda mübarizə ilə çuğlamışı. Azərbaycan xalqı ərazi bütövlüyü uğrunda mybarizəni mystəqillik və demokratiya uğrunda mybarizə ilə birləşdirdi ki,bu da 1991-ci il oktyabrın 18-də müstəqillik haqqında konstitusiya aktının qəbul edilməsi ilə nəticələdi.

15 illik müstəqillik yolu heç də asan olmamışdır.1991-1993-cü illərdə Azərbaycanda hakimiyyət uğruda mübarizə gedirdi. Savadsızlıq, səriştəsizlik, ordu quruculuğu sahəsində, dövlətə, iqtisadiyyata rəhbərlikdə edilən nöqsanlar nəticəsində Azərbaycan dağılmaq ərəfəsində idi. Ölkənin cənubunda və şimalında separatçı hərəkata başlanmış,Qərbdə Surət Hüseynovun qüvvələri özbaşnalıq edirdi. Bir tərəfdəndə Ermənistanın respublikamıza təcavüzü genişlənirdi.Belə bir dövrdə Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı-1993-cü il iyunun15-də o, Ali Sovetin sədri seçildi. Həmin tarixi gün sonralar Milli Qurtuluş günü elan edildi. N.Əliyev hakimiyyətə gələndən sonra bütün siyasi qiyamçıları diplomatiya yolu ilə məğlub etdi. 1993-1995-ci illər arasındakı dövr Azərbaycanda siyasi sabitlik uğrunda, dövlətçiliyin möhkəmləndirilməsi uğrunda mübarizə dövrü kimi xarakterixə edilir. Bu dövrdə dövlət çevrilişinə cəhdlərin qarşısı alındı, 1995-ci ildən başlayaraq ölkədə tam sabitlik yarandı. Sosial, iqtisadi, siyasi izahatlar aparılmağa, hakimiyyətin və dövlətçiliyin möhkəmləndirilməsi sahəsinə işlər cörülməyə başlandı. 1995-ci il noyabrın 12-də referendum yolu ilə Azərbaycan Respublikasının konstitusiyası qəbul edildi. Azərbaycanda iqtisadi və sosial inkişaffı sahəsitndə mühüm işlər görülməyə başladı. Özəlləşdirmə proqramı, kənd təsərrüfatı sahəsində islahatlarhəyata keçirildi. İnsanların hüquq və azadlıqlarının qorunması üçün xeyli işlər görüldü. 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı neft şirkəti ilə «Əsrin müqaviləsi imzalandı. 1999-cu ildə İstanbulda Qazaxstan, Azərbaycan, Gürcüstan və Türkiyə nin dövlət başçıları Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi ilə bağlı razılığa gəldilər və həmin layihə uğurla həyata keçirildi. Bakı-Tbilisi-Ərzrum qaz kəməri bu ilin sonunda istifadəyə veriləcəkdir. Bakı-Tbilisi-Qars dəmir yolu,TRASEKA İpək yolu, şimal-cənib nəqliyyat dəhlizi layihələridə reallaşacaqdır.

2003-cü il prezident seçkilərində İlham Əliyev hakimiyyətə gələndən sonra bir sıra mühüm proqramlar- yoxsulluğun azaldılması, regionların iqtisadi-inkişaf proqramları irəli sürüldü, 80 min yeni iş yeri açıldı. 2005-ci il Azərbaycanda orta illik iqtisadi artım 26,5 faiz oldu. Cari ilin son aylarında iqtisadi artım 40 faizə çatdı. Bunların hamısı sürətli inkişafın göstəriciləridir. Biz inanırıq ki, dövlətimizin müstəqilliyi liderimiz Heydər Əliyevin dediyi kimi
dönməz və əbədi olacaq. Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikası XX1əsrdə inkişaf etmiş ölkələrdən birinə çevriləcək.

Ərazimizin 20 faizi erməni təcavüzkarları tərəfindən işğal olunan, bir milyondan çox qaçqını,köçkünü olan, yüzlərlə qız-gəlini düşmən əlində əsir qalan, minlərlə övladı şəhid olan bir millətin,bir xalqın ziyalılarının bu gün susmağa ixtiyarı yoxdur.Ona görə də insanların öz hüquqlarını qoruya bilməsi üçün xalqa xidmət etmək, oxucuları maarifləndirmək, infomasiya qıtlığını aradan qaldırmaq, ictimai səfərbərlik ruhu yaratmaq hər birimizin borcu olmalıdır.

Bu gün şah damarımızda axan qanımız barmaqlarımızın ucuna süzülərək qarşımıza qoyduğumuz vərəqlərə köçürülməli, ürəklərimizə elə həkk olunmalıdır ki, hər birimizin milli ruhu oyansın, daxili azadlığımız sinəmizə sığmayıb köksümüzü qabartmasın. Bax, bu zaman öz daxili azadlığını yaşayan hər kəs sağlam ruhun ona bəxş etdiyi paydan qidalanacaq. Elə xöşbəxt həyat, sağlam düşüncə , əsl həyat,öz əqidəmizlə özümüzə qurduğumuz mənəvi dünyamızın əvəz olunmaz gözəlliyi də budur.

## ŞAGİRDLƏRİN YARADICI FƏALLIĞININ PEDAQOJİ ƏSASLARI

**Tükəzban CAHANGİROVA,**
Lənkəran Dövlət Universitetinin müəllimi,
pedaqoji elmlər namizədi

Fənlərarası əlaqənin istənilən səviyyədə tətbiqi təlim- tərbiyənin effektivliyini yüksəltməyə imkan verir və ən ümdəsi şagirdlərin yaradıcı fəallığının yüksəldilməsinə imkan yaradır. Bəs, şagirdlərin «Yaradıcı fəallığı» deyəndə nə başa düşülür? Əvvəlcə, bir anlayış kimi bu ifadənin komponentləri olan «Yaradıcı» və «Fəallıq» sözlərinə öz münasibətimizi bildirək.

«Yaradıcı» sözü hər hansı hadisəyə çox ciddi, məsuliyyətli şəkildə yanaşılması, bu prosesdə həmin iş, hadisə ilə bağlı mahiyəti emosional şəkildə duymaq, düzgün qavramaq, obyektiv qiymətləndirmək bacarığı, müəyyən fərdə məxsus spesifik xarakterli keyfiyyətin meyarı kimi izah edilir. «Yaradıcı adam», «yaradıcı uşaq», «Yaradıcı şagird» ifadələrini etimoloji məna baxımından izahına da məhz bu nöqteyi-nəzərdən yanaaşmaq lazımdır. «Yaradıcı» ifadəsini məntiqi cəhətdən tamamlayan Ən uğurlu tərəflərdən biri «Fəaliyyət» ifadəsidir, çunki «fəaliyyət» hər hansı bir şəxsiyyətin dinamik xarakteri olub, onu digərlərindən fərqləndirən cəhətlərdən başlıcasıdır. Yaradıcı fəaliyyət, ictimai əhəmiyyətə malik yeni, orijinal məhsul verən fəaliyyətə deyilir. Bu prosesdə yaradıcılıq həm fəaliyyətin məzmunundan, həm də şəxsiyyətin (şagirdin) fərdi qabiliyyətindən asılıdır. Konkret halda uşaqların yaradıcı fəaliyyəti yaşlılarınkında seçilir və onların yaradıcı fəaliyyəti nəticədə nə isə yeni, orijinal məhsullar verən, onların fərdi meyl, qabiliyyətləri və təcrübəsini ifadə edən fəaliyyət nəzərdə tutulur. Nəticədə fəaliyyət «yaradıcı» sözü ilə birlikdə işlənəndə «yaradıcı fəaliyyət» kimi pedaqoji termin statusu qazanır, pedaqoji prosesdəki iş və hadisələrin həm qnesioloji, həm də emosional qavranılması və qiymətləndirilməsinin dinamikasının fərdlərdə ifadəsi kimi başa düşülür. Yaradıcı fəallıq görüləcək hər hansı bir işin müstəqil və vicdanla yerinə yetirilməsi, şagirdlərdə ictimai borcun, əxlaqi məsuliyyətin dərk edilməsi, kollektivçilik, vətənpərvərlik, təşəbbüskarlıq, işgüzalıq, səliqəlilik, dəqiqlik prinsiplərinin işdə rəhbər tutulması, mənəvi- estetik keyfiyyətlərə sövq edən bir sıra əxlaqi normaların tərbiyə edilməsini nəzərdə tutur.

Bundan başqa, yaradıcı fəallıq şagirdin mənəvi və əxlaqi həyatının çox geniş bir sahəsini-onun həyatla geniş şəkildə təmasda olmasını, ictimai mühitdə və ya hər hansı bir konkret vaxt şəraitində fəal iştirakını, möhkəm xarakterə, iradəyə, əqidəyə malik olmasını da nəzərdə tutur.

Şagirdin təlim prosesində yaradıcı fəallığı onun bilik, bacarıq və vərdişlər sistemini təmin etməklə, təbiətdə, incəsənətdə, insanın davranışı və fəaliyyətindəki reallıqlar haqqında tam təsəvvürlər yaratmaqla yanaşı, onu əhatə edən hadisə və proseslərin qarşılıqlı əlaqəsini qavramaqda da mühüm rol oynayır.

Şagirdin yaradıcı fəallığı dedikdə, yaradıcılıq, təşəbbüskarlıq, müstəqil mühakimə yürütmək vərdişləri tələb edən fəaliyyət nəzərdə tutulur. Bu fəaliyyət prosesində öyrəniləcək materiala diqqətlə yanaşmaq, müəllimin izahatını şüurlu surətdə qavramaq, verilən informatik məlumatların konkret faktlarını yadda saxlamaq və bu faktları yaradıcı şəkildə müqyaisə edib nəticələr çıxarmaq, qazanılan biliklərin praktik tətbiqinə nail olmaq vacib hesab edilir. Şagirdləri yaradıcı fəallığa istiqamətləndirən bu işlər bilavasitə müəllimin rəhbərliyi altında aparılır, lakin bu heç də o demək deyildir ki, şagidlər müstəqil işləmək-dən təcrid olunurlar. Əksinə, şagidlərin yaradıcı fəallığa istiqamətləndirilməsi zamanı müəllimin rəhbərliyi altında onları müstəqil şəkildə çalışmağa öyrətmək lazımdır, çünki ayrı- ayrı fənlərin əlaqəli tədrisi zamanı şagirdlərin müstəqil çalışmaları onların təlimə marağını artırır, veridən biliklərin yaradıcı şəkildə qavranılmasına şərait yaradır.

Şagidlərin yaradıcı fəallığını bir fənn daxilində üzə çıxarmaq mümkün olduğu kimi bu, ayrı-ayrı fənlərin əlaqəli tədrisi zamanı özünü daha qabarıq göstərir. Ana dili (oxu), musiqi və təsviri incəsənət dərslərinin əlaqəli tədrisi zamanı şagidlərin yaradıcı fəallığını yüksəltmək üçün daha geniş imkanlar vardır. Ona görə də göstərilən fənlərin əlaqəli tədrisi zamanı, hər şeydən əvvəl, idraki fəaliyyət genişlənir ki, bu da yaradıcı fəallığın yüksəldilməsinə ən başlıca amillərdən sayılır. Qeyd etmək lazımdır ki, fənlərin əlaqəli tədrisi şagirdlərin idrak fəaliyyəti faktlarının müqayisəli qavranılasına da şərait yaradır. Biz şagidlərdə idrak fəaliyyətinin faktları dedikdə, müəllimin suallarına şagirdlərin verdikləri cavabları, onların dərsdə bir-birilərinə verdikləri suallar və cavabları, şifahi tapşırıqları yerinə yetirmələrini, yazı işlərini və srbəst fikirlərinin başqa növ təzahür formalarını nəzərdə tuturuq.

Şagirdlərin bu cür sərbəst iş növlərini iki əsas qruppa bölmək olar: şagirdlərin faktik biliyi və məntiqi təfəkkür qabiliyyəti. Bu işlər müəllimlərə imkan verir ki, bir şagirdin fikrini, mühakiməsini, başqasının fikir və mühakiməsi ilə tutuşdursun. Şagirdlərin fəaliyyətində belə cəhətlərin müqayisəsi həm düzgün, həm də düzgün olmayan cavabların, fikirlərin müəyyənləşdirilməsinə, onların səbəbinin aşkara çıxarılmasına, təlim alanların bilik və bacarıqlarındakı kəsrlərin aradan qaldırılmsına real şərait yaradır.

Belə müqayisələrin ən başlıca üstünlüyü isə uşaqların yaradıcı fəallığının inkişafına xidmət etməsidir. Deməli, yaradıcı fəallığı təşkil edən və yuxarıda sadaladığımız vacib komponentlər, əgər onun elmi mexanizmi hesab olunursa, bu mexanizmin hərəkətverici qüvvələri, onun elmi əsaslarının mövcudluğu ilə bağlıdır, çünki fənlərarası fəlqənin imkanlarından istifadə edərək şagirdlərin yaradıcı fəallığının yüksəldilməsi zamanı əgər onun ən başlıca elmi əsasları nəzərə alınmazsa, problemin həllində istənilən nəticəni hasil etmək olmaz. Buna görə də məsələnin elmi əsaslarının ən başlıdası isə pedaqoji və psixoloji əsaslrından bir qədər ətraflı söhbət açılmalıdır.

Şagirdlərdə yaradıcı fəallığın inkişafında pedaqoji əsasların nəzərə alınması və bu əsaslar üzərində dünyagörüşün, bilik, bacarıq və vərdişlər sisteminin formalaşdırılması çox vcaib şərtlərdəndir. Ona görə ki, hər hansı bir pedaqoji prosesdə müəyyən tələblər qoymadan, didaktik prinsiplərə istinad etmədən, spesifik formalar müəyyənləşdirmədən, eyni zamanda kommunikativ və konstruktiv priyomların gücündən istifadə etmədən şagirdlərin yaradıcı fəallığını

nəinki inkişaf etdirmək olmaz, hətta onu üzə çıxarmaq belə qeyri- mümkün olar.

Şagirdlərin yaradıcı fəallığının inkişaf etdirilməsində, əsasən, aşağıdakı tələblər gözlənilməlidir:

1. Şagirdin hansı dərsdə fəallıq göstərmələri nəzərə alınmalı və bu kontekstdə:

a) onun fənnə marağı izlənilməli, öyrənilməli və dəqiqləşdirilməlidir;

b) hansı fərdi yaradıcılıq keyfiyyətinə malik olması öyrənilməlidir[1].

2. Şagirdin dərsə davamiyyəti nəzarətdə saxlanmalıdır ki, fəallığın mahiyyəti üzə çıxarılsın.

3. Şagirdin ailədəki fəaliyyətinin dərəcəsi müəyyənləşdirilməli və bu baxımdan onun:

a) ailədəki fəallığı dərsdəki fəallığı ilə müqayisəli şəkildə öyrənilməli;

b) ailədəki fəallığı ictimai işlərdəki fəallığı ilə müqayisəli öyrənilməlidir.

Şagirdin hər hansı bir fənnə marağını konkret bir dərsdəki fəallığı ilə müəyyənləşdirmək çox vacibdir. Yeni bilik və bacarıqların verilməsində müəllim tərəfindən yaradılan problem-məsələlərin tətbiqi şagirdlərin marağına dərsin sonrakı gedişində onların fəallığının artmasına səbəb olur. Yaranan manənin aradan qaldırılması zamanı, adətən, yeni biliklərlə şagirdlərin mövcud bilikləri arasında daxili əlaqə yaradılır, əvvəlki bilik və həyati müşahidələr daha da dəqiqləşdirilərək yeni biliyin tərkib hissəsinə çevrilir, öyrədilən yeni biliyin praktik mənası aydınlaşdırılır, şagirdlərin müstəqil işləri təşkil edilir, yeni biliyin şüurlu mənimsənilməsi üçün emosional zəmin yaradılır, öyrənilən yeni bilik əsalandırılır, təcrübəyə tətbiq edilir. Müəllimin rəhbərliyi altında mənəvi ehtiyaclar yaradılması və ödənilməsi şagirddə əqlin itiliyini inkişaf etdirir, onun marağını artırır, şagirdi öz bilik dairəsindən kənara çıxmağa vadar edir, onun diqqəti yeni məsələ üzərində mərkəzləşir, fikri fəaliyyətə gəlir. Müəllimin pedaqoji ustalığı şagirdin əldə etdiyi keçmiş biliklə yeni bilik arasında yaranmış çətinlik və ziddiyyətləri göstərməklə, bunları aradan qaldırmaq üçün şagirdləri hazırlamaqda, yeni sual və tapşırıqların şagirdlər tərəfindən yerinə yetirilməsini təşkil etməkdə özünü göstərir.

Şagirddə mənəvi ehtiyac yaratmağın yollarından danışarkən qeyd edək ki, ziddiyyət və çətinliklərin yaradılması şagirdlərin mövcud bilikləri ilə öyrəndikləri biliklər arasında üzvi əlaqəyə kömək edir. Şagirdlərin yaradıcı fəallığı müstəqil işləmə və axtarıcılıq meyllərinin inkişafından da çox asılıdır. Bunun üçün müəllim bir sıra metodların gücündən istifadə etməlidir. Eyni zamanda sadədən mürəkkəbə prinsipi üzrə həyata keçirilən bu işin səmərəli təşkili üçün müsahibə, müşahidə, problemli şərh, əks əlaqə kimi praktik metodlardan daha geniş, həm də ustalıqla istifadə olunmalıdır. Bu zaman aşağıdakı tələblər əhatəsində iş aparılarsa, daha effektli olar:

1.Müəllim şagirdlərin əyani materialların (ədəbi, bədii, müstəqil və s.) üzərinədki müşahidələrini inandırıcı şəkildə ümumiləşdirməlidir.

2.Deduktiv yolla verilən biliklər problemli şərhin köməyi ilə yaradıcı şəkildə mənimsənilməlidir.

---

[1] Kazımov N. Məktəbdə müqyaisə üzərində işin nəzəriyyəsi və təcrübəsi. Bakı, «Maarif», 1972, səh. 156-157.

3. Biliklərin inteqrativ şəkildə öyrənilməsinə üstünlük verilməlidir.

4. Uşaqlara verilən nəzəri bilkilər onların gücləri çatacağı ən yüksək çətinlik səviyyəsində qurulmalıdır.

5. Təlim tapşırıqlarının yerinə yetirilməsində, ümumiyyətlə, təlim prosesində tempin tədricən artırılması nəzərdə saxlanmalıdır.

6. Nəzəri biliklərin artırılması və aparıcı rol oynaması məktəblilərin təlim prosesini şüurlu anlamaları təmin edilməlidir.

Ənənəvi proqram üzrə şagirdlər müəllimin dedikləri dərsi dinləyir, yadda saxlayır, təkrarlayır, cavab veirlər. Onlar bu prosesdə əsasən yaddaşa əsaslanırlar, amma müasir dövr müasir təlim metodarı şagirdlərin qarşısında yeni vəzifələr qoyur. Hazırda uşaqlardan düşünmək, müqayisə etmək, mühakimə yürütmək, hadisələrin səbəbini tapmaq, nəticə çıxarmaq «ixtira etmək» tələb olunur.

Müəllimlər bu tələbləri və onlardan irəli gələn konkret vəzifələri yaxşı dərk etsələr, şagirdləri yaradıcı fəallığa müvəffəqiyyətlə hazırlaya bilərlər. ❑

Ədəbiyyat


1. Kazımov N. M. Məktəbdə müqyaisə üzərində işin nəzəriyyəsi və təcrübəsi . Bakı, «Maarif», 1972, səh. 156-157.
2. Veysova Z. Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Bakı, 2004, 196 s.
3. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, 2006.
4. Əliyev E. Şagird şəxsiyyəninin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu. «İbtidai məktəb və mətəbəqədər tərbiyə», 2001, №1,
5. Məmmədov S. Müəllim-şagird münasibətlərinin əməkdaşlıq pedaqogikası əsasında qurulması şagirdlərin təlim marağının artırılmasında mühüm vasitədir. «İbtidai məktəb və məktəbəqədər tərbiyə», Bakı, 2000, №3.



Şagirdlərin yaradıcı fəallığının pedaqoji əsasları

Rezume

Məqalədə ibtidai sinif şagirdlərinin yaradıcı fəallığının pedaqoji əsasları şərh olunur. Qeyd edilir ki, şagirdin yaradıcı fəallığı onun bilik, bacarıq və vərdişlər sistemini təmin edir. Şagirdin yaradıcı fəallığı dedikdə, yaradıcılıq, təşəbbüskarlıq, müstəqil mühakimə yürütmək vərdişləri tələb edən fəaliyyət nəzərdə tutulur.

## BİZİM İŞ YOLDAŞLARIMIZ

### TƏMƏL QOYULUR

> «.....Müəllimlik peşəsi ən yüksək qiyməti olan peşədir. Həyatını müəllimlərə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır.
>
> Heydər Əliyev

Təhsil İslahatı Proqramına əsaslanaraq həyata kecirilən islahatlar müəllimlərin qarşısında yeni tələblər qoyur. İndi müəllimlərin işi əhəmiyyətin fəaliyyəti ilə daaha sıx birləşir. Təhsilin müasirləşməsi şəraitində işləyən müəllim öz fəaliyyətini dərsə verilən müasir tələblərə əməl etməyə, müasir, interaktiv təlim metodlarından, yeni tədris texnalogiyalarından istifadəyə xüsusi diqqət yetirməlidir. Üşaqlarda yaradıcı təfəkkürü inkişaf etdirmək, onları müstəqil fəaliyyətə, axtarıcılıq işlərinə, tənqidi və yaradıcı fəaliyyətə qoşmaq çox mühüm vəzifədir.

Təhsil sahəsində aparılan islahatlar cəmiyyət üjün hərtərəfli inkişaf etmiş, sərbəst fikirli, baş verən hadisələrə münasibət göstərilib nəticə cıxarmağı bacaran, sağlam düşüncəli gənclər yetişdirmək tələbini qoyur. İnkişaf yolu keçmiş gənclər cəmiyyətin aparıcı qüvvələri olacaq respublikanın xoşbəxt gələcəyini qoruyub inkişaf etdirəcəkdir. Bu vəzifələrin ghdəsindən layiqincə gəlmək ücün müəllim daim çalışmalı, inkişafdan geri qalmamalı, hazırlığını fasiləsiz artırmalıdır. TSİL-nin komponentləri arasında da «müəllim hazırlığı» təhsil siyasətinin prioritet məsələlərindəndir.

Müəllim əməyəi, hazırlığı ümummilli lider Heydər Əliyev tərəfindən həmişə yüksək qiymətləndirmiş, onların fəaliyyəti diqqət mərkəzində olmuşdur. Bu stareji işi Prezident İlham Əliyev cənabları da uğurla davam etdirir.

Həqiqətən də tədrisin keyfiyyətinin yüksəldilməsi, təhsildə həyata kecirilən islahatların səmərəliliyi bilavasitə müəllim hazırlığından asılıdır. Müəllim təhsilin əhəmiyyətini dərindən dərk etməli, gözəl mədəniyyətə, tədris etdiyi fənn haqqında geniş məlumata malik olmalı, şagird fəaliyyətini təşkil etməyi bacarmalı, onlarda vətənpərvərlik hisslərini inkişaf etdirməli, onları milli dəyərlərimizə, adət-ənənələrimizə maraq və məhəbbət ruhunda tərbiyələndirməyə nail olamalıdır.

Təhsil İslahatı Proqramının müəllimlərin qarşısında qoyduğu tələbləri ləyaqətlə həyata keçirən, tədrisin əsas istiqamətləri olan şagirdlərin subyektliyini, müəllimin bələdçiliyini nəzərə alan, təhsilin məzmun və forma yeniliyini işində tətbiq edən sinif müəllimləri çoxdur. Onlardan biri də Nərimanov rayonundakı 200 nömrəli məktəbin III sinif müəllimi R. Babayevadır. «İlin ən yaxşı müəllimi» müsabiqəsinin qalibi «Xan qızı Natəvan» mükafatına layiq görülmüş, bu müəllim hərətərəfli inkişaf etmiş şagirdlər yetişdirmək üçün əlindən gələni əsirgəmir. Şagirdlərin şəxsi keyfiyyətləri, bacarıqları, maraqları, onlarda vətəndaş kefiyyətlərinin inkişafı, onların müasir həyata uyğunluğu və cəmiyyət üçün gərəkli vətəndaş kimi hazırlanmaları müəllimin işinin ana xəttini təşkil edir. Gənc müəllimlər üçün örnək olan dərsləri müxtəlif metodlara əsaslanmaqla «öyrənməyi öyrətmək» məqsədini daşıyır.



Bütün dərslərini zəngin əyaniliklə quran Rəmziyyə müəllim dərsdənkənar tədbirlərin şagird həyatındakı rolunu da yüksək qiymətləndirir. O başa düşür ki, şagirdlər arasında mehribanlıq və qarşılıqlı hörmət hisslərini inkişaf etdirməkdə, onların dünyagörüşlərini genişləndirməkdə yeni texnologiyaların rolu nə qədər çoxdursa, sinifdənxaric tədbirlərin də əhəmiyyəti o dərəcədə vacibdir. Onun şagirdləri Azərbaycanın keçmişi və indisi, adət-ənənələrimiz, ulularımız, müqəddəslərimiz haqqında çox geniş məlumata malikdirlər. Bütün tarixi günləri və bayramları təntənəli qeyd etmək adət halını almışdır.

Keçirilən tədbirlərin təkrarsızlığı, uşaqların sərbəst hərəkətləri, səlis və ifadəli nitqləri müəllimin gərgin zəhmətinin nəticəsidir.

Keçəcəyi mövzunun əhatəliliyinə və dərinliyinə çalışan müəllim uşaqlara zəngin məlumat çatdırmağa nail olur. Novruz, müqəddəs Ramazan, Qurban bayramına həsr olunmuş materialları tərtib edərkən xalqımızın keçdiyi tarixi yolları şagirdlərə xatırladır, onlara tariximizə maraq və sevgi hisslərini aşıyır.

İnteraktiv təlim metodlarının tətbiqinə geniş yer verən müəllim Üqurban bayramı» mövzusunu qruplarla iş şəraitində tədris etdi. Dərs yekunlaşdırılarkən «Karusel» komandasına üstünlük verildi. Qrupun üzvləri dinimizin tarixinə dair geniş məlumat verdilər. Uşaqlar Qurani-Kərimin hər bir müsəlmanın müqəddəs kitabı olduğunu, «Quran» sözünün mənasını (oxumaq, tələffüz) açıqladılar. Dinin şaxələri –namaz, oruc, cihad, xums, zəkat, həcc haqqında danışmaqla bərabər namazın insan həyatına müsbət təsirlərini də sadaladılar:

-Namaz allahı ən yaxşı və ən üstün yadetmə vasitəsidir.

-Namaz günahlardan uzaqlaşma vasitəsidir.

-Namaz qılan təmizliyini gözləməklə öz sağlamlığını bərpa edir.

-Namaz qılan vaxt insan rejimə riayət edir.

-Namazın ictimai vəhdət cün misilsiz əhəmiyyəti var.

-Namaz qılan gündə üç dəfə, hər 5-6 saatdan bir özünü Allah qarşısında hiss edir.

Müəllimin «Biz kimik?» sualına islam dini, müqəddəs kitabımız Qurani-Kərim, peyğəmbərlərimiz, müsəlmanların sayı, yaşadıqları ölkələr və s. haqqındakı məlumatlarını nümayiş etdirdilər. Firuzə, Tahir, Leyla, «Sübhanallah» mahnısını ifa edib, qurban bayramının yaranma tarixi haqqında danışdılar. İbrahimin (ə) oğlu İsmayılla dağa yollanması, yuxusu haqqında oğluna danışması oğlunun «ey ata, Allahın fərmanını yerinə yetir» deməsindən sonra bıçağı oğlunun boğazına möhkəm sıxsa da kəsməməsi, dilə gəlib: «Xəlil (İbrahim) mənə deyir kəs, ancaq Cəlil (Allah) deyir ki, kəsmə» deməsi ... Allahın rızası ilə qoyun qurban kəsməsi haqqında uşaqların danışığı televizorda görüntülərlə müşayiət olunurdu.

Şagirdlər işçi vərəqələrində düzgün və cəld işlədilər. Peyğəmbərlərimizin hikmətli sözlərini özlərinə məxsus məlahətlə əzbər söylədilər:

-«Beşikdən qəbrədək elm axtarışında olun».

-«Elminizi başqalarına öyrədin və başqalarının elmini öyrənin».

-«Ən aciz adam odur ki, dua etməyə də acizdir, ən xəsis adam odur ki, salam verməyə də xəsislik edir».

-«Bir qəlbdə quran özünə yer tutarsa, Allah o qəlbə əzab verməz».

Müqəddəs Məkkə ziyarətində olmuş (hacı) müəllim çəkdirdiyi vidio lenti nümayiş etdirdikcə görüntülərə əsaslanmaq, qurban bayramının yaranma tarixi və əhəmiyyəti haqqında daha ətraflı danışmaqla uşaqların məlumatlarını dərinləşdirdi. O bildirdi ki, dahi şairlərimiz Nizami Gəncəvi, Məhəmməd Fizuli, astrologiya eliminin banisi Nəsirəddin Tusi bütün əsərlərini «Bismillahir-rəhmanir-rahim» sözləri ilə Allahın adı ilə başlamışlar. O, dahi Nizaminin kəlamlarını sitat gətirdi:

Döymə bu dünyanın hey qapısını, Nizami
Döyürsənsə, dinin döy qapısını, Nizami!

Olmasın dünyada elə padişah,
Bilməsə ki, ondan böyükdür Allah!

Daha sonra müəllim islamın müqəddəs şəhəri Məkkəyə gedib Kəbəni və onun Qara daşını (Həcərul-Əsvəd) ziyarət etməyin hər bir müsəlmanın arzusu olduğunu dedi və ulu öndərimiz H. Əliyevin Məkkədəki Həcc ziyarətindən, həcc əməllərini yerinə yetirəndən sonra Allah-taladan xalqımıza əmin amanlıq diləməsindən danışdı. Qeyd etdiki, onun layiqli davamcısı -hörmətli prezidentimiz İlham Əliyev cənabları da Bakı şəhərində Qafqazda analoqu olmayan böyük bir məscidin tikilməsi üçün sərəncam verməklə islam dininə olan hörmət və sayğısını göstərmişdir.

Müəllimin sakit səsi, şagirdlərin ifadəli bıxışları və əsrarəngiz mənzərələr elə vəhdət təşkil edirdi ki, adam bu ecazkar təsirdən ayrıla bilmirdi...

Sonda qruplar tərəfindən hissə-hissə söyləyən şeir də dində elmə verilən qiyməti bir daha xatırlatmaqla uşaqlarda bütün dinlərə ehtiram, adət-ənənələrimizə hörmət, vətənə məhəbbə, elmə maraq hisslərini inkişaf etdirirdi.

Bənzəyir zahirən insan-insana,
Adəmdir atamız, Həvvadır ana.
Analar bəsləmiş bətnində bizi,
Atalar dünyada ləyaqət rəmzi.
Nəsəblə öyünmək olsa da şərəf,
Torpaqla su olmuş insana sələf.
Əsildən, nəsəbdən axtarsan bir iz,
Şərəflə səxavət soyundanıq biz.
Fəzilət məxsusdur elm əhlinə bil,
Onlar düz yoldadır azğınlar deyil.
Yaxşı əməl ilə ölçülər insan,
Alimə düşməndir şübhəsiz nadan.
Elm dalınca get daima axtar,
Nadanlar ölüdür, alimlər yaşar...

*( «Divani-Əmir», Əli ibn Əbiü Talib)*

Tarixi hadisələrin təsvirləri aulmış yazı taxtasının qarşısında ürək sözlərini söyləyən həmkarları, qiymətli məlumatlar öyrəndiklərini etiraf etdilər.

Belə dərs və tədbirlər nəinki şagirdlərin, yaşlıların da müqəddəslərə, ziyarətgahlara, ululara hörmət və məhəbbət hisslərini inkişaf etdirir. Vətəndaşlıq hissləri, vətən üçün yaşamaq əzmi də belə yaranır.

Psixoloji təsir və tərbiyə də budur!

Belə qurulan təlim-tərbiyənin təməli də sarsılmaz olur!

**Fəridə MÜRSƏLOVA,**

Bakı şəhər Təhsil İdarəsinin
Nərimanov - Nizami bölməsinin
metodisti

# PEDAQOJİ EKSPERİMENT

## YENİ «ƏLİFBA» DƏRSLİYİ ÜZRƏ EKSPERİMENTİN NƏTİCƏLƏRİ

2006-cı ildə Y.Kərimov və Ə.Osmanlı tərəfindən hazırlanmış «Əlifba» dərsliyi quruluşuna və sisteminə görə mövcud dərslikdən əsaslı şəkildə fərqlənir. Dərslikdə mövcud «Əlifba» dərsliyinin məzmunu saxlanmışsa da, hər gün şagirdlərin müstəqil fəaliyyətini təmin etmək məqsədilə xüsusi çalışmalar verilmişdir. Bu çalışmalar dünyada geniş yayılmış şagird dəftərlərini əvəz edir. Beləliklə, kitab dərslik-dəftər xarakteri daşıyır. Çalışmalarda ilkin oxu vərdişlərinin aşılanmasına, yazı texnikasının öyrədilməsinə, lüğət ehtiyatının zənginləşdirilməsinə, tutuşdurma, müqayisə etmə yolu ilə məntiqi təfəkkürün inkişafına, inteqrasiyaya, rabitəli nitqin inkişafına, bir sözlə, şagirdlərin yaradıcı fəaliyyətinin formalaşmasına xidmət edən materiallar verilmişdir.

Mövcud dərsliklərə nisbətən böyük formatda çap olunmuş bu dərsliyinin eksperimental yolla sınaqdan keçirilməsi nazirlikdən xahiş olunmuş, nazir M.C.Mərdanovun 11 avqust 2006-cı ildə verdiyi 649 nömrəli əmri ilə bilavasitə Təhsil Nazirliyinin tabeliyində olan Elitar Gimnaziya, İntellekt liseyi, Gəncə şəhərindəki 5 nömrəli, Sumqayıt şəhərindəki 12 nömrəli, Zaqatala şəhərindəki 3 nömrəli, Lənkəran şəhərindəki 4 nömrəli, Quba raynunun II Nügədi kəndindəki 1 nömrəli, Salyan rayonu Yuxarı Xalac kəndindəki orta məktəbin hər birinin bir I sinfində eksperiment qoyulmasına icazə verilmişdi. Eksperimentin keçirilməsi üçün ciddi hazırlıq işi getmiş, şagirdlər üçün pulsuz dərsliklər, dərs vəsaitləri, müllimlərin dərsliklərlə işləmələri üçün rəhbərlik hazırlanmış, Bakıda bir həftəlik treninq keçirilmişdir. Dərs ili başlananda eksperimentator bütün eksperimental siniflərdə pedaqoji diaqnostikanın köməyi ilə uşaqların sağlamlıq vəziyyəti, təlimə hazırlıqları səviyyəsi ilə tanış olmuş, müəllimlərlə söhbət keçirmiş, onlara tövsiyələr vermiş, eksperimentin normal şəraitdə aparılması üçün şəraitin yaradılmasını təmin etmişdir.

Eksperimentator hər bir məktəbdə paralel I siniflərlə də maraqlanmış, uşaqların və müəllimlərin hazırlıqları ilə tanış olmuş, müəllimlərin səviyyələrinin təxminən bərabərliyi təmin edilmişdir.

Eksperimentin maraqlı cəhəti odur ki, müəllimlər ciddi tədqiqat işinə qoşulmuşlar. Onların bir çoxu bu sahədə necə səriştəli olduqlarını

nümayiş etdirmişlər. Müəllimlər hər gün təlim prosesində qarşıya çıxan çətinliklər, maraqlı hadisələr, şagirdlərin sualları, dərsliklərin qüsurları haqqında qeydlər aparmışlar.

Salyanın Yuxarı Xalac kəndindəki eksperimental sinfin müəllimi şagirdləri dərs ilinin əvvəlində həkim müayinəsindən keçirmiş, sonralar təlimin şagirdlərin səhhətinə təsirini izləmiş, dərs ilinin axırında yenə həkim müayinəsinən keçirərək hər uşaqla əlaqədar qeydlər aparmışdır. Uşaqların səhhətində ciddi dəyişiklik baş verməmişdir.

Zaqatala şəhərindəki Ş.Qurbanov adına 3 nömrəli, Gəncə şəhərindəki 5 nömrəli məktəbin müəllimləri hər bir şagird üçün xüsusi dəftər ayıraraq il boyu onların fəaliyyətini izləmiş, pedaqoji –psixoloji rəy vermişlər.

Sumqayıt şəhər N.Tusi adına 12 nömrəli orta məktəbin müəllimi başqalarından fərqli olaraq hər bir dərslə əlaqədar ayrıca qeydlər aparmış, dərslikdəki mətnlərin, çalışmaların necə qavranılmasını təsvir etmişdir. Quba rayonu II Nügədi kənd orta məktəbinin müəllimi də eksperimental fəaliyəti ilə əlaqədar xüsusi qeydlər aparmışdır.

Bütün bunlar müəllimlərin yeni dərsliklə işləməyə marağının və yaradıcı fəaliyyətinin nəticəsidir.

Bəs eksperiment nə göstərdi? Təhsil nazirinin əmrində eksperimentin nəticələri barədə dərs ili başa çatdıqdan sonra hesabat vermək tələb olunmuşdur. İl ərzində bəzi məktəblərdə yüngül monitorinq keçirməyimiz nəzərə alınmazsa, dərs ilinin axırında yoxlama hər bir rayonun (şəhərin) təhsil şöbəsinə etibar olundu. Bundan məqsəd nəticələrin obyektiv qiymətləndirilməsini təmin etmək idi. Bu məqsədlə təhsil şöbələrinin müdirlərinə rəsmi məktub və yaddaş göndərildi. Yaddaşa əsasən şagirdlərin oxu vərdişlərinə yiyələnmələrinin səviyyəsi, üzündənköçürmə və imla yazma bacarıqları (imla mətni təqdim edilməklə), nitq vərdişləri (lüğət ehtiyatının zənginləşməsi, nəqletmə vərdişlərinə, rabitəli şifahi nitqə necə yiyələnmələri və s.) yoxlandı.

Müəllimlərin hesabatlarına və yoxlamanın nəticəsinə əsasən eksperimental siniflərdə vəziyyətin xeyli ustün olması özünü göstərdi.

Eksperimental və kontrol siniflərdə şagirdlərin oxu texnikasına yiyələnmələrinin göstəriciləri (eksperimental sinifdə 181, kontrol siniflərdə 159 şagird iştirak etmişdir).

Cədvəldən göründüyü kimi, eksperimental siniflərdə bütöv sözlərlə oxuyanlar iştirak edənlərin 67,4 faizini, kontol siniflərdə isə 47,7 faizini təşkil edir. Hərfləyə-hərfləyə oxuyanlar və oxuya bilməyənlər, yəni təlimin həmin mərhələsində tələbə cavab verməyənlər eksperimental siniflərdə 2,2 faiz olduğu halda, kontrol siniflərdə 10 faizdir.

Şagirdlərin yazı texnikasına yiyələnmələri, hərfləri necə yazmaları, onları sözdə necə bitişdirmələri diqqət mərkəzində olmuşdur. Dərs ilinin ortasında eksperimentator şagirdlərin xətti ilə tanış olmuş, sözləri necə yazmaları üzrə iş aparmış (lüğət üzrə imla), müəllimlərə metodik göstərişlər vermişdir. Dərs ilinin axırında aşağıdakı mətn üzrə imlanın yazdırılması tələb edilmişdir.

Qardaşlar

Qardaşımın dörd yaşı var. O, bağçaya gedir. Orada şəkil çəkir, şeir əzbərləyir, saymağı öyrənir. Bağçada nəğmə oxumağı da öyrədirlər.

Belə bir mətnin yazdırılmasından məqsəd uşaqların aşağıdakı çətin halların öhdəsindən necə gələ bildiklərini aşkara çıxarmaq idi.

dörd – dört, dürt
bağçaya– baxçaya, bağçıya, baxçıya
gedir– gedil, dedir, dedil
şəkil– şikil
çəkir– çekir
şeir– şer, şeyir

Yazı işlərinin nəticəsi ikinci cədvəldə verilib.

Cədvəldən məlum olur ki, eksperimental siniflərdə yoxlamada iştirak edənlərin 48,4 faizi, kontrol siniflərdə iştirak edənlərin isə 26,9 faizi «5» qiymət, eksperimental siniflərdə şagidlərin 4,9 faizi, kontrol siniflərdə isə şagirdlərin 9,5 faizi «2» qiymət almışdır.

Eksperimental siniflərdə şagirdlərin axtarıcılıq qabiliyyətinin, sərbəst düşünmə, fikir söyləmə, fikrini sübuta yetirmə bacarıqlarının, məntiqi təfəkkürünün, rabitəli nitqinin inkişafı üzrə yaxşı nəticələr alınmışdır.

Müəllimlərin məktəb rəhbərlərinin, təhsil işçilərinin dediklərinə görə bu dərslik müəllimi interaktiv fəaliyyətə qoşmaqla daha effektiv nəticələr əldə etməyə imkan verir.

Eksperimental və kontrol siniflərdə şagirdlərin oxu texnikasına yiyələnmələrinin göstəriciləri (Eksperimental siniflərdə 181, kontrol siniflərdə 159 şagird iştirak etmişdir).

| Oxunun keyfiyyəti | Elitar Gİmnaziya | | İntellekt liseyi | | Sumqayt 12 nömrəli | | Gəncə 5 nömrəli | | Lənkəran 4 nömrəli | | Zaqatala 3 nömrəli | | Quba II Nügədi | | SAlyan Yuxarı Xalac | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | E 30 nəfər | K 29 nəfər | E 36 nəfər | K 32 nəfər | E 15 nəfər | K 14 nəfər | E 20 nəfər | K 12 nəfər | E 20 nəfər | K 12 nəfər | E 20 nəfər | K 13 nəfər | E 21 nəfər | K 21 nəfər | E 19 nəfər | K 19 nəfər |
| Bütöv sözlərlə | 21 | 12 | 30 | 22 | 12 | 6 | 16 | 10 | 14 | 6 | 9 | 8 | 9 | 6 | 11 | 6 |
| Bütöv sözlər və hecalarla | 4 | 8 | 5 | 9 | 2 | — | 2 | 3 | — | — | 9 | 2 | 9 | 7 | 4 | 4 |
| Hecalarla | 3 | 2 | 1 | 1 | — | 6 | 1 | 3 | 4 | 3 | 1 | 2 | 1 | 4 | 2 | 2 |
| Hecalar və hərflərlə | 2 | 4 | — | — | — | — | — | 2 | 2 | — | — | — | 2 | 2 | 1 | 3 |
| Hərflərlə | — | 2 | — | — | — | 2 | 1 | 1 | — | 1 | 1 | — | — | 2 | 1 | 3 |
| Oxuya bilmir | — | 1 | — | — | 1 | — | — | — | — | 2 | — | 1 | — | — | — | 1 |

Yazı işlərinin nəticəsi belə oldu (Eksperimental siniflərdə 163, kontrol siniflərdə 157 şagird iştirak etmişdir.

| Qiymətlər | Elitar Gİmnaziya | | İntellekt liseyi | | Sumqayt 12 nömrəli | | Gəncə 5 nömrəli | | Lənkəran 4 nömrəli | | Zaqatala 3 nömrəli | | Quba II Nügədi | | SAlyan Yuxarı Xalac | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | E 29 nəfər | K 28 nəfər | E 31 nəfər | K 34 nəfər | E 14 nəfər | K 13 nəfər | E 21 nəfər | K 21 nəfər | E 20 nəfər | K 19 nəfər | E 13 nəfər | K 13 nəfər | E 21 nəfər | K 21 nəfər | E 14 nəfər | K 18 nəfər |
| «5» | 16 | 10 | 22 | 15 | 5 | 4 | 12 | 6 | 5 | 4 | 6 | 1 | 8 | 4 | 5 | 1 |
| «4» | 7 | 8 | 9 | 18 | 7 | 5 | 6 | 7 | 11 | 5 | 3 | 2 | 11 | 13 | 4 | 8 |
| «3» | 5 | 8 | — | 1 | 1 | 2 | 3 | 6 | 2 | 5 | 3 | 8 | 2 | 3 | 2 | 6 |
| «2» | 1 | 2 | — | — | 1 | 2 | — | 2 | 2 | 5 | 1 | 2 | — | 1 | 3 | 3 |



# YENƏ DƏ DƏRSİ-ÜSULİ-QƏDİM?

Fikrət SÜLEYMANOĞLU

**"Həyat bilgisi" haqqında söylənən bütün fikirləri diqqətlə izləsək də mətbuat vasitəsilə heç birinə cavab verməmişik. Amma bu dəfə opponentimiz qırmızı xətti keçmişdi... Ona görə də məşhur Quran kəlamına əməl etməli olduq: "*Sizə qarşı həddini aşanlara siz də həmin ölçüdə həddi aşın* (cavab verin)".**

*QURAN. Bəqərə surəsi, 194-cü ayə.*

## "Həyat bilgisi" fənni ideyası...

Biz, bir qrup ziyalı 2002-ci ildən başlayaraq ən müxtəlif vasitələrlə pedaqoji ictimaiyyətimizin diqqətini ibtidai təhsil pilləsində mövcud olan bir problemə - həyati bacarıqla formalaşdıran ayrıca inteqrativ fənnin yoxluğuna cəlb etdik. Halbuki belə bir fənn nəinki inkişaf etmiş ölkələrdə, hətta müxtəlif adlarla MDB dövlətlərində də tədris olunurdu.

Araşdırmalarımızın və qatıldığımız çoxlu müzakirələrin nəticəsində I və II siniflər üçün "Həyat bilgisi" adlı dərs vəsaitləri, III və IV siniflər üçünsə eyni adda dərsliklər yarandı. Onlar Azərbaycan dili ilə yanaşı, həm də rus və gürcü dillərində nəşr olundu. Amma bununla bağlı iki vacib məsələni xüsusi olaraq qeyd etmək istəyirəm. Birincisi, bu kitabların hazırlanmasında və nəşrində indiyəcən yalnız şəxsi vəsaitlərdən isifadə olunub. İkincisi, onların məktəblərdə istifadəsi məcburi yox, tövsiyə xarakterli olub. Yalnız bu il onlardan ikisi - III və IV siniflər üçün dərsliklər Təhsil Nazirliyinin tövsiyələri əsasında yenidən işləndikdən sonra dövlət vəsaiti hesabına nəşr edilib. Həmin dərsliklərdən 2007/2008-ci tədris ilində istifadə olunacaq.

Onu da qeyd edim ki, kitabların hüquqi sahibi olan "Pedaqogika" nəşriyyatı Gürcüstanda yaşayan azərbaycanlı şagirdlərə və ölkəmizin şimal-qərb bölgəsində yaşayan gürcü məktəblilərinə bu kitabları pulsuz paylayır.

"Həyat bilgisi"nin köməyi ilə ibtidai təhsil pilləsi şagirdləri varlıqları, təbiət hadisələrini və sadə coğrafi anlayışları öyrənir, gigiyena və şəxsi təhlükəsizlik məsələləri ilə bağlı bacarıqlara yiyələnirlər. İstehsal, istehlak, vergi, sığorta və ailə büdcəsi ilə bağlı ilkin anlayışları mənimsəməklə iqtisadi təfəkkürlərini formalaşdırmağa başlayırlar. İbtidai təhsilin məzmununa ilk dəfə daxil edilən çoxlu mövzular arasında dini bilgilərlə əlaqəli bir neçə dərs də var...

Əlbəttə, ilk addım kimi kitablarımızda müəyyən qüsurların, çatışmazlıqların olması təbiidir. Axı bizdə belə inteqrativ dərsliklərin yaradılması ənənəsi olmayıb. Ona görə də müəllim və metodistlərimizin, mətbuatımızın hər bir dəyərli təklif və qeydini minnətdarlıqla qəbul edib nəzərə alırıq və bundan sonra da almağa hazırıq.

**Arqument qulaqlar olanda...**

...Amma görülən bütün bu işlər üçün bircə cümlə belə xoş söz tapmayan Elşad Miri adlı ilahiyyatçı hər şeyin üstündən xətt çəkməyə çalışır. Yorulmaq bilmədən müxtəlif informasiya vasitələrində, o cümlədən "Azadlıq" qəzetində: *"Mənəviyyat məsələsi ilə bağlı hazırlandığı **bildirilən** bu dərslik... dini məsələlərə tamamilə biganə hazırlanıb"* , *"Həyat haqqında zərərli bilgilər verir"*- deyə car çəkir.

Aydınca görünür ki, bu iddiada bulunarkən ilahiyyatçının əsas arqumenti qulaqlarıdır. Lakin o heç bunun da mənbəyini açıqlamır ki, **kim bildirib və harda bildirib**? Şəxsən biz - müəlliflər heç yerdə, hec kəsə belə fikir söyləməmişik. Ümumiyyətlə, yaxşı olardı ki, ilahiyyatçı bu "işə" girişərkən qulaqlarına yox, gözlərinə etibar edəydi. *Zəhmət* çəkib fənnin müvafiq sənədlərdə təsbit olunmuş məqsəd və vəzifələrini, proqramını öyrənəydi. Tənqid etməyə çalışdığı kitabların məzmununu həmin proqramla müqayisə edəydi, aydınlaşdıraydı ki, onlar din və mənəviyyat məsələlərini nə dərəcədə əhatə etməlidir, ancaq etmir. Axı dərslik hər hansı ilahiyyatçının və ya müəllifin istək və arzuları əsasında yox, rəsmi proqram əsasında, şagirdlərin yaş və hazırlıq səviyyəsi nəzərə alınmaqla yaradılır.

Görünür, dərslik məsələlərində hələ təcrübəsi olmayan gənc ilahiyyatçını doğrudan da qulaqları pis vəziyyətdə qoyub. O, Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulum) əsasında hazırlanacaq və 2008 - 2009-cu tədris ilindən tətbiqinə başlanacaq "Həyat bilgisi" dərslikləri haqqında haradasa eşitdiklərini mexaniki olaraq bu gün məktəblərdə istifadə olunan, kurrikulumla heç bir əlaqəsi olmayan dərs vəsaiti və dərsliklərə aid edib. Həqiqətən də yeni dərsliklərdə dörd məzmun xəttindən biri din və mənəviyyatla bağlı olmalıdır. Amma bunun bizim kitablara nə aidiyyəti var? Həmin dərsliklər müvafiq qaydalara uyğun olaraq bu günlərdə mətbuatda elan olunmuş açıq müsabiqə yolu ilə hazırlanacaq. Elşad Miri istəsə, bilik və bacarığını həmin müsabiqədə iştirak etməklə reallaşdıra bilər...

**I sinif dərsi...**

Yuxarıda qeyd etdiyimiz kimi, I və II siniflər üçün dərsliyimiz yox, dərs vəsaitlərimiz nəşr olunub. Məktəb haqqında elementar məlumatı olan hər kəs bu anlayışlar arasındakı fərqin nə qədər böyük olduğunu yaxşı bilir. İlahiyyatçı isə sanki üzümüzə durumuş kimi *"1-ci və 2-ci sinif şagirdləri üçün yazılan*

*dərsliklərdə, ümumiyyətlə, dinlə bağlı heç bir mövzu yoxdur"* deyir və soruşur: *"Həyat bilgisi" özü bir şey bilirmi?..*

Məlum olmur ki, onun dərslik adlandırdığı vəsaitlərə dinlə bağlı dərslər hansı proqram və ya sənədə əsasən daxil edilməliymiş? O ki qaldı bilməyə, gəlin bizim billəndərin yazdıqlarına baxaq: *"Dövlət atributumuz olan bayrağın rəngləri ilə bağlı uşaqlarda səhv təsəvvür yarada biləcək məlumatlar var ...**göy** (!) rəng səmaya, qırmızı rəng müasirliyə oxşadıldığı halda İslamla, dinlə bağlı olan rəng ota oxşadılır".* Gördüyünüz kimi, tənqidçi bayrağımızın konstitusiyada təsbit olunmuş mavi rəngini özbaşına göylə əvəz edir. Özü də "əvəzləmə" bununla bitmir. Sahibi və redaktoru olduğu ***www.islam.com.az*** saytında bayrağın ay və ulduzunu dünyaya ağ əvəzinə sarı rənglə tanıdır. Hətta xəbərdarlqdan sonra də düzəltmək istəmir.

Diqqətlə fikir verirsinizsə, ilahiyyatçını rənglərdən ancaq birinin - yaşılın izahı narahat edir. Mavi rəngin izahı ilə bağlı isə susur. Çünki bu rəngin tələb etdiyi ənənəvi formada izahını onun dünyagörüşü qəbul etmir. Yəni özünü müsəlman kimi təqdim edən şəxs üçün "ümmət" anlayışı var, "millət" anlayışı isə yox. Həmin izahda mavi rəngin etnosla - türklüklə bağlı olduğu isə hamıya məlumdur...

Bəli, bizim izahımız ilahiyyatçının təklif etdiyi "üsuli-qədim" təliminə yox, bu gün məktəblərdə tətbiq olunan interaktiv təlim metodunun tələblərinə və I sinif şagirdlərinin səviyyəsinə uyğundur. Bu metoda görə, bilik daha müəllim tərəfindən diktə edilmir ("Əlifzəbər-Ə..."). Əksinə, indi təlimin subyekti kimi qəbul edilən şagirdlərin özləri tərəfindən axtarılıb, araşdırılıb tapılır. Məsələn, müəllim sual verir: " Bayrağımızdakı mavi rəng təbiətdə nəyin rəngidir? Bəs yaşıl rəng?". I sinif şagirdləri onların analoqunu birlikdə axtarıb tapır və müəllimin növbəti yönləndirici sualları ilə müəyyən dəyərlərlə əlaqələndirə bilirlər: " Mavi - Göyün rəngidir. Biz Göyə and içirik. Deməli, o, təmizlik və müqəddəslik rəmzidir. Yaşıl - otların, yarpaqların rəngidir. Bitkilər canlıdır. Deməli, o, həyat rəmzidir və s. ". Bu, həm də gələcək ənənəvi ideoloji izah üçün təməl rolunu oynayır. Bəyəm türk düşüncəsi Göy mavisini müqəddəslik (Göy Tanrı) rəmzi, İslam yaşılı həyat rəmzi olaraq seçməyibmi?

İndi ilahiyyatçıya təklif edirəm, sinifdə elə şərait yaratsın ki, hələ yazı-pozu bilməyən körpələr bu rəngləri türklük və İslamla əlaqələndirə bilsinlər, özü də həmin anlayışları qavraya bilmək şərtilə. Kimsə bunun mümkünlüyünə inanırmı? Yoxsa yenə onlara orta əsrlərdəki kimi tələm-tələsik, zorla, mənasını anlamadıqları sözlər əzbərlədək? Yenə də onlara obyekt kimi baxaq? O ki qaldı I sinif şagirdinin bayrağımızın rənglərinin məlum ideoloji izahını bilməsinə, bunu öyrənmək üçün onun qarşısında hələ kifayət qədər vaxt var. Pedaqogika elmi belə şeylərdə tələsməməyi məsləhət görür...

Bax elə buna görə də opponentimizin "həmin fənləri ilahiyyatçılar keçməlidir" tələbinin yerinə yetirilməsi qeyri-mümkündür. Çünki təlim məsələləri ilə bağlı işləri bütün dünyada ilahiyyatçılara yox, pedaqoqlara etibar edirlər.

**İnsana qiyməti əcdadının kim olmasına görə vermirlər...**

Bu günə qədər dərsliklərdə dünyanın yaranması ilə bağlı yalnız materialist dünyagörüşün təbliğ olunduğunu hamı yaxşı bilir. Biz bu ənənəni sındırdıq və təhsil tariximizdə ilk dəfə əsas dini dünyagörüşü onunla yanaşı verdik. Alim və pedaqoqlarımzın təqdirlə qəbul etdiyi bu addımı gənc ilahiyyatçı "uşaqların beynini qarışdıracaq" süngüsü ilə qarşılayır. Bəs onda bu yanaşmanın "bolşevik yoldaş"ların dinə münasibətindən fərqi nədir? İlahiyyatçı yoldaş hamının onun kimi öz əcdadının Allah tərəfindən yaradıldığını düşünmədiyini qəbul etmək istəmir. Ona görə də təəccüblə soruşur: *"İnsan hələ də meymundan əmələ gəlib?"*. Görünür, o da bəziləri kimi belə fikirləşir ki, materiralizm Sovet İttifaqının süqutundan sonra aradan qalxmalı imiş. Səhv yanaşmadır, bu dünyagörüş sovetlərdən əvvəl də vardı, bu gün də var, sabah da olacaq. Bəyəm Çin və Koreya (KXDR) kimı dövlətlərin rəsmən ateist dövlətlər olduqlarından xəbəriniz yoxdur? Ondan da xəbəriniz yoxdur ki, bir çox müsəlman qardaşlarımızın "əsl insan cənnəti" adlandırıb can atdıqları Norveç və İsveç kimi dövlətləri qurub-çiçəkləndirən əhalinin əksəriyyəti ateistdir?

Hələ bu harasıdır,Yer üzündə fərqli düşünən - əcdadının nəinki meymundan, hətta balıqdan, tısbağadan, ağacdan əmələ gəldiyinə inanan, ən müxtəlif varlıqlara səcdə edən insanlar da var. Buna görə heç kəsin onları qınamağa nə mənəvi, nə də hüquqi haqqı var.

Mən də dünyanın tək olan Allah tərəfindən yaradıldığına inanıram. Amma bu mənə haqq vermir ki, başqalarına qarşı: *"Biri də meymundan əmələ gəldiyini deyir...", "Ateistlər özlərini adam saymırlar"* kimi həqarət dolu ifadələr işlədim. İlahiyyatçının "məntiq"inə görə, əcdadının Adəm olduğunu qəbul etmirsənsə, özünə adam deməyə haqqın yoxdur.

Yadda saxlamaq lazımdır ki, bu gün dünyada insana qiyməti irqinə, dilinə, dininə, öz əcdadının yaradılışını hansı heyvanla bağladığına görə yox, ağlına, bacarığına və ən başlıcası isə başqalarına münasibətinin insani, yoxsa heyvani olmasına görə verirlər!

İlahiyyatçı "Yer necə əmələ gəlib?" adlı dərsdəki "alim" və "dindar" anlayışlarını kontekstdə anlamadığından aləmi qarışdıraraq soruşur: *"Dindar insanlar alim ola bilməzlər?"*. Nə etmək olar, aydınlaşdıraq. Bu kontekstdə alim dedikdə, dünyanın əbədiliyini, heç kəs tərəfindən yaradılmadığını, onun zaman və məkan daxilində sonsuzluğunu və dərkinin obyektivliyini əsaslandıran mütəxəssislər nəzərdə tutulur. Təbii ki, bura dindar alimləri aid etmək mümkün deyil. Çünki onlar oxumaq-yazmaq bilməyən din qardaşları kimi bütün varlıqların Allah tərəfindən yaradıldığını sübuta ehtiyacı olmayan həqiqət - aksioma kimi qəbul edirlər. Burada alim və ya şagird olmasından asılı olmayaraq heç bir dindarın yaradılış haqqında müqəddəs kitabda yazılanlardan fərqli fikir söyləməyə və ya düşünməyə ehtiyacı yoxdur. Yəni bu məsələdə nurçuların ABŞ-dakı lideri çox

hörmətlı Gülən Əfəndinin, Bakıda ilahiyyatçı Elşad Mirinin və Əfqanıstandakı türk liseyinin III sinif şagirdi Həmidin görüşləri tamamilə üst-üstə düşür...

O ki qaldı "Dindarlar öz Yaradanlarına ibadət edirlər " cümləsindəki *lar* şəkilçisindən zorla *"Bir neçə Yaradan varmış..."* nəticəsi çıxarıb sərlövhəyə daşımağa, buna köhnə yazarlar "özünə iş-güc tapmamaq" deyərdilər. Bu məntiqlə hər hansı bir xanımın "Mənim uşaqlarım öz atalarını çox sevirlər" sözlərindən də onun coxərli olması qənaəti yaranmalıdır.

Əgər ilahiyyatçı bizim "Yaradanlar"dan bu nəticəni çıxarırsa, onda müqəddəs kitabımızdakı Muminin surəsinin 14-cü ayəsindəki "**Yaradanların ən gözəlı olan Allah uludur!** ", Səffat surəsinin 125-ci ayəsindəki "**Məgər siz Yaradanların ən yaxşısını qoyub Bələ ibadət edirsiniz?**" kimi kəlamlardan hansı nəticə çıxarmağı düşünür?

**Peyğəmbərimizin adını necə yazaq?**

İlahiyyatçının əksər hallarda kitabların məzmununu bir kənara qoyub müəlliflərin şəxsiyyətinə yönəlik, qəbul edilməsi mümkün olmayan ifadələrlə oyunbazlıq etməsi bizi onun sahib olduğu dəyərlər barədə düşünməyə vadar edir. Doğrudanmı oxuduğu məktəb, mədrəsə və ilahiyyat fakültəsi şəkillərlə bağlı "mentalitet davası" çəkən bu gəncdə heç olmasa böyüyə hörmət nəzakəti belə formalaşdıra bilməyib?!

Peyğəmbərimizin adını Məhəmməd kimi verdiyimizə görə görün o, müəlliflərdən biri ilə bağlı nələr yazır: *"...Zahid Qaralovun adını başqa dildə Cahid, Zuhid və ya soyadını Qaraşov və s. kimi yazılması qəbul edilməyəcəyi kimi, Peyğəmbərin adını Məhəmməd kimi deyil, artıq əslində olduğu kimi Muhəmməd yazılmalıdır "(?!).*

Təhsilimiz qarşısında xidmətləri heç ən qatı opponentləri tərəfindən belə inkar edilməyən, babası yaşında ağsaqqal bir professorun adı və soyadı ilə bağlı işlətdiyi ifadələr bu gəncin dəyərlərinin ünvanını göstərmirmi? Görəsən, Peyğəmbərimizin adının dilimizdə əsrlər boyu belə qəbul olunub yazılmasında Zahid müəllimin və ya bizim günahımız nədir? Bu yerdə adamın yadına "Özgəyə ağıl verən mollanın özü..." sözləri düşür. Mən oxuculara bu şəxsin yuxarıda adı çəkilən saytına baxmağı təklif edirəm. Həmin saytda yerləşdirilmiş məqalə, tərcümə və müsahibəsində Peyğəmbərin adının dəfələrlə Məhəmməd şəklində işləndiyini görə bilərsiniz. İndi biz də onun adını və soyadını öz "məntiq"inə uyğun olaraq Elsat Piri kimi yazmalıyıq?!

Mənbəyi məlum olmayan qəzəb və hikkə onun gözünü o qədər tutub ki, Peyğəmbərimizin adının az qala heç bir xalqın dilində ərəb dilində olduğu kimi yazılıb, tələffüz oluna bilməyəcəyini belə unudub.

Xoşbəxtlikdən ilahiyyatçının yadına Allah sözünün ərəb dilində olduğu kimi **Əllah,** Ömərin **Umər**, Osmanın **Usmən** formasında yazılması tələbi düşməyib. Hələ heç başqa peyğəmbərlərin, imamların və tarixi şəxsiyyətlərin adlarını

demirik. Yəqin Elşad Miri hələ daşının üstünə bir daş qoymadığı, Azərbaycan dilinin qayda-qanunlarına, orfoqrafiyasına da əl gəzdirmək iddiasındadır. Əgər belə fikri varsa, ünvanı yenə səhv salıb. Bunun üçün siyirməqılınc bizim üstümüzə gəlmək yox, Terminologiya Komissiyasına getmək lazımdır.

**Qonşularımıza raket olar, bizə qılınc da olmaz?**

IV sinif dərsliyində Hz. Peyğəmbərimizin muzeydə saxlanan qılınclarının şəkillərinin verilməsi ilahiyyatçını qara fikirlərə qərq edir: *"Peyğəmbərin qılınclarının şəklini göstərmək, valideynlərimizin və bizlərin bilmədən işlətdiyimiz "qılınc müsəlmanı" sözünü körpə beyinlərə həkk eləmək kimi bir şeydir"*. Vallah, burada adamın yadına rusların "Каждый думает по мере своей испорченности" sözlərinin düşməməsi heç cür mümkün olmur!

Birincisi, "bilmədən işlətdiyiniz" düşmən mənşəli həmin sözlərə görə siz özünüz məsuliyyət daşıyırsınız, cənab ilahiyyatçı! Biz elə sözləri nəinki yazmır, heç dilimizə belə gətirmirik. İkincisi, müəllimlər sizdən fərqli olaraq dərslikdəki şəkillərdən nəticəni bilmədən yox, bilə-bilə çıxarır və körpə beyinlərə çox tərbiyəvi fikirlər həkk edirlər. Məsələn, "Peyğəmbərimizin əsl silahı onun dərin elmi, gözəl əxlaqı, mərhəmətliliyi və sülhsevərliyi idi. Amma üstünə qılıncla gələnlərin cavabını vermək üçün də belə qılıncları vardı".

Üçüncüsü də, əgər bədxah qonşularımız "Əlifba" kitabları vasitəsilə öz körpələrinin beyninə müsəlmanların başına endirilmiş qılınc şəkli, raket şəkli həkk etməkdən çəkinmirlərsə, siz niyə muzeydə qınında saxlanan qılıncın şəklindən xoflanırsınız?

**Tənqid, yoxsa cırmaqlama?...**

İlahiyyatçının tənqidçi ehtirası bəzən onu "sözün əsl mənasında" kitabları didib-cırmaqlama həddinə çatdırır. O dəfələrlə təkrar edir: *"...siqaretin zərərlərindən çox bəhs edildiyi halda, spirtli içkilərin ziyanlarından çox az bəhs edilir"*. Amma aydınlaşdırmır ki, öz yanaşmasında hansı ölçü metodundan istifadə edir. Əvvəla, IV sinif şagirdləri üçün siqaret mövzusunun spirtli içkilər mövzusundan daha aktual olduğunu istənilən ibtidai sinif müəllimi və psixoloqu təsdiq edə bilər. İkincisi, dərsliklərdə məzmun yalnız mətnlə yox, həm də güclü təsirə malik şəkillərlə ifadə olunur. Məsələn, şagirdlər həmin səhifədə spirtli içki qəbul etmənin nəticəsi ilə bağlı verilmis şəkil üzrə çox tərbiyəvi bir hekayə də qura bilərlər. Ona görə də ilahiyyatçının "ölçmə metodu" pedaqoji baxımdan kökündən səhvdir. Görünür, onu hiddətləndirən spirtli içkilərə dini deyil, tibbi nöqteyi-nəzərdən yanaşmağımızdır...

Ümumiyyətlə, ilahiyyatçı kitablarımızdakı hər şeyə beləcə, şəxsi prizmasından baxmaqla reaksiya verir. Unudur ki, dərsliklərə münasibətdə bu, yolverilməzdir. Buyurun, baxın onun münasibətinə: *"...bugünkü Quran şəklinin əvəzinə ...əllə yazıldığı iddia edilən qədim Quran şəklinin yerləşdirilməsi səxsən mənim üçün anlaşılmaz qalır"*. İndi gərək oturub fikirləşək, cənab ilahiyyatçı

üçün qədim Quranın əvəzinə "bugünkü Quran"lardan hansının şəklini seçib versək anlaşıqlı ola bilərmiş? Bir də biz iddia etmirik, təsdiq edirik: o, Qurandır! Buna yəqin olmaq üçün kiçik bir xeyirxah nəzər də kifayətdir. O da yoxdursa, ilahiyyatçı şəklin böyüdülmüş variantını istədiyi vaxt nəşriyyatdan götürə bilər.

Və yaxud o *"Məkkə şəhərinin görüntüsündə də dağ və bir neçə binadan başqa yer görünmür"* deyir. Əgər Məkkə haqqında ilkin təsəvvür yaratmaq üçün eyni səhifədə şəhərin və müqəddəs Kəbənin məşhur görüntüsü yanaşı verilibsə, opponenti qane edəcək daha nə çatmır?

İndi isə onun "Mömin müsəlmanlar gündə beş dəfə namaz qılmaqla..." cümləsinə etirazına fikir verin: *"Buradakı "mömin müsəlman" ifadəsi yeni bir termindir. Sanki "mömin müsəlmanlar" gündə beş vaxt namaz qılmalıdırlar, amma müsəlmanlar yox"*. Əvvəla, bu ifadəni bizim kəşf etmədiyimizi yəqinləşdirmək üçün dilimizin izahlı lüğətinə baxın. Orada "mömin" ifadəsinin izahı belə verilib: "İnandığı dinin ehkamlarına ciddi surətdə əməl edən adam". Deməli, bu termin dilimizdə İslamın tələblərinə ciddi əməl edən və etməyən müsəlmanları fərqləndirmək üçün işlədilir. İkincisi də, biz kimin namaz qılıb-qılmayacağını müəyyən etmək səlahiyyətində olmadığımızın fərqindəyik...

**Biriləri başını konstitusiyaya döyür...**

Açıq-aydın görünür ki, "Həyat bilgisi" ilə bağlı hay-küy Elşad Mirinin əsas fikirlərini ortaya qoyması üçün bir vasitədir. O, məktəblərimizdə din dərslərinin tədrisini get-gedə daha gur səslə tələb edən kəsimlərdən birinin baxışlarını təmsil edir. Nə olar, qoy etsin. Şəxsən mən belə tələblərə tolerant yanaşma tərəfdarıyam. Amma əvvəlcə bu tələblərin Əsas Qanunumuza - konstitusiyamıza nə dərəcədə uyğun olub-olmadığını aydınlaşdırmaq lazımdır. Onun 18-ci maddəsində belə yazılıb: "**Azərbaycan Respublikasında din dövlətdən ayrıdır... Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır**". Təbii ki, Nazirlər Kabineti və Təhsil Nazirliyimiz də buna uyğun olaraq "Ümumi təhsil sistemində dərslik siyasəti" adlı konseptual sənədin 3.1-ci maddəsində müəlliflər üçün ayrıca tələb qoyublar: "**Dərsliklərdə dünyəvilik prinsipinə riayət edilməlidir**". Deməli, bu gün ümumtəhsil məktəblərimizdə ayrıca din dərslərinin tədrisinə icazə verən və bunu tənzimləyən hüquqi baza yoxdur. Əgər kimsə bunun əksini düşünürsə, başını bilə-bilə konstitusiyaya döyür...

Qardaş Türkiyəni nümunə göstərmək də məsələnin məğzini bilməməkdən irəli gəlir. Bəli, Türkiyə Cümhuriyyəti Anayasasının 24-cü maddəsində hamının başa düşəcəyi şəkildə yazılıb: "**Din kültürü ve ahlak öğretimi ilk ve orta-öğretim kurumlarında okutulan zorunlu dersler arasında yer alır**". Elə buna görə də orada IV sinifdən başlayaraq "Din və ahlak kültürü" adlı ayrıca fənn tədris olunur. Amma din dərslərinin dövlət nəzarəti altında tədrisi ilə problemlər həll olunsaydı, bu ölkənin təhsil naziri Avropa Məhkəməsini şikayət atəşinə tutan ələvi məzhəbli vətəndaşlarından televiziya vasitəsilə üzr istəməzdi. "Hizbullah qəbiristanlıqları" ortaya çıxmaz, xristian missionerlərin başları orta əsr üsulları ilə

kəsilməzdi. Hələ ölkədəki sonu görünməyən "cümhuriyyətçi - dinçi qarşıdurması"nı demirəm...

**Bizim öz yolumuz var...**

Azərbaycanda haqlı olaraq bu məsələyə fərqli yanaşma tərzi var. Ənənələrimiz, dünya təcrübəsi və ən başlıcası da konstitusiyamız nəzərə alınmaqla hazırlanan Milli Kurrikulumla tədris prosesinə daxil edilmiş müxtəlif həyati bacarıqlar formalaşdırmağa xidmət edən yeni "Həyat bilgisi" fənninin dörd məzmun xəttindən biri də, yuxarıda deyildiyi kimi, mənəviyyatla bağlıdır. Bu məzmun xəttinin köməyi ilə şagirdlər İslam və digər dünya dinlərinə aid ilkin bilgilər əldə edəcək, onların oxşar və fərqli cəhətlərini öyrənəcək, gözəl mənəvi dəyərlər formalaşdırmaqda dinimizin imkanlarından bəhrələnəcəklər. Dinlə xurafat arasındakı fərqləri ayırd etmə və zərərli təmayüllərdən uzaq durma bacarıqlarına yiyələnəcəklər. Amma xüsusi olaraq vurğulamaq istəyirəm ki, bu dərsləri heç bir halda din dərsləri adlandırmaq mümkün deyil!

Ona görə də bütün bunları görməzliyə və ya bilməzliyə vurub, *"Repressiya üsulları bir kənara qoyulmalı,* ***dövlət ...dinlə bağlı fənnin tədrisini gecikdirmədən həyata keçirməlidir****"* kimi tələblər irəli sürmək, ölkənin hələ mürəkkəbi qurumamış taleyüklü rəsmi sənədinə hörmətsizlik deməkdir. Şübhəsiz, vətəndaşın istədiyi qanunu müzakirə etmək, onun təsir dairəsinə düşən məsələlər barədə təkliflər irəli sürmək hüququ var. Amma bu müzakirə, tələb və təkliflərin də bir məntiqi əsası olmalıdır. Baxın, çoxillik din tədrisi təcrübəsi olan Türkiyədə bu dərslər IV sinifdən başlayaraq keçilir. Elşad Miri isə I və II siniflər üçün dərs vəsaitlərində dinlə bağlı heç nə yoxdur deyə, "*Həyat bilgisi" özü bir şey bilirmi?*" kimi özünə yaraşan sual verir.

*"Müxtəlif dini və məzhəb təmayüllü insanlar, missionerlər öz etiqadlarını yaymaqda davam edir və uğur da əldə edirlər"* kimi sözlər belə ciddi işlər üçün əsas ola bilməz. Bəyəm missionerlər dövlət təhsil sistemi yolu ilə uğur əldə edirlər? Bu sözlər bir belə alim, üləma, ilahiyyatçı, qazi, axund, imam, molla və sıravi dindarın sözlərinin cəmiyyətdə keçərsiz olduğunu iddia etmək anlamı daşımırmı? Yəni biz missiyamızı yerinə yetirə bilmirik, camaat bizim arxamızca getmir, qoy dövlət özü onları zorla bizim arxamıza yığsın. İbtidai sinif şagirdlərinə Türkiyədəki kimi "zorunlu din dərsi" öyrətsin. Bəs onda Quranın "Dində məcburiyyət (zorakılıq) yoxdur" xəbərdarlığını nə edək? Uşaqlarına zorla din dərsi öyrədildiyinə görə bəzi valideynlərin məktəbi məhkəməyə çəkməyəcəyinə beləmi əminsiniz?

Daha yaxşısı bu deyilmi ki, inkişaf etmiş ölkələrdə qəbul olunan prinsipi mənimsəyək: **"Məktəbdə heç kim və heç nə şagirdin dinə meylinə mane ola bilməz! Məktəbdə heç kim və heç nə şagirdi dinə meyilləndirə bilməz!"**. Dinlə bağlı təhsil məsələsini isə Qafqaz Müsəlmanları İdarəsinin dövlətin dəstəyi ilə tamamilə yenidən qurulmalı olan xüsusi qurumuna həvalə edək.

**Vətəndə də "təsir dairəsinə" düşənlər var...**

Dini sferadakı çalxalanmaların gözlə görünər hala gəlməsi mübahisəsizd... Amma onun "yağının yağ, ayranının ayranlıq" olacağı gün də elə uzaq da deyil. Dövlətin iqtisadi gücünün artması, hüquqi institutların möhkəmlənməsi, dini bilgilərini günbəgün artıran, bir-birinin inamına qarşı tolerantlıq nümayiş etdirən yeni bir nəslin yetişməsi buna ən yaxşı təminatdır. Bir ailədə fərqli məzhəblərə qulluq edən insanların birlikdə, çağdaş insanlara yaraşan bir şəkildə yaşaması da günümüzün reallığıdır. Müxtəlif dini mərkəzlərdə təhsil alıb qayıdan gənclərimizin əksəriyyəti də bu prosesə hay-küysüz, çox səmərəli bir şəkildə qoşulur. Amma təəssüflər olsun ki, Elşad Miri bu məsələdə də bölücülük edərək deyir: *"Xarici ölkələrdə dinlə bağlı təhsil alan gənclərimiz, aydındır ki, həmin... yerlərin təsiri altında qalacaqdır. Bu cür kənardan idxalın qarşısını ölkədə yetişdirilən mütəxəssis kadrlar və onların təsir dairəsi ilə almaq olar"*.

Cənab ilahiyyatçı, missionerlərin müvəffəqiyyətinin və şəxsən sizin müvəffəqiyyətsizliyinizin başlıca səbəblərindən biri məhz budur. Onlar öz işlərini birlikdə görür, siz isə iş görənlərə dəstək olmaq yerinə badalaq vurur, bölücülüklə məşğul olursunuz. Cəmiyyəti Adəmdən və heyvandan əmələ gələnlərə bölməsəniz, xaricdə və daxildə oxuyanları qarşı-qarşıya qoymasanız, işə xarici görünüşə baxıb götürməyi təklif etməsəniz, hər şey yaxşı olar! Bir də özünüz də gözəl bilirsiniz ki, adamları yalnız xaricdə yox, gəlib öz vətənində də "təsir dairəsi"nə salırlar... ❑

## ƏDƏBİYYAT


1. Quran (*Azərbaycan dilində*). Bakı, 2005
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2001.
3. Türkiye Cümhuriyyeti Anayasası. Ankara, 2004.
4. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu). Bakı, 2007.
5. Azərbaycan Respublikasının Ümumi təhsil sistemində dərslik siyasəti. Bakı, 2005.
6. "Həyat bilgisi" fənni proqramı (I - IV siniflər). İbtidai məktəb və məktəbəqədər tərbiyə. N 2, 2007.
7. *Qaralov Z., Osmanlı Ə., Süleymanoğlu F., Məmmədov V.* "Həyat bilgisi" (1-ci sinif üçün dərs vəsaiti). Bakı, 2004.
8. *Qaralov Z., Osmanlı Ə., Süleymanoğlu F., Məmmədov V.* "Həyat bilgisi" (2-ci sinif üçün dərs vəsaiti). Bakı, 2005.
9. *Qaralov Z., Hüseynov Ə.,Osmanlı Ə., Süleymanoğlu F., Məmmədov V.* "Həyat bilgisi" (3-cü sinif üçün dərslik). Bakı, 2006.
10. *Qaralov Z., Hüseynov Ə., Osmanlı Ə., Süleymanoğlu F., Məmmədov V.* "Həyat bilgisi" (4-cü sinif üçün dərslik). Bakı, 2006.
11. "Azadlıq" qəzeti, 19 və 20 iyul 2007-ci il.
12. "Ekspress" qəzeti 30 iyun - 2 iyul 2007-ci il.
13. www.islam.com.az